ELNUR HÜSEYNOV
NİYAMƏDDİN QULİYEV
PƏRVİZ AĞALAROV

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

# ÜMUMİ TARİX

fənni üzrə dərsliyin

## METODİK VƏSAİTİ

Layihə

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# Mündəricat









Dərslik və müəllim üçün metodik vəsait haqqında............................. 4
Ümumi tarix fənninin tədrisinin müasir tələbləri ................................ 8
Ümumi tarix fənninin tədrisinin məqsədləri ........................................ 8
Ümumi tarixlə bağlı ümumi təlim nəticələri.......................................... 9
VII sinif Ümumi tarix fənni üzrə məzmun standartları........................10
VII sinif Ümumi tarix fənni üzrə alt standartların inteqrasiya imkanları .................................................................................. 11
Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi .....................13
Qiymətləndirmənin üsul və vasitələri ....................................................14
Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr ...... 27
VII sinif tarixi öyrənmə prosesində şagirdlərin fəaliyyət və bacarıq formaları .................................................................................29
Müəllimlərə metodik tövsiyələr. İnteraktiv təlim nədir?.................. 31
Fəal dərsin planlaşdırılmasına dair tövsiyələr .......................................47
Dərslərin illik planlaşdırılması ................................................................48
Dərslərin icmalı və tövsiyələr...................................................................49
**Mövzu 1.** Feodal münasibətlərinin meydana gəlməsi......................50
**Mövzu 2.** Xalqların böyük köçü. Avropa Hun və Ağ Hun dövlətləri .....................................................................................52
**Mövzu 3.** Göytürk və Uyğur xaqanlıqları ...........................................55
**Mövzu 4.** Avar, Xəzər və Bulqar dövlətləri...........................................58
Mövzu 5. Sasani dövləti. Qafqaz.............................................................63


Layihə














Mövzu 6. Ərəb xilafəti. ........ 65
Mövzu 7. Samani, Oğuz, Qaraxanlı, Qəznəli dövlətləri........ 68
Mövzu 8. Frank dövləti........ 73
Mövzu 9. Bizans. Slavyanlar........ 75
Mövzu 10. Mədəniyyət........ 77
Mövzu 11. Böyük Səlcuq dövləti........ 80
Mövzu 12. Böyük Monqol imperiyası. Qızıl Ordu.
Moskva knyazlığı........ 82
Mövzu 13. Dehli sultanlığı. Böyük Moğol dövləti........ 86
Mövzu 14. Osmanlı imperiyası........ 89
Mövzu 15. Teymuri dövləti........ 92
Mövzu 16. Xaçlı yürüşləri........ 95
Mövzu 17. İtaliya........ 97
Mövzu 18. Fransa........ 99
Mövzu 19. İngiltərə........ 102
Mövzu 20. Reformasiya........ 104
Mövzu 21. Texniki ixtiralar. Böyük coğrafi kəşflər........ 107
Mövzu 22. Şərq xalqlarının mədəniyyəti........ 109
Mövzu 23. Avropa və Amerika xalqlarının mədəniyyəti........ 113

Kontur xəritələr........ 118
İstifadə edilmiş ədəbiyyat........ 126


Layihə

**Metodik vəsaitdə verilən bu və ya digər tövsiyələr sizin vasitənizlə şagirdlərin Ümumi tarix fənni üzrə bilik və bacarıqlarının formalaşdırılıb inkişaf etdirilməsinə hesablanmışdır.**

## DƏRSLİK VƏ MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT HAQQINDA

Müstəqillik qazandığı gündən Azərbaycan dövləti bütün sahələrdə ardıcıl inkişaf yolu tutmuş və dünyanın qabaqcıl ölkələri ilə bərabər səviyyəsinə yüksəlməyi qarşısına məqsəd qoymuşdur. Qloballaşan dünyada inteqrativliyin qorunub saxlanması, nailiyyətlərin əldə olunması, uğurlar əldə etmək üçün təhsilin, əsasən də, dərsliklərin rolu öz aktuallığını saxlamaqdadır. Şəxsiyyətyönümlü və inteqrativ məzmuna əsaslanan, yeni təlim strategiyalarından istifadə etməyə şərait yaradan dərslik hazırlamaq müasir dövrün tələblərindən biridir. Xüsusən yeni təhsilə yeni yanaşma və bu yanaşmanın nəticəsi olaraq öhdəyə düşən vəzifəni layiqincə yerinə yetirmək bir sıra tədbirlərin həyata keçirilməsini zəruri edir. Hər bir tarix müəllimi tədris etdiyi fənnə uyğun olaraq tədris resurslarının yaradılması sahəsində maraqlı olmalı, dərsin gedişində əyaniliyə üstünlük verməklə yanaşı, fəal-interaktiv təlim mühiti yaratmalıdır.

7-ci sinif Ümumi tarix dərsliyi hazırlanarkən ölkədə həyata keçirilmiş təhsil islahatlarına, xüsusən də dərsliklə bağlı qarşıya qoyulan tələblərə xüsusi diqqət ayrılmışdır. Təlim və tərbiyənin daim nəzarətdə saxlanılması və bu sahədə aparılan işin mühüm hissəsi kimi dövlətin qoyduğu təhsil standartlarının tələbinə uyğun dərsliklərin hazırlanmasının vacibliyi əsas götürülmüşdür. Azərbaycan Respublikasının ümumitəhsil müəssisələri üçün 7-ci sinif Ümumi tarix dərsliyi və Müəllim üçün metodik vəsait müvafiq fənn kurikulumu əsasında tərtib olunmuşdur.

Bildiyiniz kimi, müasir dövrdə dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biri hesab edilir. Şagird şəxsiyyətinin formalaşdırılmasında və inkişafında dərsliklərin rolu əvəzsizdir və onun tələblərə uyğun hazırlanması zəruridir. Sizə təqdim etdiyimiz dərslik komplekti özünün funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izahı verilməklə təqdim olunmuşdur. Şagirdlərin idraki fəaliyyətinin inkişafında rol oynayan dərslik özünəməxsus, orijinal xüsusiyyətləri ilə daha çox maraq doğuracaqdır. Ən zəruri informasiyalar, tapşırıq, sual və çalışmaları özündə əks etdirən 7-ci sinif Ümumi tarix dərsliyi istiqamətverici, düşündürücü funksiyaları özündə birləşdirir. Dərslikdə informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Fənn kurikulumuna uyğunluq dərsliyin əsas keyfiyyətlərindən biri kimi qeyd edilə bilər. Bunu nəzərə alaraq hazırlanmış dərslik fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq edəcəkdir. Bununla yanaşı, təqdim olunan şəkil və illüstrasiyalar, yaradıcı sual və tapşırıqlar şagirdləri tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirəcəkdir. Dərslik təkcə bilik vermək, məlumatlandırmaq deyil, şəxsiyyətin formalaşmasına, şagirdlərin öz üzərlərində çalışmasına, tənqidi, məntiqi və yaradıcı təfəkkürünü formalaşdırmaq funksiyasına da xidmət edir.

Bildiyiniz kimi, şagirdləri fəaliyyətə sövq etmək, həmçinin praktik olaraq işin icrasına imkanlar yaratmaq müasir dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir. Dərsliyin şagirdlərdə müxtəlif bacarıqların formalaşdırmasına imkan yaratması onu üstün cəhət kimi dəyərləndirilir. Bunun üçün müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur. Bu tələbləri nəzərə almaqla dərslikdə, eləcə də metodik vəsaitdə əsas nüanslara yer ayrılmışdır. Bununla yanaşı, inteqrativ bacarıqların inkişafına imkan yaratmaq, onu şəxsiyyətin ümumi keyfiyyətinə çevirmək üçün dərslik komplektində yetərincə imkanlar açılmış, şagirdlərin dünyagörüşünün formalaşdırılmasının

Layihə

diqqət mərkəzində saxlanılması üçün lazımi məlumatlar, şəkil və illüstrasiyalar, eləcə də digər öyrədici və düşündürücü vasitələr qabarıq şəkildə əks etdirilmişdir.

Yeni dərslikləri fənn proqramlarının tələblərinə uyğun səviyyədə hazırlamaq üçün bir sıra mühüm pedaqoji prinsiplərin gözlənilməsi zəruri hesab edilir.

**Düzgünlük.** Bu prinsip dərsliyi qeyri-ciddi faktlardan uzaqlaşdırır, inandırıcı, stimullaşdırıcı mənbəyə çevirir. Onu şagird üçün etibarlı tədris resursuna çevirir. Dərsliyin bu prinsipə uyğun hazırlanması üçün aşağıdakı tələblərin nəzərə alınması əsas götürülmüşdür:

- ✓ təlim standartlarına uyğunluq;
- ✓ faktların dəqiqliyi;
- ✓ durğu işarələrinin, orfoqrafik və qrammatik qaydaların gözlənilməsi;
- ✓ mübahisəli faktların olmaması.

**Əyanilik.** Dərslikləri cəlbedici etmək, onu şagirdin ən yaxın müsahibi kimi dəyərləndirmək, eləcə də stimullaşdırıcı vasitəyə çevirmək üçün əyaniliyə mühüm didaktik prinsip kimi müraciət olunur. Aşağıdakı göstərilənlər bu prinsipin tam reallaşdırıldığının sübutudur.

- ✓ şəkillər, fotolar;
- ✓ illüstrasiyalar;
- ✓ sxemlər;
- ✓ cədvəllər;
- ✓ xəritələr;
- ✓ qrafiklər;
- ✓ QR kodlar.

Əyaniliyi təmin etmək üçün yuxarıda sadalanan bütün vasitələrin eyni bir dərsliyə daxil edilməsi tələb olunmur. Ümumi tarix dərsliyi hazırlanarkən onun özünəməxsus cəhətləri, xüsusiyyətləri əsas götürülmüş, zəruri hesab edilən müvafiq əyani vasitələr seçilib təqdim olunmuşdur.

**Müasirlik.** Dərsliyin ən mühüm xüsusiyyətlərindən biri onun yeniliyi, müasirliyi, dövrün tələb və ehtiyaclarını özündə əks etdirməsi, şagirdlərdə yenilik əhvali-ruhiyyəsi yarada bilməsidir. Yeni texnologiyalara istinad edilməsi və onların dərsliyin məzmununa gətirilməsi müasirliyin əlamətlərindən biri kimi vacib tələblərdəndir. Buna aşağıdakı tələbləri nəzərə almaqla nail olmaq mümkündür:

- ✓ sosial-iqtisadi sahələrdəki nailiyyətlərin nəzərə alınması;
- ✓ elmin özündəki inkişafın nəzərə alınması;
- ✓ təlim materiallarının müasir dünyagörüşün formalaşdırılmasına istiqamətlənməsi.

Dərsliyin müasir olması üçün fakt və hadisələrin inkişafla bağlı olması, onu əks etdirməsi əsas şərtlərdən biridir.

**Tamlıq.** Tədris vəsaitlərindən biri kimi dərsliyin bütövlüyü, tamlığı onun məzmununda aşağıdakı müəyyən komponentlərin olmasını tələb edir:

- ✓ nəzəri materiallar;
- ✓ praktik materiallar;
- ✓ təsviri materiallar;
- ✓ qiymətləndirmə materialları.

Dərsliyin məzmununda verilməsi nəzərdə tutulan bu materialların hər biri mühüm didaktik əhəmiyyət daşıyır. Şagirdlərin təlim fəaliyyətinə sövq olunması, öyrənmə prosesinin təşkili və bacarıqların dəyərləndirilməsi baxımından dərslik öz  imkanları ilə seçilir.

Layihə

Ona görə də 7-ci sinif üçün Ümumi tarix dərsliyi hazırlanarkən bu prinsipə əməl olunmuş, mühüm tələblərin gözlənilməsi vacib hesab edilmişdir.

**Ardıcıllıq.** Dərslikdəki materialların sıralanmasında ardıcıllıq mühüm prinsiplərdən biri kimi gözlənilir. Bu zaman ardıcıllığın aşağıdakı parametrləri əsas götürülür:

- ✓ psixoloji baxımdan;
- ✓ məzmun baxımından;
- ✓ təqvim-tematik baxımdan;
- ✓ məntiqi baxımdan.

***Psixoloji baxımdan ardıcıllıq.*** Təlim materialları, ilk növbədə, şagirdlərin psixi proseslərlə bağlı fəaliyyətlərinin inkişafının təmin edilməsi üçün seçilmişdir. Bu materiallar hafizə, təfəkkür və təxəyyül proseslərinin formalaşması istiqamətinə yönəldilərək şagirdlərin müstəqil düşünməsinə, fəaliyyətinə və tətbiqi ilə məşğul olmasına imkanlar açmağa şərait yaradacaqdır.

***Məzmun baxımından ardıcıllıq.*** Bu, təlim materiallarının sadədən mürəkkəbə doğru sıralanmasında özünü göstərir. Kurikulumda nəzərdə tutulan sadədən mürəkkəbə prinsipi bu dərsliyin hazırlanması zamanı diqqət mərkəzində saxlanılmışdır.

***Təqvim-tematik baxımdan uyğunluq.*** Təlim materiallarının miqdarı və ağırlığı dərs üçün ayrılan vaxt nəzərə alınmaqla hazırlanmışdır. Bu zaman nəzəri və praktik materialların balansının gözlənilməsi, standartların reallaşdırılmasına yönəldilməsi zəruri hesab edilir. Şagirdlərin təlimə marağının artırılması üçün motivasiya imkanları genişləndirilir.

***Məntiqi baxımdan ardıcıllıq.*** Bu zaman sadədən mürəkkəbə prinsipi qorunmaqla verilən məzmun, eləcə də tapşırıq və suallar məntiqə uyğun yerləşdirilmişdir.

**Yaş səviyyəsinə uyğunluq.** Dərsliklər şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanmalıdır. Bu zaman şagirdin yaş xüsusiyyəti nəzərə alınmaqla iki əsas tələb diqqət mərkəzində saxlanılmalıdır:

a) dizayn;

b) təlim materiallarının məzmunu, həcmi, maraqlılığı.

Dərslik hazırlanarkən şagirdin sinif mühiti ilə yanaşı, müstəqil işləməsinə şərait yaradan amillər nəzərə alınmış, motivasiya imkanları gücləndirilmiş, vaxt nəzərə alınmaqla verilən materiallarda ən zəruri və düşündürücü məqamlara yer ayrılmışdır.

**Oxunaqlılıq.** Oxunaqlılığın nəzərə alınması üçün ilkin olaraq məzmun materiallarının maraqlı olması vacib hesab edilir. Belə materiallar şagirdlərin diqqətinə səbəb olur, onları öyrənməyə sövq edir. Təlim materiallarının lakonikliyi, aydın üslubda, sadə dildə olması öyrənmə fəaliyyətinin səmərəliliyini artırır.

Bu tələbin də nəzərə alınması maksimum gözlənilmiş, dərslikdə hadisələrin şərhi aydın və anlaşılan şəkildə verilmişdir.

**İnklüzivlik.** Bu prinsip əsasında yazılmış dərslik özünün əhatəliliyinə görə seçilməli, təlim prosesində müxtəlif səviyyələri ehtiva etməli, istedadlı şagirdlərlə yanaşı, müəyyən səbəblərdən geridə qalanların da təlim maraqlarını ödəyə bilməlidir. Bunun üçün təlim materiallarının seçilməsinə və dərsliyə daxil edilməsinə diferensial yanaşılmalı, hər bir sinifdə şagirdlərin inkişaf səviyyələri nəzərə alınmalıdır.

Dərslikdə inklüzivlik dövrün əsas tələbi kimi diqqət mərkəzində saxlanılmış, şagirdlərin inkişafı üçün zəruri olacaq imkanlar təqdim olunmuşdur.

**Fəal təlim üçün şəraitin yaradılması.** Fəal təlim müasir təhsil prosesinin əsas atributlarından hesab edilir. Onun qurulmasında bir çox amillərlə yanaşı, dərslik də həlledici rol oynayır. Nə-

Layihə

ticəyönümlü kurikulumlar məhz belə dərsliklərin hazırlanmasını tələb etdiyi üçün bu tələbə uyğunluq qorunub saxlanmışdır. Ona görə də dərslik hazırlanarkən fəal təlim üçün şəraitin yaradılmasına mühüm didaktik prinsiplərdən biri kimi önəm verilmişdir. Hər bir paraqrafda təlim materiallarının verilməsi fəal təlim prosesinə uyğunlaşdırılmış, təlim marağının formalaşdırılması, problemin qoyuluşu, həll edilməsi, təqdim olunma və qiymətləndirmə üçün şəraitin yaradılması dərsliyin hazırlanmasında əsas tutulmuşdur.

Yeni dərsliklərin hazırlanmasında mənbələrin göstərilməsi, təlim materiallarında kütləvi informasiya vasitələrindən istifadə imkanlarının nəzərə alınması məsələləri də mühüm prinsiplər kimi dəyərləndirilməli, onların da nəzərə alınması diqqət mərkəzində saxlanılmalıdır.

7-ci siniflər üçün nəzərdə tutulmuş Ümumi tarix dərsliyi məhz bütün bu tələblərə uyğun şəkildə hazırlanmışdır.

Müxtəlif psixoloq və pedaqoqların fikrinə görə, fəaliyyətlər üç istiqamətdə qruplaşdırılır: idraki, informativ-kommunikativ, psixomotor. Bu fəaliyyətləri formalaşdırmaq və inkişaf etdirmək zəruriyyətini əsas tutmaqla dərslik verilən bütün tələblərə uyğun işlənilmişdir.

23 paraqraf və 2 bölmədən ibarət olan dərslik sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllığı nəzərə almaqla tərtib edilmişdir. Paraqraflar tərtib olunarkən standartlar və onların reallaşdırılması üçün mənbələr, xəritələr, illüstrasiyalar, sxemlər, cədvəllər, sual və tapşırıqlar və s. vasitələr nəzərə alınmışdır. Metodik vəsaitin hazırlanmasında standartlar, onların şərhi, inteqrasiya cədvəli, dərslərin icmalı, interaktiv dərs nümunələri, qiymətləndirmə və qiymətləndirmə vasitələri öz əksini tapmışdır. Bununla yanaşı, dərslik və metodik vəsaitin hazırlanmasında istifadə edilmiş mənbə və ədəbiyyat, internet resurslarının siyahısı müəllimlərə təqdim edilmişdir. Tərtib edilmiş paraqrafların hər biri qruplaşdırılmış, forma və üsullar təqdim olunmuş, işin texnologiyasına aydınlıq gətirilmiş, dərslikdən istifadənin bütün mexanizmləri işıqlandırılmışdır. İstifadə edilmiş resursların, eləcə də istifadəsi mümkün olan resursların siyahısı metodik vəsaitdə göstərilmişdir.

Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və metodik vəsait dövlətin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qoyduğu tələbi maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

**Şərti işarələr**

| S | T | M | M | A |
| --- | --- | --- | --- | --- |
| **Sual** | **Tapşırıq** | **Maraqlıdır** | **Mənbə** | **Araşdırma** |

Layihə

# ÜMUMİ TARİX FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ

## Ümumi müddəalar

Müasir dövrdə dünyada bir çox sahələrdə olduğu kimi, təhsildə də yeni çağırışlar aktualdır. Bu gün yollar əvvəlki kimi çəkilmir, avtomobillər əvvəlki kimi istehsal edilmir, binalar əvvəlki kimi inşa edilmir. Təhsil sahəsi də yeni dövrlə ayaqlaşmalı, texnologiyalara adekvat qurulmalıdır. Digər fənlərdə olduğu kimi, Ümumi tarixin tədrisində də yeni dövrün tələbləri nəzərə alınmalıdır. Tarix yalnız hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də Ümumi tarix fənninin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Fənnin tədrisi şagirdlərə tarixi hadisə, təzahür və proseslərə aid məlumatları, anlayışları və dəyərləri qazandırmaqla yanaşı, onlarda gələcəkdə istifadə edə biləcəyi müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyə gəlmə bacarıqları formalaşdırır. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir:

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq və nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək;
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında qiymətləndirmək və bu günü anlamaqda ondan istifadə etmək;
- müxtəlif tarixi faktları və anlayışları tam şəkildə əlaqələndirib müasir dünyanın müxtəlifliyini izah etmək;
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək;
- qədim insanların hərəkətlərinin motivlərini, hadisələrin səbəb və nəticələrini müəyyənləşdirmək;
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimatlar hazırlamaq.

## Ümumi tarix fənninin tədrisinin məqsədləri

Tarix ən qədim zamanlardan bu günümüzə qədər cəmiyyətin meydana gəlməsini, inkişaf tarixini, mərhələlərini araşdırır, sistemləşdirir, tarixi zaman, tarixi məkan səviyyəsində onları dəyərləndirir, mədəniyyətlərin, dövlətlərin, şəxsiyyətlərin rolunu müəyyənləşdirir. Ümumi tarix fənninin əsas məzmununun formalaşdırılmasında tarix elminin bu nailiyyətlərinə istinad olunur. Tarixi anlayışlar, hadisə və faktlar baza bilikləri kimi müəyyənləşdirilir.

Bunlarla yanaşı, Ümumi tarix fənni pedaqoji anlayış kimi həm də pedaqogikanın, psixologiyanın, fiziologiyanın zəruri tələblərinə cavab vermək üçün bir sıra keyfiyyətləri ehtiva edir. Bu mənada Ümumi tarix inteqrativ fənn xarakteri daşıyır və fundamental tarix elmindən fərqlənir.

Ümumtəhsilin yeni sisteminin qurulduğu hazırkı şəraitdə fənlərin də rolu dəyişir. Onlar şəxsiyyəti idraki və əxlaqi-mənəvi cəhətdən formalaşdıran vasitəyə çevrilir. Ümumi tarix də bu prosesdə aşağıdakı xüsusiyyətlər baxımından əhəmiyyət daşıyır:

- tarixi fakt və hadisələrin ümumiləşdirmə, təsnifetmə, induksiya, deduksiya kimi məntiqi əməliyyatlar vasitəsilə təhlil edilməsi;
- yaradıcı fəaliyyət təcrübəsi;
- tarixi faktların təhlilinə müxtəlif mövqelərdən yanaşılması və qiymətləndirilməsi;
- əsas tarixi fakt və hadisələrin, onlar arasındakı səbəb-nəticə əlaqələrinin açılması;
- ayrı-ayrı tarixi faktlarda ictimai inkişafın ümumi qanunauyğunluqlarına məxsus əlamətlərin müəyyənləşdirilməsi;
- hər bir tarixi faktın xarakterinə görə aydınlaşdırılması və proqnozların verilməsi.

Müasir dövr məktəblidən başqalarının fikirlərinə hörmətlə yanaşmağı, sosial şəraitindən asılı olmayaraq, insanların düşdüyü vəziyyəti başa düşməyi, onlara həssas yanaşmağı, kollektivdə

Layihə

əməkdaşlıq etməyi, ətrafındakı situasiyanı düzgün təhlil edərək uğur qazanmağı, tolerantlığı tələb edir. Bu baxımdan tarix fənninin geniş imkanları vardır.

Ümumi tarix fənni şagirdlərə keçmiş və müasir dövrün problemlərini tədqiq etmək, cəmiyyətlərin inkişafının səbəb-nəticə əlaqələrini və xüsusiyyətlərini dərk etmək, sosial-siyasi, iqtisadi və mədəni proseslərin bir-biri ilə qarşılıqlı təsirini öyrənmək imkanı yaradır. Tarixi keçmişi öyrənməklə şagirdlər bu günü dərk edirlər – başqa sözlə, tarixi keçmişdən bu gün üçün dərs alırlar. Çünki mahiyyət etibarilə tarixi keçmişin və müasir dövrün dərk edilməsinin məntiqi yolu eynidir.

Ümumi tarix dərslərində şagirdlər cəmiyyətin meydana gəlməsini, onun zaman və ətraf aləmlə əlaqədə inkişafını, quruluşunu, insan – cəmiyyət – zaman – məkan qarşılıqlı əlaqələrini öyrənirlər. Bu fənn şagirdlərə dünyanı sevməyi və qorumağı, cəmiyyətdəki proseslərə fəal münasibət bəsləməyi, müxtəlif zamanları fərqləndirməyi, öz dövrünü və özünü daima dəyişən dünya ilə əlaqələndirməyi öyrədir.

Bundan əlavə, Ümumi tarix şagirdlərdə insanlara, maddi və mənəvi mədəniyyətin inkişafı sahəsində onların işinə hörmət hissi tərbiyə etmək, ictimai inkişafın müxtəlif problemləri ilə əlaqədar tədqiqat aparmaq və onların həlli yollarını tapmaq, əməkdaşlıq etmək, tənqidi düşünmək, hadisə və təzahürlərin inkişafının nəticələrini proqnozlaşdırmaq, düşdüyü şəraitdən baş açmaq, düzgün qərarlar qəbul etmək və digər bacarıqları formalaşdırmağa imkan verir.

Ümumi təhsil müəssisələrində Ümumi tarix fənninin tədrisinin əsas məqsədi məktəblilərdə fəal həyat mövqeyi, vətənpərvərlik, digər xalqlara, ümumbəşəri dəyərlərə hörmət, mənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, Azərbaycan və bütün dünya xalqlarının ənənələrinə və mədəniyyətlərinə qarşı humanizm hissi, dövlətçilik ənənələrinə hörmət formalaşdırmaq üçün onlarda keçmiş və müasir dövr hadisələrini sərbəst təhlil etmək, faktların ümumiləşdirilməsi, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə, tarixi mənbə, müxtəlif fikir, mövqe və konsepsiyaları sərbəst təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək bacarıq və vərdişləri aşılamaqla kommunikativ, təfəkkür və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi zəruri hesab edilir:

- tarixə dair mənbələr üzərində müstəqil işin təşkili;
- tarixi hadisə və faktların araşdırılması, qiymətləndirilməsi;
- tarixi prosesi və ictimai həyatın müxtəlif cəhətlərini xarakterizə edən ən mühüm faktların seçilməsi və ümumiləşdirilməsi;
- tarixi faktların onlar haqqındakı mülahizələrdən fərqləndirilməsi və əsaslandırılması;
- tarixi faktların müxtəlif mövqedən qiymətləndirilməsi;
- tarixi fakt və hadisələrin əsasında qərarların qəbul edilməsi və təqdim olunması;
- insan hüquqlarına, demokratik dəyərlərə, xalqların tarix və mədəniyyətinə, milli-mənəvi dəyərlərə, vətənə hörmət hissinin formalaşması;
- bəşəriyyətin mənəvi irsinin qorunması, zənginləşdirilməsi, hörmət və sədaqət tərbiyəsi.

## Ümumi tarixlə bağlı ümumi təlim nəticələri

Ümumi orta təhsil səviyyəsi üzrə Ümumi tarixlə bağlı ümumi təlim nəticələrini aşağıdakı kimi formalaşdırmaq olar:

1. Tarixi məkanı və ümumdünya tarixinin dövrləşməsini, qədim dövrlərdən müasir dövrlərə qədər dünyada gedən əsas tarixi prosesləri, dünya tarixində xüsusi rolu olmuş dövlətlərin, dünya mədəniyyətinin və sivilizasiyaların, əsas insan hüquqlarının, demokratiyanın nə olduğunu bilir;

2. Dünyada gedən müxtəlif sosial-iqtisadi, mədəni və siyasi prosesləri, demokratiyanın əsas prinsiplərini anlayır. Tarixi faktların zaman və məkanla əlaqəsini, dünyanın müxtəlif sivilizasiyalarının nailiyyətlərini, xüsusiyyətlərini, dövlətlərin və mədəniyyətlərin inkişafında tarixi şəxsiyyətlərin rolunu izah edir;

Layihə

3. Tarixi faktlardan istifadə edərək, xronoloji ardıcıllığı gözləməklə dünyada yaranan dövlətlərin siyasi, sosial-iqtisadi və mədəni nailiyyətlərindən, tarixi şəxsiyyətlərin təcrübəsindən, ümumbəşəri, etnomədəni və milli dəyərlərin qarşılıqlı əlaqələrindən, həyati məsələlərin və problemlərin həllində istifadə edir;

4. Tarixi məkanda müxtəlif dövrlərdə yaranan dünya tarixinin gedişinə təsir göstərən dövlətlərin ərazisini xəritə əsasında müqayisə edir. Dünya ölkələrinin tarixi inkişafının ümumi cəhətlərini müəyyən edərək tarixi şəxsiyyətlərin fəaliyyətini, demokratiyanın əsas anlayışlarını, Şərq sivilizasiyasının dünya mədəniyyətinə təsirini təhlil edir;

5. Tarixi zaman və məkan daxilində dünya tarixində mühüm rol oynamış dövlətləri, şəxsiyyətləri, sivilizasiyaları, cəmiyyətdə gedən çoxşaxəli inkişafın prinsiplərini, əsas hadisələrin səbəb və nəticə əlaqələrini, ümumi qanunauyğunluqları, qanun və qanunçuluğun əhəmiyyətini, mədəni nailiyyətləri qiymətləndirərkən sərbəst qərar qəbul edir;

6. Bəşər tarixinin inkişafına təsir göstərmiş dövlətlərin və şəxsiyyətlərin oxşar və fərqli cəhətləri, özünəməxsus xüsusiyyətləri ilə bağlı cədvəllər tərtib edir. Tarixi paralellər apararaq müxtəlif zaman və məkanda mövcud olan sivilizasiyaların problemlərini və inkişafını, əsas tarixi hadisələri, ümumi qanunauyğunluqları, sosial-iqtisadi və mədəni proseslərin formalarını, hüquqi xarakterli informasiyaları sintez edir.

Beləliklə, bu konsepsiyanın yazılmasında əsas məqsəd yeni təhsil proqramının (kurikulum) tələblərini nəzərə almaqla yuxarıda sadalanan məsələləri özündə əks etdirən, şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə yönəlik və faktoloji materialların daha az olduğu yeni bir dərslik layihəsi hazırlamaqdır.

## VII SİNİF ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

### VII SİNİF

VII sinfin sonunda şagird:

- tarixi faktları davametmə müddətinə görə fərqləndirir, onların xronoloji ardıcıllığını və sinxronluğunu müəyyənləşdirir;
- xalqların və dövlətlərin ərazi məkanında baş verən dəyişiklikləri xəritə əsasında izah edir;
- erkən feodal dövlətlərin idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müqayisə edir;
- dövlət və mədəniyyətlərin inkişafında tarixi şəxsiyyətlərin rolunu izah edir;
- erkən orta əsrlərdə mədəniyyətlərin inkişaf istiqamətlərini və xüsusiyyətlərini izah edir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

**2. Tarixi məkan**

**Şagird:**

*2.1. Məkanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.



Layihə

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

**3. Dövlət**
**Şagird:**
*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*
3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.
3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**4. Şəxsiyyət**
**Şagird:**
*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*
4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.
4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**5. Mədəniyyət**
**Şagird:**
*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*
5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.
5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

## VII SİNİF ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ ALT STANDARTLARIN İNTEQRASİYA İMKANLARI

| **Tarixi zaman** | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir. | Azərbaycan tarixi (Az. t.) 1.1.1.<br>Azərbaycan dili (Az. d.) 1.2.4.<br>Xarici dil (X. d.) 3.1.3. |
| 1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir. | Azərbaycan tarixi (Az. t.) 1.3.1.<br>Azərbaycan dili (Az. d.) 4.1.1.<br>Həyat bilgisi (H. b.) 2.2.1. |
| 1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir. | Azərbaycan tarixi (Az. t.) 1.1.1., 1.1.2.<br>Xarici dil (X. d.) 3.1.3. |
| **Tarixi məkan** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |

Layihə

| | |
|---|---|
| 2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir. | Azərbaycan tarixi (Az. t.) 2.1.1.<br>Azərbaycan dili (Az. d.) 2.1.1.<br>Coğrafiya (Coğ.) 3.2.2.<br>Həyat bilgisi (H. b.) 2.1.1.<br>Xarici dil (X. d.) 2.1.3. |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir. | Azərbaycan tarixi (Az. t.) 2.1.2.<br>Coğrafiya (Coğ.) 3.1.2. |
| **Dövlət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir. | Azərbaycan tarixi (Az. t.) 3.1.1., 3.1.2.<br>Azərbaycan dili (Az. d.) 1.2.1.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Həyat bilgisi (H. b.) 2.1.1., 2.1.2.<br>Xarici dil (X. d.) 3.1.3. |
| 3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır. | Azərbaycan tarixi (Az. t.) 3.1.3.<br>Coğrafiya (Coğ.) 3.2.2.<br>Həyat bilgisi (H. b.) 2.2.2.<br>İnformatika (İnf.) 2.1.2., 3.2.2. |
| **Şəxsiyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir. | Azərbaycan tarixi (Az. t.) 4.1.1.<br>Azərbaycan dili (Az. d.) 2.2.3.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır. | Azərbaycan tarixi (Az. t.) 4.1.2.<br>Ədəbiyyat (Əd.) 2.1.3.<br>İnformatika (İnf.) 3.2.3.<br>Texnologiya (Tex.) 1.3.3. |
| **Mədəniyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir. | Azərbaycan tarixi (Az. t.) 5.1.1.<br>Azərbaycan dili (Az. d.) 1.2.1., 2.2.3.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Həyat bilgisi (H. b.) 3.3.1.<br>Xarici dil (X. d.) 2.1.3. |
| 5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir. | Azərbaycan tarixi (Az. t.) 5.1.1.<br>Azərbaycan dili (Az. d.) 1.2.4.<br>Həyat bilgisi (H. b.) 3.3.1.<br>Təsviri incəsənət (T. i.) 1.3.1. |

Layihə

| | |
|---|---|
| 5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır. | Azərbaycan tarixi (Az. t.) 5.1.3.<br>Azərbaycan dili (Az. d.) 1.2.1.<br>Ədəbiyyat (Əd.) 2.1.3.<br>Təsviri incəsənət (T. i.) 1.3.1. |

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı vasitədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Təlim prosesinin təkmilləşdirilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində də qiymətləndirmə bir mexanizm kimi əvəzolunmaz mövqeyə malikdir. Bu sistem hüquqi cəhətdən ""Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" "Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1633 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası" ilə tənzimlənmişdir.

Qiymətləndirmənin əsas növü məktəbdaxili qiymətləndirmədir. Məktəbdaxili qiymətləndirmə şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir.

**Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:**

- təlim nəticələrinin, standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- şagirdlərin təlimə marağını yüksəltmək;
- şagirdin güclü və zəif cəhətlərini müəyyən etmək;
- şagird nailiyyətini dəyərləndirmək;
- şagirdin nəyə nail olduğuna əmin olmaq;
- şagirdin gələcək uğurlarının maksimallaşdırılması.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növü üzrə həyata keçirilir:

- diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi);
- formativ (irəliləmə və geriləmələrin izlənilməsi);
- summativ (yekun).

Layihə

## Qiymətləndirmənin üsul və vasitələri

Hər bir fənn kurikulumunda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Fənn kurikulumlarında təyin edilmiş standartlar olmadan şagirdlərin kurikulum üzrə fəaliyyətini qiymətləndirmək üçün tələb olunan vasitələri hazırlamaq mümkün deyil. Fənlərin məzmun standartlarının təsis edilməsində əsas məqsəd bu standartların hər bir şagird tərəfindən mənimsənilməsi istiqamətində təlim məqsədlərinin təyin edilməsidir.

Xüsusi qeyd etmək lazımdır ki, qiymətləndirmə vasitələri (eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları) nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir. Qiymətləndirmə vasitələrinin hazırlanması zamanı əvvəlcə qiymətləndirmənin hansı növünün aparılması müəyyənləşdirilməlidir, yalnız bundan sonra prosesi icra etmək olar. Vasitələr qiymətləndirmənin hər bir növü üzrə (həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmə), onların məzmununa uyğun aparılmalıdır ki, nəticədə qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olsun. Məktəbdaxili qiymətləndirməni cədvəldə göstərildiyi kimi təsnif etmək mümkündür.

| Üsul | Vasitə |
|---|---|
| müşahidə | müşahidə vərəqi |
| müsahibə (şifahi yoxlama) | qeydiyyat vərəqi |
| söhbət | qeydiyyat vərəqi |
| şifahi sorğu (sual-cavab) | qeydiyyat vərəqi, qiymətləndirmə şkalası |
| yazılı sorğu | sorğu vərəqi |
| tapşırıqvermə | çalışma, tapşırıq, laboratoriya işi, qiymətləndirmə şkalası |
| valideyn və digər fənn müəllimləri ilə əməkdaşlıq | qeydiyyat vərəqi |
| oxu | qeydiyyat vərəqi |
| layihə | meyarlar cədvəli |
| şifahi və yazılı təqdimat | meyarlar cədvəli |
| test | test tapşırıqları |
| yaradıcılıq əl işləri | şagirdlərin işləri |
| özünüqiymətləndirmə | özünüqiymətləndirmə vərəqi |
| qarşılıqlı qiymətləndirmə | qiymətləndirmə vərəqi |

### Özünüqiymətləndirmə

Şagirdlərin öz işləri barədə qərar verməsidir. Özünü qiymətləndirmə üsulu ilə şagirdlərə işləri barədə rəy bildirməklə onlara özünə tənqidi yanaşma bacarığı aşılanır. Özünü qiymətləndirmə zamanı şagirdlərdən tələb olunan öz fəaliyyətlərinin güclü və zəif tərəflərini müəyyənləşdirmələridir.

### Qarşılıqlı qiymətləndirmə

Bir-birini qiymətləndirmədə şagirdlər yoldaşlarının işləri ilə bağlı müxtəlif qərarlar verirlər. Formativ qiymətləndirmə zamanı istifadə olunan bir-birini qiymətləndirmə üsulu şagirdlərdə tənqidi düşüncə və hər hansı bir işi meyarlar əsasında qiymətləndirmə bacarığını formalaşdırır. Bir-birini qiymətləndirmə yalnız bir şəxs tərəfindən deyil, eyni vaxtda bir çox şəxslər tərəfindən də aparıla bilər.

Layihə

**Diaqnostik qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr**

- çalışmalar;
- müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq);
- söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq).

**Formativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr**

- müşahidə vərəqləri;
- şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi;
- çalışmalar;
- söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq);
- dinləmə üzrə qeydiyyat vərəqi;
- şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli;
- nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası;
- meyar cədvəli;
- test tapşırıqları;
- özünüqiymətləndirmə vərəqləri.

**Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr**

- yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;
- şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli;
- şifahi sorğu üzrə qeydiyyat vərəqi;
- test tapşırıqları;
- tapşırıq, çalışma;
- rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.

Hazırda test tapşırıqları qiymətləndirmə vasitəsi kimi geniş tətbiq olunsa da, müəllim diaqnostik, formativ və hətta summativ qiymətləndirmədə yalnız bir üsula üstünlük verməməli, şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını, məntiqi təfəkkürünü, müstəqil düşünmə qabiliyyətini inkişaf etdirən üsullardan: layihə (qiymətləndirmə vasitəsi – şagirdlərin təqdimatı və müəllimin tərtib etdiyi meyar cədvəli), şifahi sorğu (qiymətləndirmə vasitəsi – şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi) istifadə etməlidir. Test tapşırıqlarının yalnız yeri gəldikcə tətbiqi tövsiyə olunur.

## Qısa cavablı tapşırıqlar

Şagirdlərin hər hansı bir mövzu ilə bağlı faktoloji biliklərini aşkara çıxarmaq üçün istifadə edilir. Bu cavablar "cümləni tamamlamaq, təsvir etmək, qısa şəkildə şərhlər, ya da cədvəl/qrafik" vasitəsilə göstərilə bilər.

Qısa cavablı suallar iki cürdür: birincisi sual cümləsi, digəri yarımçıq cümlə forması.

**Qısa cavablı suallar hazırlayarkən aşağıdakılara diqqət etmək lazımdır:**

- Sual verilərkən fikir aydın olmalıdır.
- Verilən hər sual təlim nəticələri ilə bağlı bir meyarı ölçməlidir.
- Sualın cavabı dəqiq olmalıdır.
- İmtahanda verilən suallar başqa suallara ipucu (başqa sualların cavabını aşkarlayan) olmamalıdır.
- Sual cümləsi cavab verən şəxsin oxuduğu mənbədən eynilə köçürülməməlidir.
- Sual cümləsində sualın cavabının tapılmasına kömək edəcək ipucları olmamalıdır.

Layihə

## Çoxseçimli (test) tapşırıqlar

Çoxseçimli suallar bir əsas sualdan və bir neçə cavab variantından ibarət olur. Bu tip bir sualı cavablandıran şagird verilən izahat və əsas suala görə ən uyğun və düzgün cavabı seçir.

**Çoxseçimli test sualları hazırlayarkən aşağıdakılara diqqət etmək lazımdır:**

- Suallar summativ qiymətləndirmənin əhatə dairəsinə uyğun olmalıdır.
- Əhəmiyyətsiz məlumatlar soruşulmamalıdır.
- Cavabları kitabda olduğu kimi verilən suallar tərtib edilməməlidir.
- Hər bir sual şagirdlərin öyrənməli olduqları vacib məlumat və bacarıqları yoxlamalıdır.
- Çox detallı və çox əhatəli məlumatları ehtiva edən suallardan qaçmaq lazımdır.
- Hər bir sual tək bir bacarığı (təlim nəticəsini) ölçməlidir.
- Şagirdin sualın cavabı ilə bağlı ipucunu başqa sualdan tapa bilməsinə imkan verilməməlidir.
- Cavabı müxtəlif yozumlu olan suallara yol verilməməlidir.
- Tamamlamanın əvəzinə sual formatından istifadə edilməlidir.
- Dil və yazı qaydalarına əməl edilməlidir.
- Mümkün olduqca ən qısa izahat formasından istifadə edilməlidir.
- Əsas fikir variantlarda deyil, sualın özündə verilməlidir.
- İnkar bildirən ifadələrə yol verilməməlidir.
- Cavab variantlarında tək bir doğru cavab olmalıdır.
- Variantların məntiqi ardıcıllığına və ya riyazi düzülüşünə diqqət edilməlidir.
- Variantlardakı cümlələrin uzunluğu təqribən bərabər olmalıdır.
- Variantlarda "heç biri, hamısı" ifadələrindən istifadə edilməməlidir.
- Düzgün cavabla bağlı ipucu verilməməlidir.

## Uyğunlaşdırma (qarşılaşdırma) tapşırıqları

Uyğunlaşdırma sualları bir sütunda verilən sualların o biri sütundakı cavablarla uyğunlaşdırılması ilə formalaşır. Bu üsul anlayışların, prinsiplərin şagirdlər tərəfindən başa düşülüb-düşülmədiyini yoxlamağa imkan verir. Bu tipli suallarda suallarla cavabların sayı eyni olmamalıdır. Əks təqdirdə, şagirdlər təxmin edərək suallarla variantları bir-biri ilə uyğunlaşdırmağa çalışacaqlar.

**Uyğunlaşdırma tələb edən suallar hazırlayarkən aşağıdakılara diqqət etmək lazımdır:**

- Uyğunlaşma sırasındakı uyğunlaşdırılması tələb olunanlarla uyğunlaşdırılacaqlar eyni olmalıdır.
- Cavab siyahısı sözlərdən ibarətdirsə, əlifba sırasına görə, rəqəm, say və tarixdən ibarətdirsə, böyüklük sırasına görə düzülür.
- Uyğunlaşdırma üçün yaxşı bir təlimat yazılmalıdır.

## Doğru-yanlış cavablı tapşırıqlar

Verilən tapşırığın mövcud biliklərə əsasən düz, ya da səhv olduğunu müəyyənləşdirmək üçün verilən sual formasıdır. Bu tip suallardan istifadə etmək məsləhət görülmür, ancaq müstəsna hallarda istifadə edilə bilər. Bəzi hallarda şagirddən nəqli cümlənin düz, səhv və ya subyektiv fikirdən ibarət olduğunun müəyyən edilməsi tələb olunur, bu halda cavab üç seçimdən biridir. Ümumiyyətlə, bu tipli tapşırıqların tərtibatı zamanı ifadənin fakt və ya subyektiv fikir olduğunu əvvəlcədən dəqiq müəyyən etmək lazımdır. Şagirddən subyektiv fikrin düz/səhv olduğunu soruşmaq olmaz. Düz/səhv formatında tərtib edilmiş tapşırıq səbəb-nəticə və məntiqi əlaqələr barədəki biliklərin yoxlanılması üçün də istifadə oluna bilər.

Layihə

## Açıq cavablı tapşırıqlar

Şagirdlərin nailiyyətlərini qiymətləndirmək məqsədilə müəllimlər tərəfindən ənənəvi imtahanlarda geniş istifadə olunan sual növüdür. Şagirdlərdən sualların cavabını fikirləşib xatırlaması və tapdıqları cavabı yazılı şəkildə ifadə etmələri tələb olunur. Summativ qiymətləndirmədə açıq şəkildə verilən suallar şagirdlərin yaradıcı düşünmə, yazılı şəkildə ifadəetmə bacarığını, maraq və mövqelərini daha ətraflı ölçür.

Açıq sualların müsbət tərəfləri ilə yanaşı, bəzi çatışmayan cəhətləri də var. Cavab vermək cavab verənin, qiymətləndirmə isə qiymət verənin vaxtını çox alacağından bu cür suallara az yer verilir. Cavabları tamamilə doğru, ya da tamamilə səhv olaraq təsnif etmək mümkün olmadığından onların dəyərləndirilməsi qiymətləndirən şəxsin öhdəsinə düşür. Qiymət verərkən qiymətləndirən şəxsin qənaəti bal vermə əməliyyatında səhvə səbəb ola bilər. Cavabın yazılı olaraq təqdim edilməsi zəruri olduğundan sürət və başqa amillər qiymətləndirməyə təsir edir. Bundan əlavə, açıq şəkildə verilən sualların çətinlik dərəcəsini təyin etmək də asan deyil.

**Bu çatışmayan tərəfləri azaltmaq üçün açıq şəkildə verilən sualları hazırlayarkən aşağıdakılara diqqət etmək lazımdır:**

- Suallar konkret olmalı, ümumi suallar verilməməlidir.
- Suallar aydın və anlaşıqlı olmalıdır.
- İmtahandakı sualların bir-biri ilə əlaqəsi olmamalıdır.
- Suallar müəyyən davranışı yoxlayan xüsusiyyətdə olmalıdır, kitabın müəyyən yerlərindən eynilə alınmış ifadələri ehtiva etməməlidir.
- Uzun və az sayda sual yerinə qısa və çox sayda sual verilməlidir.
- Suallarda ifadə və orfoqrafiya səhvləri olmamalıdır.

## Şifahi sual-cavab

Şifahi sual-cavab, əsasən, şagirdlərin ehtiyaclarını müəyyən etmək məqsədilə keçirilir. Formativ qiymətləndirmənin bir üsulu olan şifahi sual-cavab üsulu iki formada aparılır:

a) planlaşdırılmış vaxtda əvvəlcədən hazırlanmış sualların verilməsi ilə;

b) dərs zamanı şagirdlərə sual verilməsi ilə.

Şifahi sual-cavabdan summativ qiymətləndirmə zamanı da istifadə oluna bilər. Belə qiymətləndirmə müəllim tərəfindən şagirdin frontal şəkildə sorğu-sual edilməsi ilə aparılır. Nitqin axıcı olması, özünə inam, müzakirə etmə bacarığı və s. xüsusiyyətlər qiymətləndirilmədə istifadə olunur. Qiymətləndirmənin obyektiv keçirilməsi üçün veriləcək suallar və qiymətləndirmə meyarları əvvəlcədən hazırlanmalıdır.

## Müşahidə

Müşahidə bütün elm sahələrində qədim dövrlərdən bu günə qədər geniş istifadə olunan məlumatalma üsuludur. Bu üsuldan dərs prosesində şagird fəaliyyətinin qiymətləndirilməsi zamanı istifadə edilə bilər. Müşahidə müəyyən bir məqsədə çatmaq üçün lazım olan bacarıqların qiymətləndirilməsi baxımından müəllimə məlumatlar verə bilər. Müəllimlər şagirdlər haqqında detallı, əhatəli və uzun müddət ərzində düzgün və tez bir şəkildə məlumat əldə etmək, şagirdlərin sinif daxilində fəallıqları, nə dərəcədə uğur qazandıqları haqqında məlumat əldə etmək istəyirlərsə, birbaşa müşahidə üsulundan istifadə edə bilərlər.

Layihə

**Müşahidə vərəqləri** şagirdlərin dərs müddətindəki vəziyyəti, nümayiş etdirdikləri bacarıqlar, verilən tapşırığa olan münasibətləri və s. diqqətə alınaraq doldurula bilər. Müəllim doldurmuş olduğu müşahidə vərəqəsində şagirdlərin nailiyyətlərinin səviyyəsini və sinifdə standartların və təlim nəticələrinin hansı səviyyədə reallaşdığını görə bilər.

**Yoxlama vərəqləri** müşahidə ediləcək bacarığın varlığının "bəli", "x", "+", ... kimi bir işarə və ya sözlə göstərilməsinə imkan verən bir vasitədir. Yoxlama vərəqləri həm eyni şagirdin müxtəlif fəaliyyətlərinin qiymətləndirilməsi, həm də bir neçə nəfər üçün də istifadə edilə bilər. Yoxlama vərəqləri hər hansı bir mövzu və ya bacarıqla bağlı fəaliyyəti təşkil edən elementlərin nə qədərinin şagirdlər tərəfindən göstərildiyini təyin etmək üçün uyğun bir texnikadır. Gördükləri iş üçün tələb olunan səviyyəni, ya da meyarın nə dərəcədə gözləndiyi haqqında məlumat verməzlər.

Yoxlama vərəqləri şagirdlərin fəaliyyətlərini qiymətləndirmək məqsədilə sinif daxilində və sinifdən xaricdə də hər zaman istifadə oluna bilər. Yoxlama vərəqlərinin istifadəsi asan olduğu üçün şagirdlərin özlərini və yoldaşlarını qiymətləndirmələri məqsədilə də istifadə oluna bilər.

**Ümumi tarix üzrə testlər hazırlanarkən aşağıdakı cəhətlər nəzərdə tutulmalıdır:**

1. məlumatlandırıcı mətndə obyektiv və subyektiv ifadələri ayırd etmək;
2. mətndə açıq verilmiş situasiyalar üçün səbəb-nəticə əlaqələrini qurmaq;
3. informasiyaya şərhlər vermək;
4. mətn içində verilmiş dolayı məlumatlara əsaslanaraq səbəb-nəticə əlaqəsi qurmaq;
5. mətndəki sətiraltı verilmiş məlumatlardan nəticə çıxarmaq;
6. mətndə açıq şəkildə verilmiş məlumatlara əsaslanaraq yer, zaman, şəxslər və bunlarla bağlı amilləri müqayisə etmək;
7. mətndə açıq şəkildə verilmiş məlumatlara əsaslanaraq önəmli olan faktları ayırd etmək;
8. mətndə dolayı ifadələrlə verilmiş məlumatları birləşdirərək ümumiləşdirmələr aparmaq;
9. sətiraltı verilən mətnin bütünündən çıxış edərək fərqli yanaşma ifadə edən cümlələri təxmin etmək.

**İlk növbədə qeyd edək ki, nümunələr hazırlanarkən konkret istiqamətlərə diqqət edilməlidir. Bu, uyğunluğu təmin etmək üçün çox vacibdir:**

- Tapşırıq yalnız bir idraki prosesi ölçürmü?
- Tapşırıq nəzərdə tutulan idraki prosesi ölçürmü?
- Tapşırıqda yoxlanmaq istənilən xüsusiyyətə, arzuolunmayan amillər qarışdırılmayıb ki?
- Tapşırığın növü ilə yoxlanılan bacarıq arasında uyğunluq varmı?
- Tapşırığın növləri düzgün seçilibmi?

Tapşırığın növlərini özündə əks etdirən sxemə əsasən məqsədəuyğun olaraq seçim etmək olar.

Ləyihə

# QİYMƏTLƏNDİRMƏ ÜÇÜN MEYARLARIN İŞLƏNİB HAZIRLANMASI

Müəllim üçün ən çətini və eyni zamanda ən vacibi həm ayrı-ayrı şagirdlərin işini, həm də bütövlükdə kiçik qruplardakı işi kifayət qədər obyektiv qiymətləndirməyə imkan verən qiymətləndirmə meyarlarını tərtib etməkdir.

Qiymətləndirmə qarşılıqlı əlaqə yaratmalı, yəni şagirdlərlə müəllimlərin bir-birlərini yaxşı başa düşməsinə imkan verməlidir. Buna görə müəllim işlənib hazırlanmış qiymətləndirmə meyarları ilə şagirdləri də tanış etməlidir. Həmçinin müəllim xahiş edə bilər ki, şagirdlərin özləri kiçik qruplarda "əla", "yaxşı" və "kafi" qiymət meyarlarını müəyyənləşdirsinlər və sonra siniflə birlikdə müzakirə etsinlər.

Dürüst tərtib edilmiş qiymətləndirmə meyarları obyektiv qiymətləndirməyə kömək etməlidir. Bu meyarların əsasında müxtəlif müəllimlər bu və ya digər şagirdin işlərini eyni bir mövqedən qiymətləndirə bilərlər.

Şagirdlərin özünüqiymətləndirmə metodundan istifadəsi də müəllim üçün çox faydalıdır. Özünüqiymətləndirmə prosesi sorğu vərəqləri və anketlərinin doldurulması formasında keçirilə bilər. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi çox vacibdir. Belə ki bu onları öz davranışlarına yüksək məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivlik hissi tərbiyə edir, onlara öz münasibətlərini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir.

Nəzərə almaq lazımdır ki, bu qiymətlər qeyri-səmimilik və özünüaldatma üzündən təhrif oluna bilər. Lakin insanın özü özünü necə gördüyünü müəyyən etməsi daha əhəmiyyətlidir. Bu halda özünüqiymətləndirmə və kənardan verilən qiymətlər arasındakı fərq qrup və fərd üçün zəngin informasiya mənbəyi rolunu oynaya bilər. Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən və müəllimin verdiyi qiymətin toplanmasından yarana bilər.

Aşağıda qruplardakı işin, təqdimatda iştirakın və s. qiymətləndirilməsinin bəzi forma və meyarları, habelə fəal təlim metodlarının tətbiqi ilə keçən dərslərdə müəllimin öz şagirdlərinin özünü qiymətləndirməsi üçün istifadə etməli olduğu nümunələr göstərilib. Müəllimlər öz qiymətləndirmə sistemlərini yaradarkən bunlardan tövsiyə qismində istifadə edə bilərlər.

Hər bir sinfin, məktəbin özünəməxsus cəhətlərini nəzərə almaqla müəllimlər mövcud meyarları müxtəlif variantlarda tətbiq edə, onlara əlavələr edə və öz istədikləri kimi dəyişdirə bilərlər.

## Dəyərlərin qiymətləndirilməsi

Müəllim üçün ən çətini dəyərlərin qiymətləndirilməsidir, çünki insan hüquqları dəyərlərinin heç də hamısı bir dərs daxilində bütün şagirdlər tərəfindən mənimsənilə bilməz.

Ola bilər ki, bu dəyərlər bu və ya digər şagirdin şəxsi baxışları sisteminə uyğun gəlməsin. Bunların dərk edilməsi və şagirdlərin şəxsi dəyərlərinə çevrilməsi üçün müəyyən vaxt lazımdır. Buna görə müəllim qiymətləndirmə zamanı şagirdlərin mövcud problemə yanaşmasına və ya başqa sözlə desək, "mənəvi baxışların genişliyi"nə üstünlük verməli və qiymətləndirməlidir.

"Mənəvi baxışların genişliyi"nin qiymətləndirilməsi meyarları:

- ✓ Şagird yeni ideyaları və yeni fəaliyyət növlərini mənimsəyə bilirmi?
- ✓ O, işdə yeni metodlardan istifadə etməyə hazırdırmı?
- ✓ O, müzakirə və mübahisə zamanı faktları duyğulardan yüksək tutmağı bacarırmı?
- ✓ O, yeni faktlarla əlaqədar öz fikrini dəyişirmi?
- ✓ O hər kəs barəsində ədalətlə fikir yürüdürmü?
- ✓ O, stereotip və qərəzli rəylərə meyil göstərirmi?

Layihə

**Dəyərlərin inkişafında özünüqiymətləndirmə**

Dərsin sonunda müəllim cədvəlləri paylayır və şagirdlərə aşağıdakı suala cavab verməklə cədvəli doldurmağı təklif edir:

✓ Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirirsiniz?

| MEYARLAR | Heç vaxt | Bəzən | Tez-tez | Həmişə |
|---|---|---|---|---|
| Başqalarına hörmət | | | | |
| Başqalarına maraq | | | | |
| Dinləmək bacarığı | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |
| Əməkdaşlıq | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Düzlük | | | | |

**Qruplarda işin qiymətləndirilməsi**

Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıda cədvəllər şəklində göstərilib. Müəllim konkret vəziyyətdən asılı olaraq, bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər.

## QRUP QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ (NÜMUNƏ 1)

**Qrupun adı:** ______________

**Sinif:** ______________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birlərinə bildirir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |

Layihə

| | | | | | |
|---|---|---|---|---|---|
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |
| Qrupda ziddiyətli fikirləri müzakirə edirlər. | | | | | |
| Üzərində işlənilən mövzuda qrup üzvləri ortaq bir fikrə gəlir. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyirmi. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar. | | | | | |

Şərhlər:

## QRUP QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ (NÜMUNƏ 2)

**Təlimat:** qrupdakı hər bir şagirdin qiymətləndirilməsi

**Qeyd:** cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edilə bilər.

| Şagirdin adı, soyadı | Tapşırığa hazırolma | Başqalarını dinləmə | Məsuliyyəti bölüşmə | Qrup yoldaşlarına kömək | Müzakirələrə qoşulma | Fikirlərini reallaşdırma | Fərqli fikirlərə hörmət etmə | Vəzifə almağa həvəsli olma | Vaxtdan səmərəli istifadə etmə | Tapşırıqları yerinə yetirmə | Tapşırıqları təxirə salma | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

Şərhlər:

Layihə

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ
## (NÜMUNƏ 1)

Şagirdin adı və soyadı: ____________________ Tarix:_____________
Sinif: ________ Şagirdin nömrəsi: __________________
Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin. (X)

| Öyrənmə sahələri | Müvəffəqiyyətlər | Dərəcələr | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| Tarixi zaman | Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirirəm. | | | |
| | Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirirəm. | | | |
| | Tarixi faktları xronoloji qaydada sistemləşdirirəm. | | | |
| Tarixi məkan | Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirirəm. | | | |
| | Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edirəm. | | | |
| Dövlət | Feodal dövlətlərinin yaranması, idarəçilik formaları, sosial-iqtisadi və siyasi münasibətlərini şərh edirəm. | | | |
| | Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayıram. | | | |
| Şəxsiyyət | Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin rolunu izah edirəm. | | | |
| | Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayıram. | | | |
| Mədəniyyət | Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edirəm. | | | |
| | Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edirəm. | | | |
| | Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayıram. | | | |
| | CƏMİ | | | |

Layihə

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ
## (NÜMUNƏ 2)

Adı və soyadı: ____________________________

Sinif: ___________ No: _________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır.

Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin. (X)

| **Qabiliyyətlər** | **DƏRƏCƏLƏR** | | |
|---|---|---|---|
| | **Həmişə** | **Bəzən** | **Heç vaxt** |
| 1. Başqalarının izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Dostlarımı incitmədən təşviq etdim. | | | |
| 4. Çalışmalarımı bitirdim. | | | |
| 5. Anlamadığım bölmələrə aid sual verdim. | | | |
| 6. Qrup yoldaşlarıma tapşırığın həllində kömək etdim. | | | |
| 7. Tapşırığı yerinə yetirərkən vaxt-dan düzgün istifadə etdim. | | | |
| 8. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

9. Bu tədbirdən nələri öyrəndim?

______________________________________________________

______________________________________________________

10. Bu tədbir müddətində qrup yoldaşlarıma necə kömək etdim?

______________________________________________________

______________________________________________________

11. Bu tədbir müddətində ən yaxşı gördüyüm işlər:

______________________________________________________

______________________________________________________

ŞƏRHLƏR:

______________________________________________________

______________________________________________________

Layihə

## ŞAGİRDLƏRİN QARŞILIQLI QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ NÜMUNƏ

Qiymətləndirilən şagirdin qrup nömrəsi: ________________
Adı, soyadı: _____________ 1. Dostunun adı, soyadı:
Sinfi: _____________ 2. Dostunun adı, soyadı:
Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin. (X)

| Qrupumuzdakı şagirdlər | Həmişə | | | Layihənin əvvəlində | | | Layihənin sonunda | | | Heç vaxt | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum |
| Tədbirdə könüllü iştirak edir. | | | | | | | | | | | | |
| Vəzifəsini vaxtında yerinə yetirir. | | | | | | | | | | | | |
| Fərqli mənbələrdən məlumatlar toplayıb təqdim edir. | | | | | | | | | | | | |
| Qrup yoldaşlarının fikrinə hörmət edir. | | | | | | | | | | | | |
| Dostları ilə danışarkən etik qaydalara əməl edir. | | | | | | | | | | | | |
| Nəticələri müzakirə edərkən aydın danışır, danışılanları başa düşür. | | | | | | | | | | | | |

### Qrup təqdimatının qiymətləndirilməsi

Təqdimatın hər bir növünün öz qayda və ənənələri var. Məsələn, şifahi təqdimatın qiymətləndirilməsi zamanı səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

- ✓ biliklər: faktlar, problemlər, anlayışlar, ideyalar;
- ✓ əqli vərdişlər: təhlil, qiymət, göstəricilərin sintezi, yəni məntiqlə düşünmək qabiliyyəti;
- ✓ kommunikativ vərdişlər: informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

A) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi;

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə və ya əlavələr edilə bilər.

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsindən, yəni onların nə dərəcədə səylə öyrənmələri, fakt və detallardan nə dərəcədə dürüst və yerində istifadə etməsi ilə izah olunur.

layihə

4-cü və 3-cü səviyyələr: şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər (müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.). Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

2-ci və 1-ci səviyyələr: şagirdlər əsas anlayışları, problemləri izah edə bilmir, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşə bilmir, faktlardan yersiz istifadə edir, bəzən isə onlara əhəmiyyət vermirlər. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

| Meyarlar | 4 səviyyə | 3 səviyyə | 2 səviyyə | 1 səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar problemlər, mövzular, ideyalar | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Seçilmir. |
| Faktlar, informasiya | Yanlışlıqlar yoxdur. | Kiçik yanlışlıqlar var. | Səhvlər var. | Yoxdur və ya qeyri-dəqiqdir. |
| Problemə aid göstəricilərin toplanması | Məntiqlə seçir və hər şeyi təşkil edir. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Problem üzrə az göstərici tapır. | Mühüm göstəriciləri tapa bilmir. |
| Nəticə çıxarmaq bacarığı | Göstəricilərə əsaslanır. | Göstəricilərə əsaslanan məlumatlı nəticələr | Yarımçıq nəticələr | Nəticələr yoxdur və ya dəqiq deyil. |
| Təqdimat zamanı ideyaların irəli sürülməsi: fənn haqqında bilgilər və məntiqlə düşünmək bacarığı | Əla bilik və məntiq | Yaxşı bilik və məntiq | Müəyyən bilik və məntiq | Qeyri-dəqiq bilgilər |
| Təqdimatın təşkili | Əla | Yaxşı | Kafi | Qeyri-kafi |

Təqdimat mərasimini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Onlar aşağıda göstərilmiş vərəqi doldururlar. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır. Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə şagirdlər həm də qrupun işini bütövlükdə, yəni qrupun onların qarşısında qoyulmuş vəzifənin öhdəsindən necə gəldiyini qiymətləndirə bilərlər.

Layihə

## QRUP TƏQDİMATINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ (NÜMUNƏ)

Tarix: ______________

Qrup üzvləri: ____________________________________

Təqdimatın adı: ______________________________________________

**1-dən 5-dək ballar verin.**

Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi.

___________________________________________________________________

Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi.

___________________________________________________________________

Hamı əlbir və ahəngdar işləyirdi.

___________________________________________________________________

Qrup bütün sinfi fəal olmağa sövq edirdi.

___________________________________________________________________

Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi.

___________________________________________________________________

Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi.

___________________________________________________________________

**Diskussiyanın qiymətləndirilməsi**

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz baxışlarını təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadəetmə bacarığı;
- mülahizələrin məntiqliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı: sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəiflədən əks dəlillər tapmaq məharəti.

Mənfi ballar (1-dən 5-dək) ilə aşağıdakı parametrlərlə ölçülə bilər:

- mövzuya aid olmayan mülahizə;
- limitdən artıq vaxtdan istifadə;
- başqa şəxslərə əngəl törədilməsi;
- şəxsiyyətə qarşı hücum (şəxsiyyətə toxunmaqla tənqid).

Layihə

## DİSKUSSİYA İŞTİRAKÇISININ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ (NÜMUNƏ)

Ad ________________________ Tarix ________________________

| Meyarlar | heç vaxt | demək olar, heç vaxt | bəzən | tez-tez | həmişə |
|---|---|---|---|---|---|
| Fəal iştirak edirdim. | | | | | |
| Tapşırıqları yerinə yetirirdim. | | | | | |
| Öz ideyalarımı dəqiq izah edirdim. | | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdim. | | | | | |
| Mən bugünkü diskussiyaya hazır gəlmişəm:<br>☐ HƏ<br>☐ YOX | | | | | |

## TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük peşəkarlıq tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslandırmaya, planlaşdırma bacarığına, perspektivi görmə qabiliyyətinə malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;
- məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);
- məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi (idraki, emosional, psixomotor);
- hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçülə bilən olması;
- təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri qruplaşdıran zaman sadədən mürəkkəbə prinsipi nəzərə alınmalıdır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

Ləyihə

- İdraki (təfəkkür, koqnitiv);
- Emosional (hissi, affektiv);
- Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləli, əlaqəli və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| **Bilmə** | **Şagird** |
|---|---|
| Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsi, yada salınmasıdır. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | istifadə olunan terminləri bilir;<br>konkret faktları bilir;<br>proseduru və metodları bilir;<br>əsas anlayışları bilir;<br>prinsipləri və qaydaları bilir. |
| **Anlama** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş biliyin əhəmiyyətinin başa düşülmə mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahı) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının yadda saxlanılmasından üstündür. | prinsipləri, qaydaları və faktları başa düşür;<br>materialı öz sözləri ilə izah edir;<br>sxemləri, diaqramları izah edir; materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>əldə edilmiş biliklərdən gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |
| **Tətbiq** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura prinsiplərin, qanunların, metod və üsulların tətbiqi daxildir. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. | yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| **Təhlil** | **Şagird** |
| Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsiplərinin başa düşülməsidir. Bu zaman tədrisin nəticələri, sadəcə, başa düşmək və tətbiq etmək deyil, daha yüksək intellektual səviyyəyə uyğun olur. | gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>faktlar və nəticələr arasında fərqi üzə çıxarır;<br>dəlillərin əhəmiyyətini qiymətləndirir. |

Layihə

| Sintez | Şagird |
|---|---|
| Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | kiçik yaradıcı xarakterli inşa yazır;<br>eksperimentin həyata keçirilmə planını təklif edir;<br>müəyyən problemin həlli üçün plan hazırlamaq məqsədilə müxtəlif bilik sahələrindən istifadə edir. |
| **Qiymətləndirmə** | **Şagird** |
| Bu kateqoriya bu və ya digər materialın əhəmiyyətini qiymətləndirmə və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyənləşə bilər. | materialın məntiqi quruluşunu qiymətləndirir:<br>nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

## VII SİNİF TARİX FƏNNİNİN ÖYRƏNMƏ PROSESİNDƏ ŞAGİRDLƏRİN FƏALİYYƏT VƏ BACARIQ FORMALARI

Məlum olduğu kimi, biliyin deklarativ, prosedural, kontekstual kateqoriyaları vardır. Şagirdlərin hər hansı bir məsələ ilə bağlı bilik əldə etmə prosesi avtomatik olaraq müxtəlif bacarıq və müvafiq olaraq fəaliyyət növlərini özündə ehtiva edir. Bacarıq və onun fəaliyyət növləri çox genişdir və biz heç də onların hamısını sadalamaq istəmirik. Sadəcə olaraq, elə bacarıq və fəaliyyət sahələri var ki, tarixin tədrisi zamanı onlardan istifadə etməmək mümkün deyildir. Bunu nəzərə alaraq biz aşağıda tarixin tədrisi zamanı daha çox rast gələnən bacarıq və fəaliyyət formalarını təhlil etməyi qərara aldıq. Dərsin tədrisi zamanı (istər yeni dərs olsun, istər təkrarlayıcı dərs) fəaliyyəti şagirdlərin müxtəlif bacarıqlarının inkişafı üzərində qurmaq məqsədəmüvafiq olardı.

| Bacarıq | Fəaliyyət forması |
|---|---|
| Mətn və tarixi mənbələrlə işləmək bacarığı | - İlkin (əlyazma, xronika, qanunverici akt və.s) və ikinci (elmi əsər, bədii ədəbiyyat, soraq kitabçası və s.) dərəcəli mənbələri fərqləndirmək;<br>- Plan üzrə nəqledici və ya təsviredici mətnin bir hissəsini öyrənmək, orada tanış olmayan sözləri tapmaq və onların mənasını müəyyənləşdirmək;<br>- Məzmunun əsas strukturunu müəyyən etmək;<br>- Həqiqi və uydurulmuş (mifik, əfsanəvi) məlumatı fərqləndirmək;<br>- Mətni təsəvvürdə canlandırmağa yönəlmiş suallar tərtib etmək; |
| Dərsliklə işləmək bacarığı | - Yarımbaşlıqlar əsasında paraqrafın quruluşunun məntiqi izahını vermək;<br>- Dərsliyin ayrı-ayrı bölmələrinin strukturunu müəyyən etmək;<br>- Paraqrafı müstəqil oxuyaraq dərsliyin əsas mətnində və yardımçı hissələrində (sənəd, xəritə, illüstrasiya və s.) məlumatverici və təsviredici informasiyanı ayırd etmək və əldə edilmiş məlumatı sistemləşdirmək;<br>- Müstəqil şəkildə paraqrafın əsas mətni əsasında öyrənməsi vacib olan faktoloji biliyi fərqləndirmək; |

Layihə

| | |
|---|---|
| Maddi mənbələrlə işləmək bacarığı | - Öyrənilən dövrün müxtəlif ilkin maddi mədəniyyət abidələrini və sonrakı dövrlərdə yaradılmış abidələri fərqləndirmək;<br>- Yaddaşa söykənərək öyrənilən dövrün arxitektura abidələrinin, maddi mənbələrinin təsvirini vermək və bu tip abidələrdən informasiya əldə etmək; |
| Obyektləri cəhətlər üzrə təyin etmək, xəritə ilə işləmək bacarığı | - Yaşayış məntəqələrinin yerləşdiyi yerin şifahi təsvirini vermək;<br>- Xəritədə regionun sərhədlərini müəyyən etmək;<br>- Xəritədən müstəqil şəkildə tarixi-coğrafi məntəqələr, eləcə də tarixi hadisələr haqqında məlumat əldə etmək;<br>- Məlum tarixi obyektləri öyrəndiyi ölkə və xalqların maddi, mədəni irsinə şamil etmək; |
| Nitq bacarığı | - Dərslikdəki yazılı mənbə və illüstrativ materialdan istifadə etməklə suala bir neçə cümləlik cavab vermək;<br>- Şifahi nitqdə istifadə olunan ifadə və terminlərin istifadə əhəmiyyətinin izahını vermək;<br>- Müsahibə və faktlarla (tezislər irəli sürməklə, arqumentlər gətirməklə) tarixi şəxsiyyətləri və hadisələri xarakterizə etmək; |
| Materialın yazılı qeydə alınması bacarığı | - Əlavə mənbələrdən istifadə etməklə sinif yoldaşının cavabına müfəssəl, müstəqil, məntiqli, əsaslandırılmış tənqidi rəy yazmaq;<br>- Dərsliyin bütün informasiya mənbələrini istifadə etməklə paraqrafın planını qurmaq;<br>- Müəllimin rəhbərliyi ilə simvolların konspektini tutmaq və məntiqi sxemlər tərtib etmək;<br>- Müqayisəli, xronoloji cədvəlləri doldurmaq;<br>- Tarixi şəxsiyyətləri, mədəniyyət abidələrini xarakterizə etmək; |
| Xronoloji bacarıqlar | - Tarixi inkişaf dövrünün, hadisə və təzahürlərin xronoloji çərçivəsini sadalamaq. Əsrin yarısını, üçdə birini, dörddə birini müəyyən etmək;<br>- Eyni tipli hadisələrin sinxronluğunu müəyyən etmək;<br>- Öyrənilən faktı başvermə tarixinə görə müvafiq əsrə və tarixi inkişaf dövrünə aid etmək; |
| Analiz, sintez və müqayisə etmə bacarığı | - Ayrı-ayrı hadisə və təzahürləri fərqləndirmək;<br>- Tarixi qeydlərə söykənərək faktları sistemləşdirmək, hadisələrin, təzahürlərin, tarixi şəxsiyyətlərin fəaliyyətini analiz etmək;<br>- Eyni tip hadisə və təzahürlərin aralarında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək;<br>- Hadisə və təzahürləri, eləcə də tarixi şəxsiyyətlərin fəaliyyətini müqayisə etmək, onlarda oxşar və fərqli cəhətləri vurğulamaq;<br>- Əsas və ikinci dərəcəli anlayışların, hadisə və təzahürlərin xarakterik cəhətlərini ayırd etmək; |
| Sərbəst öyrənmə bacarığı | - Uşaqlar üçün olan elmi-populyar və məlumatverici ədəbiyyat oxumaq;<br>- Dərslik mətnləri və onlara uyğun mənbələr əsasında məlumat hazırlamaq;<br>- Bədii yaradıcılıq sahəsində tapşırıqları yerinə yetirmək;<br>- Öyrədici tarixi səhnələşdirmədə iştirak etmək;<br>- Müəllimin rəhbərliyi ilə qədim paltarların, silahların, qurğuların, əmək alətlərinin və s. maketini və ya modelini qurmaq; |

Layihə

# MÜƏLLİMLƏRƏ METODİK TÖVSİYƏLƏR. İNTERAKTİV TƏLİM NƏDİR?

İnteraktiv (fəal) təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsi ilə yanaşı, kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatlarını artırırlar.

İnteraktiv təlim şagirdlərin diqqət mərkəzində olduğu bir pedaqoji təcrübədir. Burada şagirdlərin yalnız nə öyrəndiklərinə deyil, necə öyrəndiklərinə diqqət yetirilir. Şagirdlər passiv məlumat almağa deyil, "yaxşı düşünməyə" təşviq edilməlidir. Aktiv öyrənmə şagirdləri məktəbdə və ondan kənarda özünə inamlı olmağa həvəsləndirir, onların müstəqil öyrənmələrinə məsuliyyətli olmağı dəstəkləyir.

Tədqiqatlar göstərir ki, şagirdlərə sadəcə nəyi bilməli olduqlarını izah etməklə anlayışları ötürmək mümkün deyil. Onlara fikirlərini formalaşdırmaq, düşüncələrini inkişaf etdirmək üçün şərait yaradılmalıdır. Aktiv öyrənmə dəyərləndirmə, qiymətləndirmə, təhliletmə, sintez kimi daha mürəkkəb idraki prosesləri inkişaf etdirir. Bununla yanaşı, bəzi şagirdlər passiv alınan məlumatlardan öz şəxsi qənaətlərinə də gələ bilərlər. Aktiv öyrənmə yaradılan imkanlar daxilində bütün şagirdlərə bilik və bacarıqlar əldə etməyi təmin edir.

**Tarixin tədrisində interaktiv öyrənmə**

Çox zaman tarixə ağır məzmunlu, çoxsaylı fakt və xronologiyanın əzbərlənməsini tələb edən fənn kimi baxılır. Məlumatlar şagirdlərə nələri bilməli olduğunu izah etməklə, ibrətamiz bir yolla, eləcə də stimullaşdırıcı vasitələrlə də öyrədilə bilər.

Özünüzə sual verin:

- Şagirdlərimə, sadəcə, faktlar təqdim etməyib, onların düşüncəsinə çağırış etdiyimə necə əmin ola bilərəm?
- Şagirdlərə tarixi məlumatları müxtəlif formatlarda təqdim edə bilərəmmi?
- Öyrənənləri əyani vasitələrə, dinləyib-anlamaya, müzakirə və ya bir-biri ilə söhbət etməyə necə təşviq edə bilərəm?
- Şagirdləri aktiv iştirakçı olmağa və öyrənmələri üçün üzərilərinə daha çox məsuliyyət götürməyə, onları məktəbi bitirdikdən sonra müvəffəq olmaları üçün lazım olacaq müstəqil bacarıqları inkişaf etdirməyə necə sövq edə bilərəm?

**Müəllimə məsləhət**

Mövzu şagirdlərə maraqlı olduqda onlar daha dərindən öyrənirlər. Aktiv öyrənmə strategiyaları buna şərait yarada bilər. Öyrənənlərin mövzuya marağını və həvəsini artırmaq üçün dərsə əlavə "rəng" qatın. Şagirdlər müşahidə və ya sorğu aparmaqla fəal şəkildə öyrənirlər. Onlara öyrənmək üçün bir mövzu vermək əvəzinə, "Niyə Çingiz xanın yaratdığı dövlət böyük ərazili imperiyaya çevrildi?", "Nəyə görə Avropada mərkəzləşdirilmiş dövlətlərin yaranması ölkənin inkişafını

Layihə

şərtləndirdi?" kimi tədqiqata yönəlik suallar verin. Öyrənənlərin tədqiqatçılıq bacarıqları olmadığından bu əvvəlcə çətin görünə bilər. Onlara tarixi bir film izləmək tapşırıla bilər. Növbəti dərsə filmin nə dərəcədə dəqiq olduğunu müzakirə etməklə başlamaq olar. Bu, dəyər və problemlər haqqında daha geniş debatlara gətirib çıxara bilər.

Şagirdləri etibarlı internet saytlara yönəltməyiniz lazım ola bilər. Bu cür tədqiqatlar öyrənənə tarixçi üçün vacib bir bacarıq olan məlumat topladıqları mənbəni tənqidi qiymətləndirməyə imkan yarada bilər. Onlara internet saytları, eləcə də digər informasiya qaynaqları haqqında "Mövcud veb-saytı kim yaradıb?" və "Bu veb-saytı yaratmağa onları motivasiya edən nə idi?" suallarına cavab axtarması tövsiyə edilə bilər.

**İnteraktiv öyrənmə strategiyaları**

Bəzən bir sorğu təqdim edərkən mövzu ilə bağlı bütün siniflə müzakirə etmək lazım gəlir. Məsələn, dərsinizi müzakirə ediləcək mövzunu əhatə edən PowerPoint təqdimatı ilə başlaya bilərsiniz. Şagirdlərə uzun bir mühazirə oxumaq nadir hallarda effektli olur, çünki onlar öyrənmə prosesində fəal iştirak etmir, əksinə, passiv dinləyici rolunda çıxış edirlər. Buna baxmayaraq, siz onların öyrənmə keyfiyyətini qiymətləndirə bilərsiniz. Buna görə şagirdlərə tarixi mövzular barədə təkcə "nəql etməyi" deyil, onların öyrənmələrinə kömək edəcək aktiv mühit yaratmalısınız. Bu yaradıcı yanaşmanızı nümayiş etdirmək şansınızdır! İnteraktiv öyrənmə strategiyaları o halda yaxşı işləyir ki, öyrənənlər məlumatları fərqli bir formaya çevirirlər: məsələn, yazılı mətni götürüb afişaya çevirmək. Ən yaxşı birgə işləməkdir: indi öyrənənlərin müəllimə daha az ehtiyacları olduğu zaman bir-birinə dəstək olurlar.

**İnteraktiv öyrənmə strategiyalarına dair sxem**




**Vizual metafora yaratmaq üçün məsləhətlər**

Mətni daha parlaq və daha duyğulu etməyə imkan verən ədəbi bir texnika olan metaforadan dərs ideyası kimi istifadə edilə bilər. Bir əşya, varlıq və hadisəyə məxsus əlamətin başqa bir

əşya, varlıq və ya hadisə üzərinə köçürülməsi yolu ilə düzələn metaforadan mətn tərtib edəndə, dərsi planlaşdıranda, müqayisələr aparanda, bənzətmələr edəndə istifadə edilə bilər.

**Debatlar qurmaq üçün məsləhətlər**

Şagirdləri müzakirəyə cəlb etmənin effektiv yollarından biri onlardan əsas məsələni müzakirə etmələrini istəməkdir. Müzakirələr şagirdləri bir yerdə işləmək, müxtəlif nəzəriyyələri eşitmək və öz şəxsi qərarlarını formalaşdırmaq üçün onları sintez etmək imkanı verir. Şagirdləri debata həvəsləndirmək üçün seçəcəyiniz mövzu geniş müzakirələrə imkan yaratmalıdır.

Bunun üçün şagirdlərə aşağıdakı formada müzakirə mövzusu təklif edilir: "İngiltərədə parlamentin yaradılması ilə ölkədə demokratiyanın əsası qoyuldu". Bu ifadə ilə nə qədər razısınız?

**Rollu oyunlar qurmaq üçün məsləhətlər**

Rollu oyunlar şagirdlər üçün tarixi hadisələri daha rahat öyrənə biləcəkləri bir vasitədir. Tarixdən səhnələşdirilmiş rollar öyrənənlərə əsas hadisələri başa düşməyə yaxından kömək edə bilər. Əgər ağır bir mətn qavramanı çətinləşdirirsə, onu vizuallaşdırmaq bu prosesi asanlaşdırır.

Bunun üçün hər bir şagirdə dərsin əvvəlində əsas hadisə barədə oxumağı tapşırın. Sonra onlardan əsas obrazlar haqda təəssürat yaradıb bir ssenari yazmaları, daha sonra bunu sinif üçün səhnələşdirilmiş bir oyuna çevirmələri tapşırılır. Bu zaman məhkəmə formatından istifadə edə bilərsiniz: bir tərəf müdafiə rolunu oynayır və digəri mühakimə edən; hər biri məhkəməyə dəlil və ya şahidlər təqdim edə bilər. Dərsin sonunda qərar qəbul edilir.

**Viktorinalar və oyunlar yaratmaq üçün məsləhətlər**

Oyunlar öyrənənləri həvəsləndirmək üçün əyləncəli üsuldur. Komanda şəklində oyunlar şagirdlərin ev tapşırığını necə başa düşdüyünü yoxlamağa kömək edir. Bunun üçün dərsin əvvəlində söz axtarışı kimi oyunlardan, viktorinalardan, krosvordlardan istifadə etmək olar. Bu, dərsi tamamlamadan hər hansı bir səhv düşüncəni düzəltməyə imkan verir. Eləcə də dərslərin sonunda, əsas məsələləri dərk etməkdə çətinlik çəkən şagirdləri müəyyən etmək, onların öyrənmə dərəcəsini yoxlamaq üçün əla üsuldur.

Bu zaman şagirdlərdən viktorina oyunları və ya suallar hazırlamalarını xahiş edə bilərsiniz. Yaradıcı və effektli yolla öz həmyaşıdlarının biliyinin sınanması onları öyrənməyə təşviq edər. Bu viktorinalar sizi gələcəkdə gərgin işləməkdən xilas edə bilər. Bu üsuldan keçilən dərsin təkrarı kimi növbəti dərsin başlanğıcında istifadə edilə bilər.

**Bir-birini öyrətmək üçün məsləhətlər**

Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birlərinə öyrətmələrini istəmək önəmli nailiyyət əldə etmək yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiqat xarakterli tapşırıq verilir. Sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrədilir. Əgər şagirdlər bu barədə digərinə öyrədərlərsə, onda, həqiqətən mövzunu mənimsəmişlər. Həmyaşıdları tərəfindən öyrədilmiş şagirdlərdən sinifdə nə öyrəndiklərini izah etmələrini istənilə və ya onların düzgün öyrədilməsini yoxlamaq üçün viktorina kimi qısa bir qiymətləndirmə tapşırığından istifadə edilə bilər.

**Filmlər çəkmək üçün məsləhətlər**

Smartfonlar və planşetlər kimi yeni texnologiyalar sinifdə film hazırlamağı çox əlçatan, sürətli və effektiv bir öyrənmə vasitəsinə çevirib. Şagirdlər tarixi bir hadisəni, səhnələri, siyasi prosesləri

Layihə

və ya debatı yaddaşa köçürə bilərlər ki, bu da onlara sonradan "tarixi zamana çevrilmiş" bu hadisənin yenidən canlandırılmasına imkan yaradar.

### İdraki xəritələrin yaradılması üçün məsləhətlər

İdraki xəritə fərqli amillər arasında əlaqələri əyani şəkildə göstərən bir diaqramdır. Şagirdlər səhifənin ortasında əsas sualı və ya konsepsiyanı yazmaqla başlayırlar. Məsələn, "Avropada reformasiyanın başlanmasının əsas səbəbləri". Daha sonra şagirdlər bu sualla bağlı bir sıra başqa səbəbləri və dəlilləri qeyd edirlər.




Layihə

### Afişaların yaradılması üçün məsləhətlər

Şagirdlərdən mətni vizual formaya çevirmələrini istəyin. Bu onların dərsin əsas məqamlarını nə qədər dərk etdiklərini yoxlamaq üçün çox faydalı bir yoldur. Əgər şagirdlər afişa yaratmağın şəxsi versiyasını təklif edirlərsə, deməli, belə dərs daha yaxşı işləyir. Məsələn: mərkəzi hakimiyyətin möhkəmləndirilməsinin vacibliyini təsvir etmək, siyasi partiyanı təbliğ etmək, sosial bərabərsizliklə mübarizə aparmaq, yeni bir ixtiranı reklam etmək, tibbi nailiyyəti və ya əsgərlərin müharibəyə çağırışı kimi məsələlərə dair plakat hazırlamaq.

### Diaqramların, qrafiklərin hazırlanması üçün məsləhətlər

Əsas hadisələrin xronoloji ardıcıllıqla yerləşdirilməsi bir hadisənin nə vaxt baş verdiyini, niyə baş verdiyini anlamaqda çox faydalı ola bilər. Müharibələr, siyasi nəzarətin artırılması və ya azal-

ması, iqtisadi inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə dəstək ola bilər. Bu zaman diaqramlardan istifadə etmək olar.

Şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək etmək üçün diaqramlara əlavələr kimi qrafiklər yaradın. Qrafiklərdə xronoloji inkişafı, həmçinin əsas hadisələrin təsirini göstərmək olar. Məsələn, qrafikdə bir ölkədə immiqrasiyanı, immiqrasiyanı azalda və ya artıra biləcək müharibələrin və ya digər hadisələrin təsirini vermək olar.

**Sinifdənxaric öyrənmə üçün məsləhətlər**

Şagirdlər sinifdən kənarda da fəal şəkildə öyrənə bilərlər. Aktiv təlimin əsas hissəsi onlara öyrənmələri üçün daha çox məsuliyyətli olmağı aşılamaqdır. Tədqiqat layihəsi üçün muzeyə, sənət qalereyasına və ya maraqlı tarixi yerə səyahət etmələri tövsiyə edilə bilər. Mövzu ilə emosional bir əlaqənin qurulması şagirdlərin marağına səbəb olur. Onlar tarixi hadisəni xatırlayan bir ailə üzvündən müsahibə götürə və ya bu kimi tədbirlərdə iştirak edə bilərlər. Şagirdlər ünsiyyət qurduqda və emosionallığa qapandıqda öyrəndiklərində daha çox dəyər və aktuallıq görürlər. Tədrisə daha çox maraq göstərir və bağlanırlar.

**İnteraktiv təlim prosesində müəllimin rolu**

Dərs prosesində fasilitator rolunu oynayan müəllim dərslikdə verilən materialla yanaşı, keçiriləcək mövzu ilə bağlı əlavə maraqlı məlumata da malik olmalıdır. Qəbul etmək vacibdir ki, aktiv öyrənmə strategiyalarından istifadə müəllimin rolunu kökündən dəyişdirir. "Müəllim yönümlü" tədris əvəzinə, müəllim şagirdlər üçün bələdçi rolunu oynayır.

Bunun üçün müəllim aşağıdakıları etməlidir:

- Şagirdlərə dərsdə yeni materialın öyrənilməsinin faydalı olduğunu xatırlatmalı;
- Müxtəlif növ mənbələrdən tarixi məlumatların əldə edilməsi yollarına dair göstərişlər verməli;
- Şagirdlərin dərsin ümumi məqsədini bilmələrinə əmin olmalıdır. Bunun üçün fəaliyyətə başlamazdan əvvəl şagirdlərə bəzi təlimatları, əsas anlayışları, hədəfləri, meyarları xatırlatmaq məqsədəmüvafiqdir.
- Tədrisi "dəyişmənin" yollarını tapmalıdır. Şagirdlərə kitablar, məqalələr, veb-saytlar yaratmaq və ya onları təqdim etmək tapşırığı vermək yaxşı olardı. Bu zaman onlar (səviyyəsindən asılı olmayaraq) daha yüksək səviyyəli təfəkkürə söykənməklə yeni dərsi əvvəlcədən öyrənə və dərsə hazır gələ bilərlər. Bunun üçün çox diqqətli düşünmək lazımdır: şagirdlər nə araşdırmalı olduğuna dair konkret bir təlimat almalıdırlar. Əgər şagirdlər müəllimindən lazımi qədər dəstək almazlarsa, onların araşdırmaları məqsədsiz və yöndəmsiz olar.
- Tarixi mövzuda tədqiqatların aparılmasının, tezislərin, layihələrin və təqdimatların hazırlanmasının və s. yollarını öyrətməyə, bu sahədə şagirdlərə lazımi dəstək verməyə hazır olmalı;
- Birgə öyrənmə üçün münasib şərait yaratmağa kömək etməlidir. Əgər müəllim şagirdlərin yaradıcı yanaşmada və fikir mübadiləsində özlərini inamlı və rahat hiss etməsini istəyirsə, onda dinləmənin və bölüşmələrin qarantı kimi sinifdə dəstəkləyici davranış qaydaları formalaşdırmalıdır. Fəal öyrənmə mühiti şagirdləri risk etməyə və mülahizələrini sürməyə sövq edir. Bu zaman onların özlərini rahat hiss etmələrinə əmin olmaq lazımdır. Əgər şagirdlər nədənsə çəkinsələr və ya özlərini təzyiq altında hiss etsələr, effektiv öyrənmə alınmayacaq.
- Şagirdlərin marağını stimullaşdıran cəlbedici öyrənmə mühiti yaratmalıdır. Öyrənənlər onu yeni bir formaya salmaq imkanı olan materialla fəal çalışırlar. Bunun üçün çox diqqətli bir planlaşdırma lazımdır.
- Ayaq üstə düşünün: şagirdlərdən yaradıcı olmağı xahiş etdiyiniz zaman bəzən onların yanaşmalarına təəccüblənirsiniz. Bu, mürəkkəb olsa da, onların öyrənmələrinin qiyməti risk etməyə dəyər.

Layihə

- Sinfin bütün üzvlərinin öyrənmə ehtiyaclarını diqqətdə saxlamaq lazımdır. Fərqləndirilmiş ehtiyaclara cavab verən aktiv öyrənmə strategiyaları hazırlamalıdır.
- Dərsi həssas bir mövzuya yönəltmək, yanlış təsəvvürləri və ya faktiki səhvləri düzəldə bilmək üçün lazımi məlumatlara malik olmalıdır.
- Sinfin bütün üzvlərinin uğurlu nəticələr göstərməsinə yardımçı olmaq üçün şagirdlərin işləri yoxlanmalıdır.
- Dərsdə şagirdlərin bilməsini və anlamasını qiymətləndirmək üçün imkan tapmaq lazımdır.
- Şagirdlər müzakirəyə, təhlil etməyə, səbəb və nəticə əlaqələrini müəyyənləşdirməyə, müqayisələr aparmağa, tarixi şəxsiyyətlərin fəaliyyətini qiymətləndirməyə, sual verməyə sövq edilməlidir;
- Əməkdaşlıq fəal öyrənmənin vacib bir tərəfidir. Sadəcə, müəllimi dinləmənin əvəzinə, şagirdlər fikirlərini bir-biri ilə bölüşəcəklər. Buna kömək etmək üçün müəllim sinfin quruluşu barədə düşünməlidir. Şagirdlərin həmyaşıdları ilə fikirlərini bölüşmək, həm də müəllimin göstərişlərini dinləmək imkanları olmalıdır. Bəzi şagirdlər fikirlərini bölüşməkdə çətinlik çəkirlər. Müəllim hər bir şagirdin necə işlədiyini, onların əməkdaşlıq səviyyəsini düzgün qiymətləndirmək üçün diqqətlə düşünməlidir.
- Qruplaşdırma çox vacibdir. Bu zaman müəllim daha az idarəedici kimi çıxış etməli, şagirdlər həmyaşıdları tərəfindən dəstəkləndiklərini hiss etməlidirlər.

Qrup işi zamanı fikir verin:
– Hansı şagirdlər başqalarına qarşı daha dözümlüdür?
– Kim yaxşı dinləyir və daha sakit və ya özünə daha az güvənən şagirdlərin öyrənməsini dəstəkləyə bilər?
– Hansı şagird öz biliklərinə arxayın olaraq daha az qabiliyyətli şagirdlərə yaxından yardım edə bilər?

**Müəllim məsləhəti**

Davamlı peşə inkişafı müəllim və şagirdlər üçün təlimin və tədrisin keyfiyyətinin artırılmasına yönəlmiş uzunmüddətli prosesdir. Bu, tez-tez yeniliyi və əməkdaşlığı inkişaf etdirməklə həyata keçirilir. Müxtəlif tipli məlumatların əldə edilməsi məktəbdə və ya daha geniş yerli və ya milli səviyyədə öyrənməyə töhfə verəcəkdir. Məktəbinizdə peşəkar şagird birliyinin inkişaf etdirilməsi sizə uğurlu təcrübələri bölüşmək və öyrənmə yanaşmalarını, fərqli mövzu sahələrində araşdırmalar aparmağa imkan verə bilər.

Tarixin səmərəli tədrisi üçün fəal-interaktiv metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda tarixin tədrisində əsas məqsəd ondan ibarətdir ki, dərs şagirdyönümlü, standartlara və məqsədə uyğun olsun.

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləməyiniz yaxşı olardı:
1. Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi
2. Fəal dərsin mərhələləri
3. Fəal dərsin strukturu

İnteraktiv metoda müxtəlif növ üsullar, iş formaları daxildir. Fəal-interaktiv üsullara rollu oyunlar, modelləşdirmə, diskussiyalar, debat, akvarium, xəritə üzərində iş və s. daxildir. Üsullarla yanaşı, fərdi, cüt, qrup və kollektiv iş formalarının da müasir təlimdə tətbiqi zəruri hesab olunur. Bu cür metodlar şagirdlərdə nəinki dərsə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticə çıxarma bacarığını formalaşdırır.

**Restavrasiya üsulu**

Bu üsul şagirdlərdə mətnlə işləməklə yanaşı, konspekt yazmaq və ondan istifadə etmək bacarığını da formalaşdırır. Bunun üçün onlara xüsusi şəkildə işarələnmiş, şərti işarələri olmayan, ix-

Layihə

tisar edilmiş mətn verilir. Şagirdlər müəyyən edilimiş vaxt çərçivəsində mətni bərpa edib genişləndirməlidirlər.

**Mühazirə üsulu**

Mühazirə müəllimdən şagirdə məlumatın ötürülməsi üsuludur. Digər fənlərdə olduğu kimi, Ümumi tarix fənninin tədrisində də bu üsuldan geniş istifadə edilir. Araşdırılacaq problemlə bağlı şagirdin təsəvvürünün formalaşdırılması üçün problemin həllinin qısa yolla izahı və məlumatı çatdırmaq üçün istifadə edilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə zamanı aşağıdakıları nəzərə almaq tövsiyə edilir:

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
- Əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin üz ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.

**Müzakirə**

Ümumi tarix fənninin tədrisində müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

**Diskussiya**

Təlimin ən mühüm metodik üsullarından biridir. Diskussiya müstəqil metodik üsul kimi, eləcə də fəaliyyətin digər növlərinə əlavə kimi tətbiq edilə bilər. Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə öz fikirlərini söyləməklə, öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli baxışlara dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır.

Diskussiya mədəniyyəti olduqca vacib və geniş bir məsələdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibətdir. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir. Belə ki o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezası kimi çıxış edir.

Yuxarıda göstərilən vərdişlərə (dinləmək bacarığı, başqa baxışlara dözümlülük və s.) nail olmaq üçün şagirdlərə diskussiya aparmağı öyrətmək lazımdır. Müəllim şagirdlərə təklif edə bilər ki, diskussiya aparmaq qaydalarını özləri tərtib etsinlər.

Şagirdlər "əqli hücum" üsulu ilə diskussiyanın uğurla aparılmasına kömək edə biləcək təklifləri irəli sürürlər. Qaydalar aşağıdakılardan ibarət ola bilər:

✓ eyni vaxtda yalnız bir nəfərin danışa bilməsi;
✓ danışanı dinləmək;
✓ sözü kəsməmək;
✓ tənqid edəndə danışanı deyil, fikri tənqid etmək;
✓ reqlamenti nəzərə almaq;
✓ heç kəsi məsxərəyə qoymamaq;
✓ söz demək istədikdə əl qaldırmaq və s.

Layihə

Müəllim bu qaydaları iri vərəqdə yaza, sinifdə divardan asa bilər. Bu qaydaları dərs ilinin axırına qədər saxlamaq olar ki, sonralar ona istinad etmək və ya əlavə və düzəlişlər etmək mümkün olsun.

Diskussiyanın gedişinin düzgünlüyünün qiymətləndirilməsi:

- ✓ düzgün təriflər, aydın mülahizələr;
- ✓ yadda qalan və aktual misallar;
- ✓ sanballı dəlillər və analogiyalar;
- ✓ ümumiləşdirmə aparma və yekunlaşdırma bacarığı;
- ✓ başqalarını dinləmək bacarığı.

Diskussiya vaxtı mülahizələrdə təkrarlar, mövzuya aid olmayan faktlar, anlaşılmaz müddəalar, dəlillərin yoxluğu, mövzudan qaçma, çıxış edənləri suçlama, şəxsi təhdid və s. yol verilməməlidir.

**Akvarium**

Diskussiya vərdişlərini inkişaf etdirmək üçün ən yaxşı üsullardan biri akvariumdur. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil. Başlıcası problemin müzakirəsində irəliləmək və düzgün diskussiya aparmaq vərdişləri nümayiş etdirməkdir. Bütün qaydalar diskussiyadan öncə ciddi şəkildə müəyyən edilməlidir.

***Akvariumun keçirilməsinin 1-ci variantı.*** Şagirdləri 2 qrupa bölünür. Müəllimin təklif etdiyi problemi müzakirə edən bir qrup stullarda əyləşərək daxili dairə təşkil edir: Digər qrup xarici dairədəki stullarda oturur: onlar diskussiyanın müəyyən qaydalar üzrə keçib-keçmədiyini müşahidə edəcəklər. 10–15 dəqiqədən sonra diskussiya dayandırılır, "xarici dairə"nin iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerlərini dəyişərək, bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

***Akvariumun keçirilməsinin 2-ci variantı.*** "Daxili dairə"nin iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edirlər. Lehinə olan dəlilləri irəli sürürlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər – onlar dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 10–15 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. İndi onlar diskussiya apararaq əvvəlki iştirakçıların dəlillərini təkzib etməlidirlər.

**Debatlar**

Diskussiyanın yalnız bir-birlərinə opponentlik (etiraz) edən tərəflərin arasında keçirildiyi mübahisə, müzakirə, rəy mübadiləsi kimi məlum formalarından fərqli olaraq, debatlar opponentini deyil, üçüncü tərəfi inandırma prosesini nəzərdə tutur. Üçüncü tərəfin vəzifəsi hər bir tərəfin mövqeyini dinləyib, öz seçimini etməkdir. Bu seçim yalnız bir şeyə – "bu tərəf məni inandırdı!" – təsdiqinə əsaslanır. Beləliklə, debatlarda iştirak edən tərəflərin əsas məqsədi öz dəlil və sübutlarının köməyi ilə üçüncü tərəfi öz mövqeyinin düzgünlüyünə inandırmaqdır. Bu prosesin yekunları əsasında ona, həmçinin qərarların qəbulu kimi baxmaq olar.

**1. Mövzu.** Debatlarda mövzu təsdiq formasında ifadə edilir (məsələn, "Dövlət təhsili rəsmi dövlət dilində təmin etməlidir"). Mövzu qısa ifadə edilən zaman aşağıdakı prinsiplərə riayət olunmalıdır:

- mövzu aktual olmalıdır;
- mövzu maraqlı olmalıdır;
- mövzu "mübahisəli" olmalıdır;
- mövzu elə ifadə edilməlidir ki, heç bir mövqeyin üstünlüyü hiss edilməsin;
- mövzu nə çox məhdud, nə də çox geniş olmalıdır.

Layihə

***Debatlara daxil olan təlim ünsürləri və ya təhsil texnologiyası:***

- mövzunun araşdırılması;
- əsas anlayışlarla iş;
- dəlillərlə iş;
- sualların hazırlanması və ya "çarpaz suallar";
- natiqlik məharəti;
- hakimlik və ya qərarları necə qəbul etməli.

**2. Debatda rollar.** Debat iştirakçıları və ya debatçılar çıxış zamanı spiker adlanırlar. Debatlar prosesində çıxışlarının vaxt rejimini təmin edən "taymkiper"lər iştirak edirlər. Debatlar üçüncü tərəfi təmsil edən hakimlər qarşısında spiker komandaları ("A" mövqeyi və "B" mövqeyi) arasında keçirilir:

► Təsdiqedici "A" mövqeyinin spikerləri debatların mövzusunu onun ifadə edildiyi kimi təsdiq edirlər. Məsələn, "Vahid məktəb forması özünü doğrultmur";

► Təkzibedici "B" mövqeyinin spikerləri "A" mövqeyini təkzib etməyə borcludurlar – bu onların başlıca vəzifəsidir. Həm də onlar təkzibetmədən sonra öz meyar və dəlillərini təklif edirlər. Məsələn, "A" mövqeyi vahid məktəb formasının zəruri olduğunu sübut etdiyi halda, "B" mövqeyi "A" mövqeyinin zəif, inandırıcı olmayan cəhətlərini göstərir, sonra isə öz mövqeyinin düzgünlüyünü sübuta yetirməyə çalışır.

► Hakimin vəzifəsi bu mövqelərdən hansının daha inandırıcı olduğunu öz şəxsi mövqeyindən asılı olmayaraq, müəyyən etməkdir. O yalnız eşitdikləri əsasında nəticə çıxarır və öz seçimini edir. Çox vacibdir ki, o öz seçimini etdikdən sonra onu əsaslandıra bilsin.

3. **Arqument (dəlil)** – faktlar əsasında çıxarılan nəticədir; mövzunun tədqiqinin nəticəsidir. Arqument üzərində iş prosesi aşağıdakı hərəkətlərdən ibarətdir:

► arqument irəli sürülür;
► arqument izah edilir;
► arqument sübut edilir;
► nəticə.

**4. Faktlar, dəstək, sübutlar.** Debatların spikerləri arqumentləri irəli sürərkən, sübut-dəlilləri – onların mövqeyini təsdiq edən faktları, statistik göstəriciləri, mütəxəssislərin ekspert rəylərini də təqdim etməlidirlər.

**5. "Çarpaz" suallar** – debatlar zamanı bir mövqeyin spikerlərinin suallarından və digər mövqeyin spikerlərinin cavablarından ibarət olan və xüsusi fərqləndirilən raunddur. Verilən sualların və alınan cavabların keyfiyyəti iştirakçıların debatların mövzusunu nə dərəcədə dərindən və hərtərəfli mənimsədiklərini göstərir. Hazırlıq prosesində debatçılar idrak prosesinin mühüm ünsürlərindən olan sualların ifadə texnikası və məharətinə yiyələnirlər. Bu zaman həm də spikerin alınmış cavablardan nə dərəcədə ustalıqla opponentin mövqeyini zəiflətmək və öz mövqeyini gücləndirmək üçün istifadə edə bilməsi qiymətləndirilir.

**Prezentasiya**

Fəal təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Bu zaman şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi şəkildə və ya qrup halında keçirə bilərlər.

Müəllim təqdimatın növünü, onun keçirilmə şəraiti və şərtlərini şagirdlərlə birgə müəyyən edir. Şagirdlərin özləri təqdimatın elə bir üsulunu seçə bilərlər ki, gördükləri iş barədə səmərəli şəkildə danışmaq və öz biliklərini bölüşdürmək üçün şərait və imkanları olsun. Şagird öz biliklərini və əqli vərdişlərini başqalarına ötürə bilmək üçün zəruri ünsiyyət vərdişlərinə malik olmalıdır.

Ünsiyyətin ən vacib ünsürlərindən biri şagirdin öz fikirlərini dəqiq və aydın ifadə edə bilməsidir. Şərhin aydınlığı informasiyanın təşkilindən asılıdır. Yaxşı təşkil edilmiş təqdimatın zəruri şərtləri – problemin mahiyyəti üzərində fikri cəmləyə bilmək bacarığı faktiki informasiyaya əsaslanan

Layihə

başlıca ideya və nəticələrə dəstək verən münasib nümunə və misalların mövcudluğudur. Yaxşı təşkil edilmiş təqdimat onun növündən asılı olmayaraq, şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyəsini göstərir.

Təqdimatın hər bir növündə müəllimin nəzərə almalı olduğu özünəməxsus qaydalar və ənənələr vardır. Məsələn, şifahi təqdimat keçirilərkən səsdən, jestlərdən, foto, video və digər əlavə materiallardan bacarıqla istifadə, illüstrasiyaların, fotoşəkillərin seçimi və s. faktları nəzərə almalıdır.

Formalaşmış ünsiyyət vərdişlərinə malik olan şagirdlərin təqdimatı öz dəqiqliyi və yaxşı təşkil olunması, bu və ya digər təqdimat formasının keçirilməsi üzrə qaydalara və ümumi normalara riayət olunması ilə seçilir. Bu cür təqdimatlar həm də materialın dəqiq şərhi, informasiyanın bacarıqla təşkili, illüstrasiya və nümunələrin yüksək keyfiyyəti, çıxarılan nəticələrin mükəmməlliyi ilə diqqəti cəlb edir. Artıq deyildiyi kimi, göstərdiyimiz bütün metodik üsullar fəal (interaktiv) xarakterə malikdir.

**Sorğu vərəqləri və müsahibə**

Bu üsullar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi Ümumi tarix fənninin tədrisində araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar hazırlanır. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil şəkildə doldurur. Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə, daha doğru olar:

1. Problemi müəyyən etmək;
2. İşi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
3. Məlumatları toplamaq (sualların cavablarını toplamaq);
4. Əldə edilmiş məlumatları təhlil etmək və ümumiləşdirmək.

**Qərarlar ağacı**

Ümumi tarix fənninin tədrisində bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır. Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. Məsələn, dünyanın üzləşdiyi hər hansı bir qlobal problem müzakirəyə qoyulur. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları (+) və ya (–) işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür. Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

**"Üç cümlə üsulu"**

Şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə həll etmək tövsiyə edilir. Kim hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür.

**Problemli vəziyyət**

Bu üsulun tətbiqi Ümumi tarix fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə bacarıqlarını inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş iş vərəqləri, məsələn, "Qarabağ məsələsi" və s. şagirdlərə paylanılır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

**Xəritələrlə iş**

Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir.

Layihə

Şagirdlərə mürəkkəblik səviyyəsi müxtəlif olan tapşırıqlar verilir:

1. Xəritədə dünyanın hansı hissəsi təsvir olunub?
2. Öyrənilən ölkənin ən şimal, cənub, şərq və qərb nöqtələrini müəyyənləşdirin.
3. Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.
4. Ərazinin təbii şəraitinə əsasən buranın yerli əhalisi üçün hansı fəaliyyət növü daha sərfəli olar?
5. Mühüm ticarət yollarının, hərbi yürüşlərin, dəniz ekspedisiyalarının və s. marşrutların hansı ölkələrdən keçdiyini xəritədə müəyyən edin.
6. Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.
7. Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.
8. Göstərilən ərazidə hansı müasir ölkələrin yerləşdiyini müəyyənləşdirin.

Bu prosesdə fəallıq növləri: qruplarda xəritə üzrə fikir mübadiləsi, xəritə haqqında rəy, kontur xəritələrlə iş, xəritənin yaradılması (əgər proqramda xəritə yoxdursa) və s. ibarətdir.

**Zaman oxu ilə iş**

Zaman oxu ilə işin təşkili Ümumi tarix fənninin tədrisində ən əhəmiyyətli məsələlərdən biridir. Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. Zaman oxunda hansı tarixlər qeyd olunub?
2. Nəyə görə orada məhz bu tarixlər göstərilib?
3. Bu tarixlərdən hansı ən ilkindir (sonuncudur)?
4. Ən ilkin (son) tarixdən bu günə kimi neçə il keçib?
5. Zaman oxunda göstərilən bir hadisə ilə digəri arasında neçə il ötüb?
6. Zaman oxunda bir neçə hadisədən hansı ən tez (və ya gec) baş verib.

Dərslikdə yoxdursa, zaman oxunun ilk mənbələr, ədəbiyyat, xəritələr və digər sənədlərdən götürülmüş tarixlər hesabına tərtib edilməsi və onunla işin təşkili vacib məsələlərdən biridir.

**Debat "Müzakirə" dərs modeli**

İki rəqib komanda iştirak edir – dəqiq müəyyənləşdirilmiş tezis, məsələn, "Gələcəkdə Azərbaycanın çiçəklənməsi labüddür" tezisini təsdiq edən və inkar edən tərəflər.

Hər komandadan üç spiker çıxış edir: təsdiq edən tərəfdən T1, T2, T3 spikerlərin hər biri öz tezisinin müddəalarını müdafiə və təsdiq etməlidir; inkar edən tərəfdən isə İ1, İ2, İ3 spikerləri həmin tezisi inkar etməlidir.

**Debatda çıxışların ardıcıllığı və vaxt cədvəli**

| | | |
|---|---|---|
| T1 | 3 dəq. | Tezisi izah edir, təsdiq edən tərəfin dəlillərini təqdim edir. |
| İ3-T1-ə | 2 dəq. | İ3 dəlillərin əhəmiyyətini azaltmaq üçün T1-ə sual verir. T1 cavab verir. |
| İ1 | 3 dəq. | Bütün mümkün dəlilləri irəli sürür. |
| T3-İ1-ə | 2 dəq. | T3 İ1-ə onun dəlillərinin əhəmiyyətini azaldan suallar verir. İ1 cavab verir. |
| T2 | 2 dəq. | İ1-in dəlillərini rədd edir, sübutlar gətirir, təsdiqedici xətti gücləndirir. |
| İ1-T2-yə | 2 dəq. | İ1-T2-yə çarpaz suallar verir. T2 cavab verir. |



Layihə

| | | |
|---|---|---|
| İ2 | 2 dəq. | T1 və T2-nin dəlillərini inkar edir, inkar edən xətti gücləndirir. |
| T1-İ2-yə | 2 dəq. | T1 İ2-yə sual verir. İ2 cavab verir. |
| T3 | 3 dəq. | Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edir və təsdiqedici xəttin sübutlarını gücləndirir. |
| İ3 | 3 dəq. | Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edir və təsdiqedici xəttin sübutlarını gücləndirir. |

Debatlarda şagirdlərdən biri taymkiper (vaxt ölçən) rolunu oynayır. O, vaxta nəzarət edir və bitməsinə yarım dəqiqə qalmış üstündə "30 saniyə" yazılmış vərəqi və ya lövhəni qaldırır. Sinfin qalan şagirdləri debatların gedişini müşahidə edir və tərəflərin dəlillərini aşağıdakı cədvəldə qeyd edir:

**İNSERT**

Bu üsuldan dərsin dərketmə mərhələsində istifadə olunur. Oxu zamanı şagirdlərin qavrayışlarını yoxlamasına imkan yaradır. İNSERT iki mərhələdə həyata keçirilir. Birinci, istifadə olunacaq mətn və zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn:

| | |
|---|---|
| ✓ | Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama (✓) işarəsi qoyun. |
| - | Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi (–) işarəsi qoyun. |
| + | Müsbət (+) işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün yeni olsun. |

**Tarixi mənbələrlə iş**

Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də tarixi mənbələrlə işdir. Mənbələrlə iş şagirdlərdə tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi ilə yanaşı, onları tənqidi düşünməyə sövq edir. Bu zaman şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir.

Tarixi mənbə ilə iş zamanı şagirdlərə verilə biləcək sual və tapşırıqlar:

- Başlığı oxuyun (əgər o varsa).
- Tarixi mənbənin növünü adlandırın. O hansı şəraitdə yaranıb? Mənbənin yaradılmasında məqsəd nə olub?
- Mənbənin müəllifinin adını oxuyun (əgər varsa). Onun haqqında bildiklərinizi yada salın və ya öyrənin.
- Mətni oxuyun. Tanış olmayan ifadələri və terminləri izah edin.
- Sualları oxuyun və cavablarını tarixi mənbədən tapın.
- Bu sənəd sizə məlum olan hər hansı bir məlumatı təsdiq edirmi? Sizin bildiklərinizlə ziddiyyət təşkil edən məqam varsa, o, nədir?
- Mənbə əsasında hansı yeni məlumat əldə etdiniz?

**İllüstrasiyalarla iş**

İllüstrasiyalar dərslik və ya dərs üçün dizayn məqsədilə deyil, həm də şagirdlər üçün əlavə məlumat mənbəyi olmalıdır. Buna görə də illüstrasiyalarla iş üçün suallar və tapşırıqlar təklif edilməlidir.

Layihə

**İllüstrasiyanın təsviri və ondan məlumat alınması**

Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:

1. İllüstrasiyaya əsasən tarixi dövrü və məkanı (hadisə yerini) müəyyən edin.
2. Göstərilmiş tarixi hadisələri və onların iştirakçılarını, şəraiti, mühiti təsvir edin.
3. İllüstrasiyada əks olunan tarixi dövrün tipik nümayəndələrini müəyyənləşdirin (geyim, davranış xüsusiyyətlərinə görə).
4. Süjet və detallara görə əsər müəllifinin əsas fikrini aydınlaşdırın.
5. İllüstrasiya materiallarının növünü və onun müəllifinin əsas ideyasına müvafiqliyini müəyyənləşdirin.
6. Şəkilaltı mətni (əgər varsa) illüstrasiyanın məzmunu ilə müqayisə edin.
7. İllüstrasiya üzrə hekayə hazırlayın.

**İllüstrasiyalarla iş zamanı şagirdlərin fəaliyyət növləri:**

1. İllüstrasiya üzrə ümumi söhbət;
2. İllüstrasiyaya imza toplamaq;
3. "Bərpaçı"nın vərəqəsinin tərtib olunması;
4. Cütlərdə "rəssam"la müsahibə;
5. Cütlərdə sualların qoyuluşu.

**İllüstrasiyaların dərk olunması və tətbiqi. Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:**

1. Sizcə, illüstrasiya naturadan çəkilib, yoxsa sonradan yaradılıb?
2. Əgər o, sonradan yaradılıbsa, onun mənbəyi nə olub?
3. İki və daha artıq eyni planlı illüstrasiyaları müqayisə edin.
4. Müxtəlif tip illüstrasiyalarda hadisələrin obrazlı əksini müqayisə edin.
5. Müxtəlif illüstrasiyalarda məzmunu və dəyərləndirici əlaqələri təyin edin.
6. İllüstrasiyanın dəyərlər sistemini və subyektivlik səviyyəsini müəyyən edin.
7. Müxtəlif tip illüstrativ materialları qiymətləndirin və nəticə çıxarın.
8. Problemin həlli üçün illüstrasiya və mənbələrin müqayisəli təhlilindən istifadə edin.
9. Öz mövqeyinizi illüstrasiyanın köməyi ilə əsaslandırın.

**Təqdimatlar**

Təqdimat Ümumi tarix fənni üçün çox əlverişli metoddur. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, veb-sayt və sair) və müxtəlif xarakterdə ola bilər. Təqdimat həm fərdi, həm də qrup şəklində tapşırıla bilər. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul həm də şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə almaq lazımdır ki, bu iş daha çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Buna görə də təqdimatların hazırlanması həftədə bir saatlıq Ümumi tarix fənni üçün ən münasib üsullardan biri hesab oluna bilər.

**"Cavab əldə et" metodu**

Bu zaman şagird ayrı-ayrı mənbələrdən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaq. Şagirdlər onlara verilən məhdud vaxt ərzində aldıqları tapşırıqların cavablarını ya internet, ya da paylama materialları (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Bu zaman tapşırığı elə qoymaq lazımdır ki, şagirdləri tədqiqatçılığa sövq etmiş olsun. Yarışmanı xatırladan dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir.

**Mətn üzərində iş**

Adından göründüyü kimi, bu, şagirdlərin onlara təqdim edilmiş mətn üzərində işini nəzərdə tutur. Bu zaman şagirdlərə aşağıdakı tapşırıqları vermək məqsədəuyğundur:

– Mətni oxuyun. Onu elə bitkin hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun.
– Mətnin hər hissəsinə ad qoyun. Planın bəndlərinin adı kimi formalaşdırıla bilər:

a) sual kimi;
b) mətnin əsas fikrini əks etdirən mətndəki bir ifadə kimi.

Layihə

– Planın bəndlərinin bir-birini təkrar etməməsinə diqqət yetirin.
– Mürəkkəb plan quranda bəzi və ya bütün bəndlər yarımbəndlərin məzmununu əhatə etməlidir.

## Müasir interaktiv dərslərə verilən tələblər:

- Diqqət, ilk növbədə, şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir.
- Müəllim, ilk növbədə, təlim-idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
- Müəllim və şagird arasında əməkdaşlıq, məktəblilərin dəlillərinə və fəaliyyətinə böyük diqqət yetirilir.
- Təlim məsələlərinin həlli prosesində bilik və bacarıqların tətbiqi dərsin bütün mərhələlərində (yeni materialın mənimsənilməsi, onun möhkəmləndirilməsi və bilik, bacarıq səviyyəsinin yoxlanılması) əsas yer tutur. Nəticədə dərsin müxtəlif mərhələ və funksiyalarının birləşməsi, təlim prosesinin fəallaşmasına yönəlmiş sintez baş verir.
- Təlim prosesində şagirdlər arasında ünsiyyət qurulur, cüt, qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir.
- Müasir nəzəriyyə müxtəlif fənlərdən dərs deyən bir neçə müəllim tərəfindən keçirilən fənlərarası dərsləri istisna etmir.
- Təhsilin məzmunu ilə yanaşı, şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır.
- Dərs tarixi yerlərə ekskursiyalar, tarixi abidələrə, muzey və sərgilərə baxış kimi təlim formaları ilə sıx əlaqəlidir.
- Ənənəvi olaraq dərs digər təlim formalarının bəzi elementlərini (məs., seminar-dərs, oyun-dərs, yarış-dərs, konfrans-dərs və s.) assimilyasiya edir.
- Müəllimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsi səciyyəvidir: bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi (qarşılıqlı və özünüqiymətləndirmə), işin planlaşdırılması, tədqiqat və özünü qiymətləndirmə elementləri.
- Təhsil islahatı proqramında təlimverici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət verilməsi tövsiyə edilir.

Fəal təlim zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olur və bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər. Müəllim bu zaman şagird tərəfindən biliklərin əldə edilməsi yolunda bələdçi rolunu oynayır, şagirdlər isə tədqiqatçı olurlar.

Fəal təlim metodlarına aşağıdakı xüsusiyyətlər aiddir:

1. Şagirdlərin fəal öyrənmə mövqeyi;
2. Təfəkkürün müstəqilliyi və sərbəstliyi;
3. Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət;
4. Həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi və s.

Şagirdlərdə tənqidi təfəkkür formalaşdırmaqla hadisələrə münasibət bildirmək, məlumatı qiymətləndirmək qabiliyyətini aşılamaq əsas məqsədlərdən biridir. Bu zaman şagirdlər onlara verilən məlumatı təhlil edərək baş vermiş prosesin və ya şəxsiyyətin müsbət və mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətinə malik olurlar.

Didaktik təfəkkür vasitəsilə hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etmək nəzərdə tutulur.

Verilən sual və tapşırıqların köməyi ilə məntiqi təfəkkür – müqayisə, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə bacarıqları formalaşır.

Layihə

## Fəal dərsin quruluşu. Planlaşdırma

Planlaşdırmanın iki növü vardır: gündəlik və perspektiv. Müasir təhsil islahatının tələblərinə uyğun olaraq gündəlik və perspektiv planlaşdırma əvvəlki forması ilə müqayisədə xeyli dəyişmiş, interaktivliyə və nəticəyönümlülüyə şərait yaradan formada tərtib edilir.

Fəal – interaktiv təlimdə gündəlik dərsin mərhələləri aşağıdakı kimidir.

**Dərsin birinci mərhələsi: motivasiya, problemin qoyulması**

Mövzuya uyğun istiqamətləndirici suallardan istifadə oluna bilər.

**Dərsin ikinci mərhələsi: tədqiqatın aparılması**

Bu mərhələdə problemin həlli üçün irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. Bunun üçün də tədqiqat müxtəlif iş formalarında aparıla bilər.

**Dərsin üçüncü mərhələsi: məlumatın mübadiləsi**

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat bir növ yeni biliklərin çərçivəsini müəyyən edir və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Məhz bu mərhələdə yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

**Dərsin dördüncü mərhələsi: məlumatın müzakirəsi və təşkili**

Bu ən mürəkkəb mərhələdir və bütün zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Müəllim fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və təşkilinə kömək edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir.

**Dərsin beşinci mərhələsi: ümumiləşdirmə və nəticə**

Şagird nəinki əldə olunan bilikləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə (Onların arasında düzgün olanı varmı?) tutuşdurmalıdır. Bu, çox mühüm məqamdır. Dərsin kulminasiyasını isə bilikləri özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

**Dərsin altıncı mərhələsi: yaradıcı tətbiqetmə**

Məlum olduğu kimi, biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini açıb göstərir. Buna görə müəllim imkan daxilində şagirdlərə təklif edə bilər ki, onlar müəyyən məsələlərin həlli üçün, yaxud hansısa yeni suallara cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar. Əgər yaradıcı tətbiqetməni dərhal həyata keçirmək mümkün deyilsə və əvvəlcə biliklərin mənimsənilməsi yolunu sona qədər keçmək tələb olunursa, buna əməl etmək lazımdır. Lakin son nəticədə yaxşı olar ki, şagirdlərə, onların kəşf etdikləri biliklərin yaradıcı surətdə tətbiqinə dair çalışma verilsin, bu halda həmin bilik həmişəlik onların şüurunda həkk olunar. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərs saatı ilə məhdudlaşdırılmaya da bilər, yəni onun realizəsi sonrakı dərslərdə də mümkündür.

**Dərsin yeddinci mərhələsi: qiymətləndirmə və ya refleksiya**

Yuxarıda göstərildiyi kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil (öyrətməyi öyrənmək), müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və öz məziyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Layihə

Buna görə dərs başa çatdıqdan sonra göstərilmiş prosedurlardan birini qiymətləndirmə və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla həyata keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formalarda həyata keçirilə bilər. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin şagirdlərə, onları yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sual verməsi kifayətdir. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və ünsürlərini dərk etmiş olur.

**Refleksiya üçün verilə biləcək suallar**

Adətən, dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə etmək olar:
- Dərsdə hansı yeni məlumatları öyrəndiniz?
- Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
- Sizə nə aydın olmadı?
- Hansı suallarınız var?
- Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
- Dərsdə qarşıya qoyulan hədəfə çatdınızmı?
- Yeni mövzu üzərində necə işlədiniz?
- Hansı mənbələrdən istifadə etdiniz?
- Sizə görə, hansı mənbələr daha inandırıcı və ya hansı mənbələr daha maraqlı idi?
- Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz? və s.

## Motivasiya qurmaq üçün müəllimə məsləhət

Hörmətli müəllimlər! Sizə təqdim olunan dərslikdə paraqrafların sayı az (23 paraqraf) olsa da, dərs saatlarının miqdarı (28 saat) çoxdur. Paraqrafların sayının az olması ya söhbətin bir dövlətdən getməsi, ya hadisənin eyni məkanda baş verməsi, ya da haqqında bəhs edilən dövlətlərin bir-biri ilə bağlılığı səbəbindəndir.

Paraqrafların az olması belə bir sual doğurur: "Şərq xalqlarının mədəniyyəti" başlıqlı mövzunun hər saatına (qeyd edək ki, bu mövzunun tədrisinə 2 saat vaxt ayrılıb) ayrıca motivasiya qurmaq lazımdırmı? Bu suala yekdil şəkildə "Xeyr, hər iki saata ayrı-ayrılıqda motivasiya qurmaq mütləq deyil!" cavabı veriləcək.

Bir paraqrafın ayrı-ayrı saatlarına motivasiyanın qurulması müəllimin mövzuya yanaşmasından, dərsini necə qurmasından da asılıdır. Yeni dərsə motivasiyanın qurulması təkcə eyni mövzuya ayrılan çoxsaylı saatlar zamanı deyil, səhnələşdirilmiş, ekskursiya, disput və s. tipli dərslərin keçirildiyi vaxt, "oyunlar" keçirilən zaman da ixtisar edilə bilər.

Bəzən müəllimlər motivasiyanı quran zaman müxtəlif çətinliklərlə üzləşirlər. Məsələn, texniki imkanların və ya lazımi vəsaitin olmaması və ya bunlardan istifadənin mümkünsüz olduğu hallarda müəllim hekayə qurmaq yolu ilə dərsə giriş edə, şagirdlərdə hansısa formada dərsə maraq yarada bilər.

Bu məqsədlə də, hörmətli müəllimlər, sizə hər bir dərsə motivasiya qurmaq üçün, 6-cı siniflər üçün 2021-ci ildə "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuş "Ümumi tarix" dərsliyinin müəllim üçün metodik vəsaitində yeni dərsə giriş kimi dialoq formasında "Motivasiya qurmaq üçün hekayə qurmaq modeli" təqdim edilib. Təkrarçılığa yol verməmək və bu yanaşmanı adiləşdir-

Layihə

məməkdən ötrü 7-ci siniflər üçün nəzərdə tutulan "Müəllim üçün vəsait"də bu "modeldən" istifadə etmədik. Bununla belə, dərsliyin ilk paraqraflarından etibarən müvafiq olaraq ən sonuncu mövzusuna qədər (hətta tədrisinə bir neçə saat ayrılan paraqrafın hər bir saatı üçün də) bu "Motivasiya qurmaq üçün hekayə qurmaq modeli"ndən motivasiya kimi istifadə edə bilərsiniz. Təbii ki, müvafiq mövzulara suallar qoymaq yolu ilə.

## FƏAL DƏRSİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Hər bir dərsin yeddi mərhələdən ibarət olması mütləq deyil. Ümumi götürdükdə dərsi üç əsas mərhələyə ayırmaq olar:

1) Şagirddə dərsə maraq yaratmaq;
2) Araşdırma;
3) Nəticəçıxarma.

Dərsin neçə mərhələdən ibarət olması bir neçə amildən asılıdır. Dərsin məqsəd və vəzifələri, eləcə də forma və üsulundan asılı olaraq, dərsin mərhələlərini azaltmaq (mərhələləri birləşdirmək və ya hər hansı bir mərhələyə müraciət etməmək) mümkündür. Məsələn, ümumiləşdirici dərsdə motivasiya, yaradıcı tətbiqetmə, refleksiya kimi dərs mərhələlərindən istifadə etməmək mümkündür.

Dərsin neçə mərhələdən ibarət olmasına öyrəniləcək materialın həcmi, şagirdlərin paraqrafdakı məlumatlarla tanışlıq səviyyəsi, mənbələrin sayı, inteqrasiya imkanları, xəritə və ya kontur xəritə ilə işləmək imkanı, standartı (və ya standartları) reallaşdırmaq imkanı, şagirdlərin fəallıq səviyyəsi, dərs əsnasında diaqnostik qiymətləndirmənin aparılıb-aparılmamasının nəzərə alınması və s. də təsir göstərə bilər.

**Perspektiv planlaşdırma**

Kurikulum islahatı ilə əlaqədar olaraq müəllim perspektiv planlaşdırmanı aşağıdakı cədvəl əsasında hazırlamalıdır:

| Standart | Tədris vahidi | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |

Layihə

Perspektiv planlaşdırma hazırlanarkən tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparılmalı, standartların reallaşdırılması üçün lazımi imkanlar müəyyən edilməli, tədris vahidlərinin və mövzuların ardıcıllığı müəyyənləşdirilərkən sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmalıdır. Ümumi tarix fənni üçün bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından məntiqi və xronoloji ardıcıllıq prinsipidir.

İnteqrasiya imkanları müəyyən edilməli və planlaşdırmada qeyd olunmalıdır. MV-də təqdim olunmuş illik planlaşdırma cədvəlində məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir.

Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır. Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 7-ci sinifdə Ümumi tarix fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib, eyni zamanda, şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayrıla bilər.

## Dərslərin illik planlaşdırılması

| № | Standart | Mövzu | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|
| | | **I bölmə: Dünya ölkələri III–XI yüzilliklərdə** | | |
| 1. | 2.1.1. | Feodal münasibətlərinin meydana gəlməsi | Formativ | 1 |
| 2. | 1.1.3., 4.1.1. | Xalqların böyük köçü. Avropa Hun və Ağ Hun dövlətləri | Formativ | 1 |
| 3. | 1.1.2., 3.1.1. | Göytürk və Uyğur dövlətləri | Formativ | 1 |
| 4. | 3.1.1., 3.1.2. | Avar, Xəzər və Bulqar dövlətləri | Formativ | 2 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | 1 |
| 5. | 1.1.1., 2.1.1. | Sasani dövləti. Qafqaz | Formativ | 1 |
| 6. | 2.1.2., 4.1.1., 4.1.2. | Ərəb xilafəti | Formativ | 1 |
| 7. | 1.1.2., 2.1.1., 4.1.1., 4.1.2. | Samani, Oğuz, Qaraxanlı və Qəznəli dövlətləri | Formativ | 2 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | 1 |
| 8. | 3.1.1. | Frank dövləti | Formativ | 1 |
| 9. | 3.1.1. | Bizans. Slavyanlar | Formativ | 1 |
| 10. | 5.1.1., 5.1.2. | Mədəniyyət | Formativ | 1 |
| | | **II bölmə: Dünya ölkələri XI–XVI əsrlərdə** | | |
| 11. | 1.1.1., 4.1.1., 4.1.2. | Böyük Səlcuq dövləti | Formativ | 1 |
| 12. | 1.1.3., 2.1.2. 3.1.1., 3.1.2. | Böyük Monqol imperiyası. Qızıl Ordu. Moskva knyazlığı | Formativ | 2 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | 1 |
| 13. | 2.1.1., 3.1.2. | Dehli sultanlığı. Böyük Moğol dövləti | Formativ | 1 |
| 14. | 1.1.1., 4.1.1. | Osmanlı imperiyası | Formativ | 1 |
| 15. | 1.1.3., 4.1.1., 4.1.2. | Teymuri dövləti | Formativ | 1 |
| 16 | 1.1.3., 2.1.1. | Xaçlı yürüşləri | Formativ | 1 |

Layihə

| | | | | |
|---|---|---|---|---|
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 17. | 3.1.1. | İtaliya | Formativ | 1 |
| 18. | 3.1.1., 4.1.2. | Fransa | Formativ | 1 |
| 19. | 1.1.2., 3.1.1., 3.1.2. | İngiltərə | Formativ | 1 |
| 20. | 3.1.1. | Reformasiya | Formativ | 1 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| 21. | 2.1.1., 2.1.2. | Texniki ixtiralar. Böyük coğrafi kəşflər | Formativ | 1 |
| 22. | 5.1.1., 5.1.2., 5.1.3. | Şərq xalqlarının mədəniyyəti | Formativ | 2 |
| 23. | 5.1.1., 5.1.3. | Avropa və Amerika xalqlarının mədəniyyəti | Formativ | 2 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | 1 |
| Cəmi | | | | 34 |

## Dərslərin icmalı və tövsiyələr

*Hörmətli müəllimlər, sizə təqdim edilmiş mövzuların icmalı tövsiyə xarakterlidir. Siz 7-ci sinif Ümumi tarix fənn kurikulumunun standartlarına uyğun olaraq qarşıya qoyduğunuz məqsədlərinizi mövzular vasitəsilə reallaşdıra bilərsiniz. Bu zaman siz forma və üsulların seçilməsində, eləcə də inteqrasiya imkanlarının reallaşdırılmasında sərbəstsiniz. İnteqrasiya kimi hansı dərsə hansı fənn standartının (və ya standartlarının) seçilməsində sizə metodik vəsaitin 11-ci səhifəsində verilmiş "VII sinif Ümumi tarix fənni üzrə alt standartların inteqrasiya imkanları" cədvəli kömək edə bilər.*

*Dərs üçün resursların seçilməsi birbaşa sizin dərsə yanaşmanızdan asılıdır. İstənilən resursun Azərbaycanın bütün bölgələrində eyni dərəcədə əlçatan olmadığını nəzərə alaraq dərs icmalı zamanı konkret resursların adlarını qeyd etməyi məqsədəmüvafiq saymadıq. Bununla da keçəcəyiniz dərsə uyğun olaraq resursların seçilməsini öhdənizə buraxdıq.*

*Bütün gündəlik dərslərin vaxt bölgüsü və planlaşdırılması da sizdən asılıdır. Tələblərə uyğun olaraq gündəlik planlaşdırmanın aparılması və qiymətləndirmənin həyata keçirilməsi şagirdlərin xüsusiyyətinə və metodunuza uyğunlaşmış şəkildə reallaşdırılarsa, daha səmərəli nəticə əldə oluna bilər. Təqdim olunmuş icmalların sonunda qiymətləndirmə səviyyələrinin verilməsini məqsədəuyğun hesab etsək də, bu bir tövsiyədir. Çünki sizə hazır şəkildə təqdim edilmiş səviyyələr sizin sinfinizdə keyfiyyətin düşməsinə səbəb ola bilər. Səviyyələr sinfin şagirdlərinin bacarıqlarına uyğun müəyyən edilməklə formativ qiymətləndirmə həyata keçirilə bilər.*

*Hörmətli müəllimlər, kitabın fəal dərsin quruluşu hissəsində fəal təlimdə gündəlik planlaşdırma zamanı dərsin yeddi mərhələsi ardıcıllıqla verilsə də, mövzuların icmalı zamanı bu ardıcıllığa, demək olar ki, riayət edilməmiş və çox zaman dərsin üçüncü və dördüncü mərhələləri birləşdirib məlumatın mübadiləsi ilə müzakirəsi mərhələsi kimi verilmiş, bəzən motivasiyaya, bəzən isə yaradıcı tətbiqetməyə yer ayrılmamış, dərsin yeni bir mərhələsi kimi ev tapşırığı qeyd edilmişdir. Yuxarıda qeyd edildiyi kimi, dərs, ümumilikdə, üç əsas mərhələdən – şagirdi dərsə maraqlandırma, araşdırma və nəticəçıxarma mərhələsindən ibarət olduğundan hər bir müəllim şəraitinə, sinfinin səviyyəsinə, əldə etdiyi materiala, ən əsası, seçdiyi standarta və qarşısına qoyduğu məqsədə uyğun olaraq dərsini planlaşdıra və keçə bilər.*

*Əsas odur ki, müəllim bir 45 dəqiqə ərzində seçdiyi standartı və qarşısına qoyduğu məqsədi reallaşdırsın.*

*Hörmətli müəllimlər, inanırıq ki, sizə təqdim edilmiş tövsiyələr köməyinizə çatacaq və dərslikdən istifadənizi rahatlaşdıracaqdır.*

Layihə

# 1 FEODAL MÜNASİBƏTLƏRİNİN MEYDANA GƏLMƏSİ




feod, feodal münasibətləri, təhkimli kəndli, feodal nərdivanı, senyor, biyar

**Standart:**

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim məqsədi:**

Feodal münasibətlərinin yaranmasını və inkişafını Şərqdə və Qərbdə baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, müzakirə, Venn diaqramı

**Dərsin gedişi**

**Motivasiya.** Sizə mövzu ilə bağlı motivasiya qurmağın bir neçə yolu təklif edilir. Siz təklif olunan üsullardan birini seçə, yaxud özünüz fərqli motivasiya qura bilərsiniz.

**Birinci üsul.** Azərbaycan Respublikasının Konstitusiyasının aşağıdakı maddələrini oxumaq və buna uyğun olaraq şagirdlərə suallarla müraciət etmək olar.

**Azərbaycan Respublikasının Konstitusiyası – Maddə 13. Mülkiyyət**

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

**Maddə 29. Mülkiyyət hüququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

**Şagirdlərə**

– Daşınar və daşınmaz mülkiyyət deyəndə nə başa düşürsünüz?
– Daşınmaz əmlaka uyğun hansı nümunələr sadalaya bilərsiniz?
– Sizcə, torpaq mülkiyyəti qədim dövrlərdə də olubmu?
– Sizcə, torpaq mülkiyyəti formaları necə dəyişə bilərdi? kimi suallarla müraciət etmək olar.

Layihə

**İkinci üsul.** Lövhədə feodal nərdivanının şəkli çəkilə və buna uyğun olaraq şagirdlərə suallarla müraciət edilə bilər.

Şagirdlərin diqqəti 6-cı sinifdə öyrəndikləri qədim Roma dövlətinin dağılması mövzusuna yönəldilərək onlara quldarlıq quruluşunun dağılması səbəbləri ilə bağlı suallar vermək olar.

Suallara verilən cavablardan əldə edilən fərziyyələri lazımi istiqamətə yönəldib dərsin motivasiyası reallaşdırıla bilər. Bunun ardınca tədqiqat sualını elan edin.

**Tədqiqat sualı: Feodal münasibətləri necə yarandı və inkişaf etdi?**

**Tədqiqatın aparılması**

Tədqiqatın kiçik qruplarla və müzakirə üsulundan istifadə etməklə aparılması tövsiyə edilir. Tədqiqat aparmaq üçün qruplara aşağıdakı tapşırıqları vermək olar:

**I qrup.** Şərq feodalizmini Qərb feodalizmi ilə əlaqələndirin.
**II qrup.** Qərb feodalizmini Şərq feodalizmi ilə əlaqələndirin.
**III qrup.** Feodal asılılığının formalarını feodalizmlə əlaqələndirin.
**IV qrup.** Feodalizmin inkişaf mərhələlərini dövrlə əlaqələndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi**

Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi həyata keçirilir. Bu mərhələdə şagirdlərə cavabları hazırlayıb təqdim etmələri üçün müəyyən vaxt verilir. Təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və lazım gəldikdə əlavələr edilir. Əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qruplar qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması**

Dərsi ümumiləşdirib nəticə çıxarmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– Dövlət feodalizmi nədir?
– Feodalizm dövründə torpağın hansı mülkiyyət formaları var?
– "Feodal nərdivanı"nın əsas xüsusiyyəti nə idi?
– Natural təsərrüfatla quldar təsərrüfat arasında hansı fərqi görürsünüz?
– Kəndlilərin feodal qarşısında hansı öhdəlikləri var idi?
– Feodalizm quruluşunun hansı inkişaf mərhələləri vardır?

**Yaradıcı tətbiqetmə**

Venn diaqramında Şərq feodalizmi ilə Qərb feodalizminin oxşar və fərqli cəhətlərini müqayisə edin.

**Qiymətləndirmə meyarı: əlaqələndirmə**

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində meyarlar əsasında baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyarın tələblərinə cavab verdiyini dəqiqləşdirə bilərsiniz.

Layihə

# 2 XALQLARIN BÖYÜK KÖÇÜ. AVROPA HUN VƏ AĞ HUN DÖVLƏTLƏRİ




köç, hunlar, Attila, Katalaun, Eftalitlər

**Standartlar:**

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun  Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

**Təlim məqsədləri:**

1. Avropa Hun və Ağ Hun dövlətləri ilə bağlı tarixi faktları xronoloji qaydada sistemləşdirir.
2. Avropa Hun dövlətinin inkişafında Attilanın rolunu izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, zaman oxu ilə iş, bir dəqiqə

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün bir neçə üsul təklif etmək olar:

**Birinci üsul.** Şagirdlərin VI sinifdə əldə etdikləri biliklərdən istifadə etmək mümkündür. Bu məqsədlə şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– Qərbi Roma dövlətinin süqutunun səbəbləri nə idi?

– Hansı barbar tayfalarını tanıyırsınız?

– Barbar tayfalarının Şərqdən Qərbə köç etməsinin səbəbləri hansılardır?

– Sizcə, köçəri maldarlıqla məşğul olan və Şərqdə yaşayan ən güclü tayfalar kimlər ola bilərdi?

**İkinci üsul.** "Attila" filmindən bir kadr nümayiş etdirilir və şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– Nümayiş etdirilən kadrlardan sizə nə aydın olur?

– Sizcə, gördüyünüz kadrlar kimlərə (hansı xalqlara) aiddir?

– Hansı türk xalqlarını tanıyırsınız?

Türk xalqları, qorxubilməz, cəngavər, at çapmaqda, ox atmaqda mahir olan xalqlarla bağlı cavablar veriləndən sonra şagirdlərin diqqəti türkdilli xalqlardan olan hunlara yönəldilir. Daha sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Tarixi hadisələrin sistemləşdirilməsinin əhəmiyyəti nədir?**

**Tədqiqatın aparılması**

Ləvinə

Dərsin kiçik qruplarla iş formasından istifadə edilməklə qurulması məqsədəmüvafiqdir. Hər qrupa iş vərəqləri paylanılır. Zaman oxu üsulundan istifadə edilməklə işin təşkili Ümumi tarix fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli yollardan biridir. Qruplara verilən tapşırıqlar aşağıdakı formada ola bilər:

**I qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

1. Attilanın hakimiyyətinin başlanması;
2. Sasanilər üzərində qazanılan qələbədən sonra Ağ Hunların Mərv yolu üzərində yerləşən Heratı tabe etməsi;
3. Avropa Hun dövlətinin süquta uğraması;
4. Bizansla Konstans müqaviləsinin bağlanması;
5. Ağ Hun dövlətinin yaranması.

**2. Verilmiş hadisələr arasında neçə il fərq var?**

a) Attilanın hakimiyyətinin başlanması;
b) Ağ Hun dövlətinin süqutu;
c) Qərbi Hunların Roma şəhərinə qədər irəliləməsi;
d) Sasanilər üzərində qazanılan qələbədən sonra Ağ Hunların Mərv yolu üzərində yerləşən Heratı tabe etməsi.

**II qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

1. Ağ Hun dövlətinin süqutu;
2. Qərbi Hunların Roma şəhərinə qədər irəliləməsi;
3. Xalqların böyük köçünün başlanması;
4. Katalaun çölündə Aetsin başçılıq etdiyi Roma ordusu ilə Attila ordusunun qarşılaşması;
5. Ağ Hun imperiyasının ən qüdrətli dövrünün başlanması.

**2. Verilmiş hadisələr arasında neçə il fərq var?**

a) Avropa Hun dövlətinin süquta uğraması;
b) Katalaun çölündə Aetsin başçılıq etdiyi Roma ordusu ilə Attila ordusunun qarşılaşması;
c) Bizansla Konstans müqaviləsinin bağlanması;
d) Ağ Hun imperiyasının ən qüdrətli dövrünün başlanması.

**III qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

1. Qərbi Hunların Roma şəhərinə qədər irəliləməsi;
2. Sasanilər üzərində qazanılan qələbədən sonra Ağ Hunların Mərv yolu üzərində yerləşən Heratı tabe etməsi;
3. Katalaun çölündə Aetsin başçılıq etdiyi Roma ordusu ilə Attila ordusunun qarşılaşması;
4. Bizansın Attilaya böyük məbləğdə illik bac verməyə razılaşması;
5. Attilanın hakimiyyətinin sonu.

**2. Verilmiş hadisələr arasında neçə il fərq var?**

1. Qərbi Hunların Roma şəhərinə qədər irəliləməsi;
2. Bizansla Konstans müqaviləsinin bağlanması;
3. Ağ Hun imperiyasının ən qüdrətli dövrünün başlanması;
4. Attilanın hakimiyyətinin sonu.

**IV qrup**

Layihə

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

1. Ağ Hun dövlətinin süqutu;
2. Avropa Hun dövlətinin süquta uğraması;
3. Xalqların böyük köçünün başlanması;
4. Bizansla Konstans müqaviləsinin bağlanması;
5. Attilanın hakimiyyətinin sonu.

**2. Verilmiş hadisələr arasında neçə il fərq var?**

a) Bizansın Attilaya böyük məbləğdə illik bac verməyə razılaşması;
b) Attilanın hakimiyyətinin sonu;
c) Ağ Hun dövlətinin yaranması;
d) Bizansla Konstans müqaviləsinin bağlanması.

Zaman oxu ilə işin təşkili dərs üsulu ilə iş bitdikdən sonra "Avropa Hun dövlətinin inkişafında Attilanın rolunu izah edir" təlim məqsədini reallaşdırmaq üçün bir dəqiqə üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə bu üsulun qaydaları xatırladılır (Sizə bir sual və ya bir cümlə bildiriləcək. Siz də, öz növbənizdə, səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiniz.) bilər. Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı. Sual və tapşırıqların əvvəlcədən qiymətləndirilməsi planlaşdırılan şagirdlərə verilməsi məqsədəmüvafiq olardı.

- Attila ilə Bizans arasındakı münasibətləri şərh edin.
- Katalaun döyüşünü təsvir edin.
- Attilanın Qərbi Roma imperiyası üzərində üstünlük əldə etməsini əsaslandırın.
- Nəyə əsasən Attilanın qüdrətli hökmdar olduğunu söyləmək olar?
- Konstans müqaviləsindən sonra Attilanın Bizans üzərinə hücumunun səbəbləri nə idi?

**Qeyd.** Hörmətli müəllimlər, yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə, siz özünüz əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki, tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir. Müzakirələr zamanı bütün sinif şagirdlərinin fəallığının təmin olunması vacibdir. Şagirdlərin müzakirələrdə fəal iştirakı sizə nəticələrin alınmasında yardımçı olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərə verilən yönləndirici suallar vasitəsilə ümumiləşdirilmə aparıla bilər. Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olacaqdır. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü müəllimlər aşağıdakı suallardan da istifadə edə bilər:

- Tarixi hadisələri xronoloji qaydada sistemləşdirmək üçün nə etmək lazımdır?
- Sizcə, mühüm tarixi hadisələri xronoloji ardıcıllıqla yadda saxlamaq, yaxud hər bir hadisənin baş verdiyi tarixi yadda saxlamaq yaxşıdır?
- Xalqların böyük köçü ifadəsini necə başa düşürsünüz?
- Bizans nə üçün hunları zəiflətmək istəyirdi?
- Sizcə, Ağ Hun imperiyasının ərazilərinin genişlənməsi ilə idarəetmədə niyə çətinliklər yaranırdı?

**Qiymətləndirmə meyarları:** sistemləşdirmə, rolunu izahetmə

Layihə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, müxtəlif suallar verməklə də müəllim təlim prosesində izləmiş olduğu şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilər.

Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə də qiymətləndirilməlidir.

# 3 GÖYTÜRK VƏ UYĞUR XAQANLIQLARI

Aşina nəsli, Bumın, Çinlə mübarizə, Kür Şad, İltəris




**Standartlar:**

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədləri:**

1. Göytürk və Uyğur xaqanlıqlarında baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
2. Göytürk və Uyğur xaqanlıqlarının yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim formaları:** böyük qruplarla vəfərdi iş

**Təlim üsulları:** anlayışın çıxarılması, auksion, afişaların yaradılması

**Dərsin gedişi**

**Motivasiya. Birinci üsul.** Dərsi qurmaq üçün anlayışın çıxarılması üsulundan istifadə edilə bilər. Bu məqsədlə lövhədə bir dairə




**Nümunə**

Layihə

çəkilir, ortasına sual işarəsi qoyulur. Dairənin ətrafında izahlar və ya suallar yazılır. Saat əqrəbi istiqamətində səsləndirilən izah və suallardan sonra mərkəzdəki sualın cavabı şagirdlərə bildirilə bilər.

**İkinci üsul.** Motivasiya qurmaq üçün şagirdlərə türklərin tarixindən bəhs edən filmlərdən (döyüş səhnəsi göstərilməsi daha yaxşı olar) bir hissə göstərmək, daha sonra suallar verməklə yeni dərsin motivasiyasını qurmaq olar.

– Nümayiş etdirilən kadrlar sizdə hansı təəssüratları oyatdı?
– Gördüyünüz kadrlara əsaslanmaqla bu döyüşkən xalqlar haqqında hansı fikri yürüdə bilərsiniz?
– Sizcə, orta əsrlərdə ən çox qüdrətli dövləti hansı xalqlar yarada bilərdi?

Cavabları dinləyəndən sonra ümumiləşdirmə aparıb şagirdlərin diqqətini türk xalqlarına yönəldərək dərsə motivə etmək olar.

Filmdən bir parça göstərmək, çətinlik olarsa, "PowerPoint" proqramı vasitəsilə slaydlar hazırlamaq və buna uyğun suallar tərtib etməklə mövcud dərs üçün motivasiya qurmaq olar.

**? Tədqiqat sualı: Sakit okeandan Xəzər dənizinədək olan əraziləri əhatə edən dövlət necə quruldu?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra auksion üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, onlara bu dərs üsulunun qaydaları xatırladılır (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual veriləcək. 1, 2, 3 sayanadək sualı cavablandıra bilməsəniz, cavab vermək şansı digər sinif yoldaşınıza keçir)

Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər ayrılır, qeydlər aparmaq üçün bir şagirdə tapşırıq verilir. Sıradakı birinci şagirdə sual verilir. Müəyyən edilmiş vaxtda sual cavablandırılmazsa, həmin sual ikinci şagirdə verilir. Sual-cavab bu qayda ilə davam etdirilir.

**Qeyd.** Əslində, bu üsul auksion üsulunun bir az təcrübədə sınanılmış, "improvizə" edilmiş formasıdır. Şagirdlərə daha maraqlı olması üçün hazırlanan suallar qeyd dəftərində nömrələnə və hər sualın nömrəsi də lövhədə yazıla bilər. Proses zamanı şagirdlərin müstəqil şəkildə hər hansı nömrəni seçməsinə şərait yaradın. Bir mövzudan bəhs edən suallar dərslikdəki məlumata uyğun olaraq qarışıq olmalıdır. Yəni xronoloji və ya məzmun ardıcıllığı gözlənilməməlidir. Hazırlanan və nömrələnən suallarla yanaşı, ehtiyat üçün 3-5 nömrələnməmiş sualın olması daha yaxşı olardı. Şagirdlər nömrələri seçdikcə lövhədən həmin rəqəm silinir. Hər bir şagirdə 3 və ya 4 sualın cavablandırılmasına şərait yaradılır. İlk şagird ona verilən sualları "açıb" onları cavablandırdıqdan sonra yerinə oturur və onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hansı şagirdin neçə suala düzgün cavab verməsini lövhə qarşısındakı şagird qeyd edir. Lövhədə aparılan bu qeydlərin bütün şagirdlərin görməsi onlara əlavə stimul verir. Təcrübə göstərir ki, bəzən improvizə edilmiş bir üsul daha yaxşı effekt verir.

Bu üsulun tətbiqi zamanı aşağıdakı suallardan və düzülüş formasından istifadə etmək olar:

1. Kür Şadın başçılığı ilə üsyan nə vaxt olmuşdu?
2. Bumın xaqan kim idi?
3. Uyğur dövlətinin paytaxtı hara idi?
4. Göytürk dövləti nə vaxt yaradıldı?
5. Avropalılardan əvvəl hansı türk tayfaları kağız istehsal etməyi bacardı?
6. Göytürk dövlətini kim yaratdı?
7. II Göytürk dövləti kimin dövründə öz qüdrətli çağlarını yaşadı?
8. Nə üçün göytürklər dövləti iki hissəyə ayırmışdılar?

Layihə

9. Talas vadisindəki döyüşün uyğurlar üçün xeyri nə oldu?
10. II Göytürk dövlətinə nə vaxt son qoyuldu?
11. Göytürklərlə sasanilər arasında müharibəyə səbəb nə oldu?
12. Maniçiliyin uyğurlar arasında yayılması onlara necə təsir göstərdi?
13. Jujuanlara sığınmış və dəmirçiliklə məşğul olanlar tarixdə hansı adla xatırlanırlar?
14. Uyğur dövlətinin varlığına kimlər son qoydu?
15. Xəzərləri özünə tabe edib Bizans üzərinə uğurlu yürüş həyata keçirən Göytürk xaqanı kim idi?
16. II Göytürk dövlətinin dağılmasına nə səbəb oldu?
17. I Göytürk dövlətinin dağılmasına nə səbəb oldu?
18. Yabqu kimə deyirdilər?
19. Moyon Çur Çin tarixində hansı rolu oynadı?
20. Göytürk dövlətinin paytaxtı hara idi?
21. Uyğur dövlətinə nə vaxt son qoyuldu?
22. Bumın xaqan hansı nəsildən idi?

**Qeyd.** Bu suallar nümunə xarakterlidir. Yuxarıda verilmiş tapşırıqlara əlavələr edilə bilər. Eyni tapşırıq (təbii ki, tam cavablandırılmayan tapşırıq) təkrarən digər şagirdə verilə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin auksion üsulu ilə tədrisi sinfin bütün diqqətini bu "bilik yarışı"na cəmlənmiş olur ki, bu da, əslində, tədqiqatın aparılması mərhələsində məlumatın mübadiləsi və müzakirəsinin yekunu deməkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müəllim suallar və ya yığcam izahlar vasitəsilə şagirdləri son nəticələrə yönəldir, tədqiqat sualına cavab tapılır. Şagirdlərə aşağıdakı suallarla müraciət etmək mümkündür:

– I Göytürk dövləti ilə sasanilər arasındakı mübarizədə göytürklər hansı nailiyyətlər əldə etdilər?
– I Göytürk dövlətinin parçalanmasının səbəbi nə idi?
– II Göytürk dövləti necə yarandı?
– Uyğur dövlətini zəiflədən səbəblər hansılar idi?

Dərsin sonunda refleksiya üçün aşağıdakı suallar da verilə bilər:

– Bu dərsdə nə öyrəndiniz?
– Hansı suallarınız var?
– Dərsdə qarşıya qoyulan hədəfə çatdınızmı?

**Ev tapşırığı:** Şagirdlərə "kağız istehsalı" adlı afişa hazırlanması tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, şərhetmə

Formativ qiymətləndirmə sizin dərsi izləməyiniz nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesini izlənmiş, diqqətdə saxlanılmış şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək olar.

Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməsi unudulmamalıdır.

Ləyihə

# 4 AVAR, XƏZƏR VƏ BULQAR DÖVLƏTLƏRİ

I saat

Bayan xaqan, Konstantinopolun mühasirəsi, franklarla mübarizə, Xəzər asayişi, Qurd xan




**Qeyd.** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 20–27-ci səhifələrini əhatə edir. Dərslik müəllifləri tərəfindən bu mövzunun tədrisi aşağıdakı qaydada təqdim olunur:

– Birinci dərs səhifə 20-dən başlayaraq səhifə 26-dakı "Böyük Bulqar dövləti" yarımbaşlığınadək olan məlumatları əhatə edir (bura istər şəkil, istər xəritə, istər mənbə tipli əlavə, maraqlı məlumatlar daxildir).
– İkinci dərs saatı 26–27-ci səhifələrdəki məlumatları əhatə edir.

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgünü müəllim öz təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilər.

**Standartlar:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Avar və Xəzər dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.
2. Avar və Xəzər dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim formaları:** kollektiv və fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, bir dəqiqə, "X-0" oyunu

**Dərsin gedişi**

**Motivasiya.** Türk, Avar və Xəzər dövlətlərindən bəhs edən mövcud dərsin əvvəlki türk dövlətləri ilə, daha doğrusu, Göytürk dövləti ilə bağlılığı çoxdur. Ona görə də müəllim tədris edəcəyi mövzu ilə bağlı uyğun motivasiya qura bilər.

Mövzunu tədris etmək üçün əvvəlki dərsdən çıxış edərək yenisinə giriş etmək olar. Şagirdlərə verilən qısa əlaqələndirici məlumatlarla köhnə dərslə yeni dərs arasında rabitə yaratdıqdan sonra tədqiqat sualı elan edilir.

Layihə

**Tədqiqat sualı: Avropada yeni türk dövlətləri necə yaranıb inkişaf etdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat aparmaq üçün bir dəqiqə üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir. Şagirdlərə üsulun qaydaları xatırladıla bilər. Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı:

- Asiya Avar dövləti haqqında nə bilirsiniz?
- Avropa Avar dövləti necə quruldu?
- Avar-Frank münasibətlərini şərh edin.
- Avar-Bizans münasibətlərini şərh edin.
- Avar-slavyan münasibətlərini şərh edin.
- Avar-alman münasibətlərini şərh edin.
- Macarıstan krallığının qurulmasını şərh edin.
- Xəzər xaqanlığının yaranmasını təsvir edin.
- Xəzər xaqanlığının dövlət idarəçiliyinin izahını verin.
- Xəzər xaqanlığının şəhər həyatını şərh edin.
- Xəzər xaqanlığının sosial-iqtisadi münasibətlərini şərh edin.
- Xəzər-ərəb münasibətlərini şərh edin.
- Xəzər xaqanlığının süqutunu şərh edin.

**Qeyd.** Bu tapşırıqlar azlıq təşkil edərsə, əlavə tapşırıqlar hazırlana və ya eyni tapşırıq təkrarən digər şagirdə verilə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlərə əlavə sual və tapşırıqlar verilə bilər. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeyd edilir. Səslənmiş fikirlər müzakirə edildikdən sonra dərsin bu mərhələsi yekunlaşdırılır. Dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş olan suallar əvvəlcədən hazırlanmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici suallarla müraciət edilə bilər:

- Konstantinopolun ələ keçirilə bilməməsinin avarlara hansı təsiri oldu?
- Avarların uğurlarının səbəbləri nə idi?
- "Xəzər asayişi dövrü" nə deməkdir?
- Xəzərləri "Şərqi Avropanın müdafiəçiləri" adlandırmaq olarmı?

Dərsin gedişində, həm də ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Avar və Xəzər dövlətlərinin yaranması, idarəçilik formaları, sosial-iqtisadi və siyasi münasibətləri şərh etməyi bacaracaqlar.

**Yaradıcı tətbiqetmə.** Bu zaman şagirdlərə hər birimizin uşaqlıqda oynadığımız "X-0" oyununu xatırladan bir üsul təklif edilə bilər. Bunun üçün, ilk növbədə, şagirdlərə nümunədə göstərilən bir vərəq paylamaq vacibdir.

**Nümunə 1**

| | | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 4 | 5 | 6 |
| 7 | 8 | 9 |

Layihə

Müəllim vərəqləri şagirdlərə payladıqdan sonra onlara bir cümlə səsləndirəcəyini bildirir və tapşırığı izah edir. Şagirdlər cümlədəki fikrin doğru olduğunu düşündüklərində cədvəlin birinci xanasına "0"; cümlədəki fikri səhv hesab etdikdə birinci xanaya "x" işarəsi çəkir. Beləliklə, müəllim şagirdlərə 9 cümlə səsləndirir, hər cümlədən sonra şagirdlərin cədvəldə müvafiq qeydlər etmələrini tapşırır. Səsləndirilən cümlələrin 4-ü səhv, 5-i isə düz (və ya əksinə, buna müəllim özü qərar verməlidir) olmalıdır.

Şagirdlərə aşağıdakı cümlələri vermək olar:

1. Avar xaqanlığının paytaxtı Səməndər olmuşdur.
2. Macar krallığının qurulmasında avarlar mühüm rol oynamışdır.
3. Xəzər xaqanlığında şəhərlərdə dövlət məhkəməsi fəaliyyət göstərirdi.
4. Xəzər xaqanlığının adı bəzi mənbələrdə XV əsrə qədər çəkilmişdir.
5. Avar xaqanlığı 788-ci ildə yaranmışdır.
6. Xəzər xaqanlığının paytaxtı Bələncər olmuşdur.
7. Kiyev knyazı Xəzər xaqanlığının şəhərlərini taladı.
8. Avropa Avar dövlətinin əsasını Bayan xaqan qoydu.
9. Avar dövlətinin paytaxtını Knyaz Svyatoslav ələ keçirdi.

Bu cümlələr şagirdlər tərəfindən doğru xanalara yerləşdirilsə, cədvəliniz belə olacaqdır:

| | | |
|---|---|---|
| 1 X | 2 0 | 3 0 |
| 4 X | 5 X | 6 0 |
| 7 0 | 8 0 | 9 X |

Nümunə 2

**Ev tapşırığı.** Avar və Xəzər dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və ya diaqramlar hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** şərhetmə, cədvəl hazırlama.

Şagirdlərin formativ qiymətləndirilməsi göstərilən meyarlar əsasında həyata keçirilir. Formativ qiymətləndirilməni müxtəlif vasitələrdən istifadə etməklə də hazırlamaq olar.

# 4 AVAR, XƏZƏR VƏ BULQAR DÖVLƏTLƏRİ

II saat

**Standart:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədi:**

Bulqar dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

Layihə

**Təlim formaları:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş

**Dərsin gedişi**

**Motivasiya.** Müəllim mövzu ilə bağlı motivasiyanı qurmaqda sərbəstdir. Motivasiya qurmaq üçün "Dövlətin idarə edilməsi dedikdə nə başa düşürsünüz?", "Siyasi münasibətlər necə inkişaf edə bilər?" kimi suallardan istifadə etmək olar.

**Tədqiqat sualı: Bulqar dövlətlərinin yaranması və siyasi münasibətlərinin inkişafı necə baş verdi?**

**Tədqiqat kiçik qruplarla aparılır.** Mətn üzərində iş üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Şagirdlər onlara təqdim edilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları və ya müəllimin məsləhət bildiyi tapşırıqları vermək olar.

**I qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etmək məqsədəmüvafiqdir.).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Bulqarlar Erkən Orta əsrlərdə çox geniş ərazilərdə: Volqaboyunda, Qafqazda, Ön Asiyada və Şərqi Avropada məskunlaşmışdı. "Bulqar" sözünün mənası ____________________ deməkdir. ____________ ölümündən sonra hunların bir hissəsi Azov və Xəzər dənizləri arasında daha əvvəllər yaşayan bulqarlarla qarışdı. Bulqarlar dəfələrlə ölkələrinə soxulmuş slavyanların hücumlarını qətiyyətlə dəf etmiş, monqolların birinci yürüşü zamanı onları geri oturtmuşdular. ________ ildə monqollar Volqa bulqarlarını məğlub etdilər. Volqa Bulqarıstanı yeni qurulmuş monqol dövlətinin – Qızıl Ordunun təkibinə qatıldı. Volqa bulqarları bu dövlətin çiçəklənməsində və Qızıl Ordu hökmdarı Bərkə xanın __________qəbul etməsində mühüm rol oynadılar. IX əsrin əvvəllərində hakimiyyətə gələn ____________ Bizans üçün daha qorxulu idi. _______________ ikinci dəfə türklər tərəfindən mühasirəyə alındı. Lakin Krum xan Bizans casusu tərəfindən zəhərləndiyindən bulqarlar şəhəri ələ keçirə bilmədi. Ondan sonra hakimiyyətə gələn Omurtağ xan öz sələfləri kimi bulqarların slavyan qadınları ilə evlənməsi ilə yanaşı, xristianlığın da yayılmasına qarşı çıxırdı. O hətta böyük oğlunu xristianlığı qəbul etdiyinə görə varislikdən məhrum etmişdi.

**II qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Bir müddət Avar xaqanlığı tərkibində olan bulqarlar ________ ildə Qurd xanın başçılığı altında Böyük Bulqar dövlətini qurdular. Az sonra bu dövlətin qonşuluğunda Göytürk xaqanlığının varisi olan Xəzər dövləti yarandı. Qurd xanın ölümündən sonra bulqarların bir qismi Xəzər xaqanlığına tabe oldu. Keçmiş torpaqlarında – Azov dənizi ilə Xəzər dənizi arasındakı ərazilərdə yaşamağa davam edən bulqarlara ____________ deyilirdi. Qotraq xan __________________ yaşayan qohum bələncər, barsil, savir və esegel tayfaları ilə birlikdə müstəqil Türk dövlətinin əsasını

Layihə

qoydu. Sonralar qohum Oğuz, Qıpçaq və Peçeneq tayfalarının bir qismi də Volqa Bulqarıstanının hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı əvvəlcə __________, sonra isə Bilər şəhərləri oldu. 922-ci ildə Qotraq xanın varisi Almış xan İslam dinini qəbul etdi. Börü xanın dövründən başlayaraq Dunay Bulqarıstanı zəifləməyə və Bizansın təsiri altına düşməyə başladı. Onun dövründə nəinki slavyanlarla evlənməyə icazə verildi, həm də 865-ci ildə _______________ Dunay Bulqarıstanın rəsmi dövlət dini elan edildi. Börü xan Boris adını aldı. Lakin türk-bulqar əyanları buna qarşı çıxır, tanrıçılıq dinini qorumağa çalışırdılar. Sonralar Dunay Bulqarıstanında olmuş xristian rahiblər bulqar türkləri içərisində hələ də Tanrıçılıq dininin və ____________ inancının qalmasını xüsusi qeyd edirdilər.

**III qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun. (Bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı.).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Qurd xanın oğlu __________ xan şimala doğru gedərək Volqa, Don, Kama sahillərində müstəqil bir dövlət yaratdı. Onun tərkibində 7 türk eli birləşdiyindən Volqa çayı və onun ətrafına Yeddi el (İdil) deyilirdi. Bu dövlətin əhalisi _______________ adlanırdı. Qurd xanın digər oğlu Asparux (Esperi qədim türk dilində "şahin" deməkdir) xan, əsasən, On oğuzlardan ibarət ordusu ilə Dunay sahillərinə doğru hərəkət etdi. Bulqarlar dəfələrlə ölkələrinə soxulmuş slavyanların hücumlarını qətiyyətlə dəf etmiş, monqolların birinci yürüşü zamanı onları geri oturtmuşdular. ___________ ildə monqollar Volqa bulqarlarını məğlub etdilər. Volqa Bulqarıstanı yeni qurulmuş monqol dövlətinin – Qızıl Ordunun təkibinə qatıldı. Volqa bulqarları bu dövlətin çiçəklənməsində və Qızıl Ordu hökmdarı ___________ İslam dinini qəbul etməsində mühüm rol oynadılar. 679-cu ildə Dunay sahillərinə gələn Asparux xan çayı keçərək ___________ordusunu darmadağın etdi. Bölgədə məskunlaşmış slavyan tayfaları Asparux xanın hakimiyyətini qəbul etdi. Bizans imperatorları bulqarlara xərac verməyə məcbur oldu. Asparux xan azsaylı bulqarların çoxsaylı slavyanlarla qarışmalarının qarşısını almaq məqsədilə onların ___________ nikaha girmələrini qadağan etdi.

**IV qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (Bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Bulqarların bir hissəsi Macarıstan ərazisində möhkəmlənə bilməyərək ________________ ərazisinə köçüb burada yurd saldı. Yerdə qalan bulqarlar ____________ mərkəzində yurd salaraq xristianlığı qəbul etdilər. Hələ də İtaliyada bulqarların adını daşıyan kilsənin olması bununla bağlıdır. Gördüyünüz kimi, Qurd xandan sonra onun oğlanları: Qotraq xan və Asparux xan müstəqil dövlətlər qura bildilər. Qotraq xan _______________ yaşayan qohum bələncər, barsil, savir və esegel tayfaları ilə birlikdə müstəqil Türk dövlətinin əsasını qoydu. Sonralar qohum Oğuz, Qıpçaq və Peçeneq tayfalarının bir qismi də Volqa Bulqarıstanının hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı əvvəlcə Bulqar, sonra isə Bilər şəhərləri oldu. _________ ildə Qotraq xanın varisi Almış xan İslam dinini qəbul etdi. 679-cu ildə __________ sahillərinə gələn Asparux xan çayı keçərək Bizans ordusunu darmadağın etdi. Bölgədə məskunlaşmış slavyan tayfaları Asparux xanın hakimiyyətini qəbul etdi. _________________ bulqarlara xərac verməyə məcbur oldu. Asparux xan azsaylı bulqarların çoxsaylı slavyanlarla qarışmalarının qarşısını almaq məqsədilə onların slavyanlarla nikaha girmələrini qadağan etdi.

Layihə

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara tədqiqat aparmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər mətn üzərində işləyən zaman qrupların gəldikləri nəticələrlə, məlumatlarla, hissələrə bölünmüş mətnə verilən adlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:
- Dövlət qurmazdan öncə bulqarlar hansı dövlətin tərkibində idilər?
- Volqa çayının Yeddi el (İdil) adlandırılmasının səbəbi nə idi?
- Volqa bulqarları hansı dövlətin çiçəklənməsində mühüm rol oynamışdılar?
- Krum xanın Konstantinopolu ələ keçirə bilməməsinin səbəbi nə idi?
- Omurtaq xanın böyük oğlunu varislikdən məhrum etməsinin səbəbi nə idi?

**Yaradıcı tətbiqetmə.** Bulqarların həyatında baş vermiş mühüm hadisələrin xronoloji çərçivələrini müəyyən etmək üçün cədvəldən istifadə etmək olar.

**Qiymətləndirmə meyarı:** şərhetmə

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyara nəzərən dərs izlənməsi nəticəsində həyata keçirilməlidir. Dərsin sonunda şagird yuxarıda verilmiş meyar nəzərə alınmaqla qiymətləndirilə bilər.

# 5 SASANİ DÖVLƏTİ. QAFQAZ

Ərdəşir, Zərdüştilik, Manilik, Məzdək, I Xosrov




**Standartlar:**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Bizans-Sasani, Ağ Hun-Sasani qarşıdurmalarını davametmə müddətinə görə fərqləndirir.

2. Sasani dövlətində və Cənubi Qafqazda feodal münasibətlərinin yaranmasını və inkişafını əlaqələndirir.

Layihə

**Təlim formaları:** kollektiv və fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, mikrofon, T üsulu

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdlər Azərbaycan tarixindən bu mövzu ilə tanış olduqlarına görə onları mövcud dərsə motivə etmək elə də çətin olmayacaq. Müəllim Albaniya və Girdiman dövlətləri, Xəzər-Sasani və Sasani-Ərəb qarşıdurmaları kimi məsələlərə əsaslanmaqla beyin həmləsi üsulu ilə dərsə motivasiya qura bilər. Məsələn:

- Erkən Orta əsrlərdə Azərbaycanda hansı dövlət var idi?
- Bu dövlət müstəqil idimi?
- Azərbaycanda feodal münasibətlərinin yaranması hansı dövlətdə feodal münasibətlərin yaranması ilə paralel şəkildə getmişdir? Niyə?

Şagirdlərin cavabları ümumiləşdirildikdən sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Sasani dövlətində və Cənubi Qafqazda feodal münasibətləri necə yarandı və inkişaf etdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün mikrofon üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, üsulun qaydaları xatırladılır (Şagirdlər verilən sualı 0,5-1 dəqiqə ərzində cavablandırmaq üçün onlara şərti "mikrofon" (qələm, karandaş və s.) verilir. Şagirdlərə aşağıdakı sual və tapşırıqları vermək olar:

- I Ərdəşir kimdir?
- Bizans-Sasani qarşıdurmasını şərh edin.
- Ağ Hun-Sasani qarşıdurmasını şərh edin.
- Bizans-Sasani, Ağ Hun-Sasani qarşıdurmalarını fərqləndirin.
- Maqlar maqının fəaliyyətini izah edin.
- Mani təlimini şərh edin.
- Məzdəki təlimini şərh edin.
- Mani və Məzdəki təlimlərini fərqləndirin.
- Sasani dövləti ilə Parfiya dövlətinin süqutunu fərqləndirin.
- VII–IX əsrlər Qafqaz tarixini işıqlandırın.
- Qafqazda ərəblərin hakimiyyətinə son qoyulmasından sonrakı dövrü təsvir edin.

İlk suala hazır olan şagirdə verilən "mikrofon"un növbə ilə digər şagirdə ötürülməsinə nəzarət edilməlidir. Dərsin bu mərhələsində cavablar şərh edilmir və şagirdlər qiymətləndirilmir. Çünki bu, şagirdlərdə səhv etmək, səhv danışmaq qorxusu yarada bilər və dərsdə onların fəallığını aşağı sala bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin tədqiqatın aparılması mərhələsi bitəndən, şagirdlər çıxışlarını yekunlaşdırandan dərsin növbəti mərhələsinə keçid edilə bilər. Bu zaman şagirdlərdən əlavə fikirlər alaraq onların da müzakirədə iştirakına şərait yaratmaq yaxşı olardı.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsi başa çatdıqdan sonra ümumiləşdirmələr aparılır və şagirdlərə suallarla müraciət edilir.

- Sizcə, Sasani dövlətində və Cənubi Qafqazda feodal münasibətlərinin oxşar şəkildə yaranıb inkişaf etməsinə səbəb nə idi?
- Mani və Məzdəki təlimləri arasında hansı oxşarlıqlar var idi?
- Sasani-Roma müharibələrindən ən çox hansı ərazilər zərər çəkirdi?
- Sizcə, ilk dəfə Kartli adının X yüzillikdə çəkilməsinin səbəbi nədir?

Layihə

– Sizcə, nəyə görə Qafqaz uğrunda mübarizə aparan sasanilər və Roma dövləti bu ərazidə öz dinlərini yaymağa çalışırdılar?

**Yaradıcı tətbiqetmə.** T üsulunun köməyi ilə şagirdlərin hadisələrə yaradıcı yanaşmalarına şərait yaradılır. Bunun üçün lövhədə "T" hərfi çəkilir və bu hərfin sağ tərəfinə "+", sol tərəfinə isə "-" işarəsi qeyd edilir. Sonra isə şagirdlərə Məzdəki təliminin mənfi və müsbət cəhətlərini "T" hərfinin müvafiq tərəflərinə yazmaları tapşırılır.

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, əlaqələndirmə

Şagirdlər meyarlara uyğun olaraq cədvəldəki səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin sonunda vaxt qalarsa, refleksiya üçün aşağıdakı suallar verilə bilər:

– Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
– Dərsdə informasiya əldəetmənin hansı yeni metodunu öyrəndiniz?
– Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
– Sizə nə aydın olmadı? və s.

# 6 ƏRƏB XİLAFƏTİ




Ərəb xilafəti, İslam dini, Məhəmməd peyğəmbər, "Qurani-Kərim"

**Standartlar:**

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Ərəblərin həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

2. Ərəb dövlətinin və mədəniyyətinin inkişafında Məhəmməd peyğəmbərin rolunu izah edir.

3. Ərəb dövlətinin və mədəniyyətinin inkişafında Məhəmməd peyğəmbərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

Layihə

**Təlim formaları:** böyük qruplarla iş, cütlərlə iş
**Təlim üsulları:** beyin həmləsi, müzakirə

**Dərsin gedişi**

**Motivasiya.** Mövzu ilə bağlı dərs qurmaq üçün motivasiya qurmağın bir neçə üsulunu təklif edilə bilər.

**Birinci üsul.** https://youtu.be/qb3ouhj6PYA ünvanında verilmiş videonu şagirdlərə göstərib onlara aşağıdakı suallarla müraciət edilə bilər:

– Gördüyünüz kadrlardan sizə nə aydın oldu?
– Sizcə, bu gün keçəcəyimiz dərs nəyə aid ola bilər?

Şagirdlərə verdiyiniz suallara aldığınız cavabları ümumiləşdirib lazımi məcraya yönəldərək tədqiqat sualı elan edilə bilər.

**İkinci üsul.** Xalq artisti, dövlət mükafatı laureatı Alim Qasımovun IV İslam Həmrəyliyi Oyunlarının açılışı mərasimində oxuduğu (https://youtu.be/LQ1Da6gERk) azanı səsləndirə bilərsiniz. Azanı səsləndirdikdən sonra şagirdlərə aşağıdakı suallar verilə bilər:

– Sizin eşitdiyiniz nədir?
– Azan haqqında nə bilirsiniz?
– Sizcə, nəyə görə bu dərsin əvvəlində sizlərə azan səsləndirdim?

**Üçüncü üsul.** Mövcud dərsə motivasiya qurmağın ən asan yolu lövhədə *Ərəbistan, Allah, din, peyğəmbər, Qurani-Kərim* kimi açar sözləri yazıb əvvəlcədən hazırlanan suallarla şagirdlərə müraciət etmək olar.

**Tədqiqat sualı: Ərəb dövlətinin və mədəniyyətinin inkişafında Məhəmməd peyğəmbərin hansı rolu olmuşdur?**

**Tədqiqatın aparılması:** Tədqiqatın cütlərlə iş formasında aparılmasını tövsiyə edirik. Bu zaman fəal təlimin müzakirə üsulundan istifadə edilsə, yaxşı olardı. Cütlərə tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər. Əgər sinifdə şagirdlərin sayı çoxdursa, onda hər hansı iş vərəqini və ya vərəqlərini təkrarən cütlərə vermək olar. Bu sonda həm sizin işinizi yüngülləşdirər, həm də eyni problemin həllinə müxtəlif yanaşma formasının meydana gəlməsinə şərait yaradar.

**I cüt.** Dövlət yaradana qədər ərəblər necə yaşayırdılar?
**II cüt.** Ərəblər içərisində müxtəlif dinlərin yayılmasının səbəbi nə idi?
**III cüt.** İslam dini necə yarandı?
**IV cüt**. İslam dininin yaradılması yolunda Məhəmməd peyğəmbərin rolunu izah edin.
**V cüt.** Ərəb dövlətinin yaradılmasında Məhəmməd peyğəmbərin rolunu izah edin.
**VI cüt.** İslam dininin təməl kitabı olan Qurani-Kərim haqqında nə bilirsiniz?
**VII cüt.** Məhəmməd peyğəmbərdən sonra Ərəb dövlətinin inkişafının izahını verin.
**VIII cüt.** Ərəb xilafətinin imperiyaya çevrilməsinin izahını verin.
**IX cüt.** Ərəb xilafətinin dövrlərə bölünməsinin izahını verin.
**X cüt.** Ərəb xilafətinin dağılması səbəbinə münasibət bildirin.
**XI cüt.** Ərəb xilafətinin sosial-iqtisadi vəziyyətini şərh edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Cütlərlə işə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra əvvəlcədən müəyyən edilən meyarlar əsasında cütlər qiymətləndirilir.

Layihə

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Cütlər öz təqdimatlarını etdikdən sonra dərsi yekunlaşdırmaq və tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

- Yeni dinin yaranmasını zəruri edən səbəblər hansılar idi?
- Sizcə, yeni dinin yaranması ərəblərin həyatında hansı rolu oynadı?
- Məhəmməd peyğəmbərin ərəblərin tarixində oynadığı rolu necə qiymətləndirərdiniz?
- Ərəb xilafətini imperiya adlandırmaq olarmı?

**Yaradıcı tətbiqetmə.** VII–IX əsrlərdə Ərəb xilafətinin siyasi həyatında baş verən dəyişiklikləri kontur xəritə əsasında təhlil edin.

Bunun üçün metodik vəsaitin sonunda verilmiş kontur xəritə şagirdlərə verilir. Onlara aşağıdakı tapşırıqları verilə bilər.

Xəritə üzərində rəngli karandaşlarla qeyd edin:

- Ərəb dövləti Məhəmməd peyğəmbərin dövründə;
- Ərəb xilafəti ilk xəlifələrin dövründə;
- Ərəb xilafəti Əməvi xəlifələri dövründə;
- Ərəb xilafətinin parçalanması.

**Ev tapşırığı.** Ərəb dövlətinin və mədəniyyətinin inkişafında Məhəmməd peyğəmbərin rolu ilə bağlı məlumatlar toplayıb təqdimatlar hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** təhliletmə, izahetmə, məlumat toplayıb təqdimat hazırlama

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində aparılmalıdır. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir. Sonuncu meyarı dərsdə reallaşdırmaq mümkün olmadığında bu meyara dair şagirdlərə ev tapşırığı verilə və təqdim ediləndən sonra şagirdlər qiymətləndirilə bilər.

Layihə

# 7 SAMANİ, OĞUZ, QARAXANLI, QƏZNƏLİ DÖVLƏTLƏRİ

I saat

Samani, Oğuz, Qaraxanlı, Qara xan, Əfrasiyab, Sultan Mahmud, Qəznə, Dəndənəkan




**Qeyd.** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 40–47-ci səhifələrini əhatə edir və aşağıdakı formada tədrisi tövsiyə olunur:

– Birinci dərs 40–45-ci səhifələrdəki materialları əhatə edir.

– İkinci dərs saatı səhifə 46-dakı "Qəznəli dövləti" yarımbaşlığından başlayıb paraqrafın sonunadək – səhifə 48-dək olan məlumatları əhatə edir.

Hər bir dərsin tədrisi zamanı müvafiq səhifələrdəki xəritə, şəkil, illüstrasiya və mənbələri diqqətdən kənarda saxlamaq olmaz. Onu da bildirək ki, mövzu üçün məsləhət görülən bölgü mütləq deyil. Bu bölgünü müəllim öz təlim strategiyasına, sinifdəki şagirdlərin bilik, bacarıq və dərketmə səviyyəsinə uyğun olaraq dəyişdirə və yeni bölgü forması yarada bilər.

**Standartlar:**

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Mərkəzi Asiyada baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
2. Samani, Oğuz və Qaraxanlı dövlətlərində feodal münasibətlərinin yaranmasını və inkişafını geosiyasi məkanda baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim forması:** böyük qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, akvarium

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün "Diriliş Ərtoğrul" filmindən istifadə edilə bilər. Ərtoğrulun dilindən onların Oğuz nəslindən olması və ya babasının Oğuz xan olması kimi ifadələrin səsləndirildiyi kadrların nümayişi daha məqsədəmüvafiqdir. Filmin nümayişindən sonra şagirdlərə suallar verilir:

– İzlədiyiniz kadrlardan sizə nə aydın oldu?

– Ərtoğrul sözləri ilə nəyi vurğulayır?

**Qeyd.** Texniki imkanlar yoxdursa, telefon vasitəsilə Ərtoğrulun dedikləri səsləndirilir və şagirdlərə suallarla müraciət edilir.

Layihə

Motivasiya qurmaq üçün metodik vəsaitin 55–56-cı səhifələrindəki 3-cü mövzu üçün qurulmuş motivasiya formalarından da istifadə etmək olar. Bu zaman suallarda müəyyən dəyişikliklər edib şagirdləri keçilən mövzuya motivə etmək olar.

Motivasiya qurmağın digər bir yolu da şagirdlərin diqqətini əvvəlki dərslərdə əldə etdikləri biliklərə yönəltmək və yeni mövzuya istiqamətləndirmək üçün müvafiq suallar vermək olar. Bunun üçün 7-ci sinif Ümumi tarix dərsliyinin 3-cü və 4-cü mövzularını əsas götürmək olar.

Şagirdlərin cavabları dinlənilir, onlar ümumiləşdirilir və tədqiqat sualı elan edilir.

**? Tədqiqat sualı: Samani, Oğuz və Qaraxanlı dövlətlərində feodal münasibətlərinin yaranması və inkişafı necə baş verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla və akvarium üsulundan istifadə edilməklə aparılması tövsiyə olunur. Akvarium üsulunda sinif iki dairəyə – iç və çöl dairələrinə bölünür. İç dairəyə müəyyən vaxt verilməklə problemin müzakirəsi tapşırılır. Sonra dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlar və suallardan istifadə edilə bilər:

– Samani dövlətində feodal münasibətlərinin yaranmasını və inkişafını geosiyasi məkanda baş verən dəyişikliklərlə əlaqələndirin.
– Oğuz dövlətində feodal münasibətlərinin yaranmasını və inkişafını geosiyasi məkanda baş verən dəyişikliklərlə əlaqələndirin.
– Qaraxanlı dövlətində feodal münasibətlərinin yaranmasını və inkişafını geosiyasi məkanda baş verən dəyişikliklərlə əlaqələndirin.
– IX–XI əsrlərdə Mərkəzi Asiyada baş vermiş ayrı-ayrı tarixi faktları vaxt etibarilə necə uyğunlaşdırmaq olar?

Akvarium üsulundan istifadə etməklə həm də dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də həyata keçirilir. Daha sonra dərsin növbəti mərhələsi həyata keçirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin sonunda əldə olunan nəticələri müəyyən edilir. Yardımçı suallar kimi aşağıdakılardan istifadə etmək olar:

– Samani dövlətini Ərəb xilafətinin dağılması nəticəsində yaradılmış dövlətlərdən hesab etmək olarmı? Fikrinizi əsaslandırın.
– Sizcə, nəyə görə Oğuz dövlətində subaşı ikinci şəxs sayılırdı?
– Türk xalqlarının İslam dinini qəbul etməsinin əhəmiyyəti nə ola bilərdi?
– IX əsrdə Mərkəzi Asiyada hansı dövlətlər mövcud idi?

**Ev tapşırığı.** İndiyə kimi öyrəndiyiniz bilgilər əsasında Samani, Oğuz və Qaraxanlı dövlətləri ilə eyni dövrdə mövcud olan dövlətlərlə bağlı cədvəl qurun.

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, əlaqələndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələdə müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək və müəyyən edilən səviyyələr üzrə qiymətləndirmək olar.

Layihə

7

# SAMANİ, OĞUZ, QARAXANLI, QƏZNƏLİ DÖVLƏTLƏRİ

II saat

**Standartlar:**

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Qəznəli dövlətinin və mədəniyyətinin inkişafında Mahmud Qəznəlinin rolunu izah edir.
2. Qəznəli dövlətinin və mədəniyyətinin inkişafında Mahmud Qəznəlinin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş, krosvord qurma

**Dərsin gedişi**

**Motivasiya.** Müəllim Samani, Oğuz, Qaraxanlı, Qəznəli dövlətləri mövzusunun ikinci saatında uyğun bildiyi üsul və vasitələrdən istifadə etməklə motivasiya qura bilər. Tədqiqat sualını elan etmək üçün əvvəlki dərsə istinad etmək məqsədəmüvafiqdir.

**Tədqiqat sualı: Qüdrətli Qəznəli dövləti necə yarandı?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra dərsin kiçik qruplarla və mətn üzərində iş üsulu ilə aparılması məqsədəmüvafiqdir. Bu mərhələdə şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqatın aparılması üçün aşağıda təqdim olunan, yaxud müəllimin özünün məsləhət bildiyi tapşırıqlar verilə bilər.

**I qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun. (Bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı.)
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Samani dövlətinin ən güclü dövründə türk tayfaları ____________ vasitəsilə İslam dininin yayıldığı ərazilərə gətirilirdi. Bunların böyük hissəsi Abbasi xəlifələrinin, ərəb və fars əsilli vilayət hakimlərinin qulamları kimi qulluğa qəbul olunurdu. ________ ildə Qəznədə yeni dövlətin – Qəznəli dövlətinin əsası qoyuldu. Bu yürüşlər nəticəsində Hindistanın şimal və şimal-qərbində olan məhsuldar torpaqlar Qəznəli dövlətinə birləşdirildi. Hindistanın zəngin sərvətlərinə sahib olan Qəznəli dövləti __________ baxımdan möhkəmləndi. Mahmudun bu qələbə xəbəri bütün İslam dünyasına yayıldı. O, Abbasi xəlifəsi tərəfindən sultan titulunu qəbul etdikdən sonra bu ada sahib olan ilk türk hökmdarı oldu. Sultan Mahmud hakimiyyətini Rey, Həmədan və İsfahan şəhərləri daxil olmaqla Qərbi İrana qədər yaydı. O, ömrünün sonuna yaxın oğuz-səlcuq tayfalarının Xorasanda

Layihə

yerləşməsinə icazə vermişdi. Sultan Mahmudun ölümündən sonra Qəznəli dövlətində taxt-tac uğrunda mübarizə qızışdı. ______________, idarəetmənin zəifləməsi dövlətin qüdrətini zəiflətdi. 1040-cı ildə Dəndənəkan döyüşündə səlcuqların qəznəlilərin ordusuna qalib gəlməsi dövlətin nüfuzuna böyük zərbə vurdu. XII əsrin ikinci yarısında Qəznəlilərin türk əsilli Qurlu tayfaları ilə münasibətləri kəskinləşdi. Getdikcə qüvvətlənən gurlular __________ şəhərinə hücum edib şəhəri yandırdılar. Qəznəvi hökmdarı paytaxtı yeni şəhərə – Lahora köçürməyə məcbur oldu.

**II qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

______________ dövlətində baş verən daxili çəkişmələrdən istifadə edən türk qulamları hakimiyyəti ələ almağa çalışsa da, istəklərinə nail ola bilmədilər. Türk qulamı Alptəkin tabeliyində olan türk əsilli əsgərlərlə Əfqanıstanda yerləşən Qəznə şəhərinə getdi. Burada yerli hakimi uzaqlaşdırdıqdan sonra möhkəmləndi. Qəznə şəhərinin yerləşdiyi Əfqanıstanda türklərin mövcudluğu hələ İslamdan əvvəlki dövrlərə təsadüf edir. Qəznəli dövlətinin qurulması ilə buraya türk axınları davam etməyə başladı. ________________ (998–1030) hakimiyyəti dövründə Qəznəli dövlətinin qüdrəti daha da artdı. Samani dövlətinin qaraxanlılar tərəfindən süquta uğradılması ilə onun əraziləri iki dövlət arasında bölüşdürüldü. Mahmud Qəznəlinin xarici siyasətinin əsasını _____________ işğalı tuturdu. Onun hakimiyyətinin böyük dövrünü Hindistana yürüşləri təşkil edirdi. Bundan sonra onların hakimiyyəti yalnız Şimal-Qərbi Hindistanla məhdudlaşsa da, qurlular Qəznəli dövlətinin varlığına ___________ ildə son qoydu. İslam dininin qəbul olunmasından sonra Türk cəmiyyətlərində əhəmiyyətli dəyişikliklər baş verdi. Qaraxanlı və qəznəlilər də köçəri həyat tərzinə keçdi. Şifahi ədəbiyyat tədricən öz yerini yazılı ədəbiyyata verməyə başladı. İslamın yayılması ilə memarlıqdan sənətkarlığa, təhsildən elmə qədər bütün sahələr böyük bir inkişaf yaşadı. Xarəzm, Buxara, Daşkənd və Səmərqənd kimi şəhərlər _________________ mərkəzinə çevrildi.

**III qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Samani dövlətinin ən güclü dövründə türk tayfaları Mavərannəhr vasitəsilə İslam dininin yayıldığı ərazilərə gətirilirdi. Samani dövlətində baş verən _________________ istifadə edən türk qulamları hakimiyyəti ələ almağa çalışsa da, istəklərinə nail ola bilmədilər. Türk qulamı Alptəkin tabeliyində olan türk əsilli əsgərlərlə Əfqanıstanda yerləşən Qəznə şəhərinə getdi. Burada yerli hakimi uzaqlaşdırdıqdan sonra Qəznədə möhkəmləndi. Beləliklə, __________ ildə burada yeni dövlətin – Qəznəli dövlətinin əsası qoyuldu. Mahmud Qəznəlinin (998–1030) hakimiyyəti dövründə Qəznəli dövlətinin qüdrəti daha da artdı. _____________ dövlətinin qaraxanlılar tərəfindən süquta uğradılması ilə onun əraziləri iki dövlət arasında bölüşdürüldü. Yürüşlər nəticəsində Hindistanın şimal və şimal-qərbinin məhsuldar torpaqları Qəznəli dövlətinə birləşdirildi. Hindistanın zəngin sərvətlərinə sahib olan Qəznəli dövləti iqtisadi baxımdan möhkəmləndi. Mahmudun bu qələbə xəbəri bütün İslam dünyasına yayıldı. Daxili ziddiyyətlər, idarəetmənin zəifləməsi dövlətin qüdrətini zəiflətdi. 1040-cı ildə ________________ döyüşündə səlcuqların qəznəlilərin ordusuna qalib gəlməsi dövlətin nüfuzuna böyük zərbə vurdu. XII əsrin ikinci yarısında qəznəlilərin türk əsilli Qurlu tayfaları ilə münasibətləri kəskinləşdi. _____________ qəbul olunmasından sonra Türk cəmiyyətlərində əhəmiyyətli dəyişikliklər baş verdi. Qaraxanlı və qəznəlilər də köçəri həyat tərzinə keçdi.

Layihə

Şifahi ədəbiyyat da tədricən öz yerini yazılı ədəbiyyata verməyə başladı.

**IV qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri doldurun.

Dövrün güclü dövlətlərindən olan samanilərin ordularında da türk əsilli qulamların xidmətlərindən istifadə edilirdi. Samanilər dövlətində baş verən __________________ istifadə edən türk qulamları hakimiyyəti ələ almağa çalışsa da, istəklərinə nail ola bilmədilər. Türk qulamı Alptəkin tabeliyində olan türk əsilli əsgərlərlə Əfqanıstanda yerləşən Qəznə şəhərinə getdi. Beləliklə, _________ ildə burada yeni dövlətin – Qəznəli dövlətinin əsası qoyuldu. Samani dövlətinin qaraxanlılar tərəfindən süquta uğradılması ilə onun əraziləri iki dövlət arasında bölüşdürüldü. Bunun nəticəsində Xorasan, Xarəzm, Sistan və Əfqanıstan tabe edilərək keçmiş Samani torpaqları Qəznəli dövlətinin tərkibinə daxil edildi. Mahmud Qəznəlinin hakimiyyətinin böyük dövrünü _____________ yürüşləri əhatə edir. Bu yürüşlər nəticəsində Hindistanın şimal və şimal-qərbində olan məhsuldar torpaqları Qəznəli dövlətinə birləşdirildi. O, ömrünün sonuna yaxın oğuz-səlcuq tayfalarının ____________ yerləşməsinə icazə vermişdi. Sultan Mahmudun ölümündən sonra Qəznəli dövlətində taxt-tac uğrunda mübarizə qızışdı. Getdikcə qüvvətlənən gurlular Qəznə şəhərinə hücum edib şəhəri yandırdılar. Qəznəvi hökmdarı paytaxtı yeni şəhərə – Lahora köçürməyə məcbur oldu. Qaraxanlı və qəznəlilərdə _________ həyat tərzinə keçdi. Şifahi ədəbiyyat tədricən öz yerini yazılı ədəbiyyata verməyə başladı. Memarlıqdan sənətkarlığa, təhsildən elmə qədər bütün sahələr İslamın yayılması ilə böyük bir inkişaf yaşadı.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara tədqiqat aparmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Qrupların gəldiyi nəticələrlə, məlumatlarla, hissələrə bölünmüş mətnə verilən adlar təqdim edilir. Suallar verilir, fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və nəticə əldə etmək üçün şagirdlərə suallar verilir. Verilən sualları əvvəlcədən hazırlamaq məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– Qəznəli dövləti necə yarandı?
– Sultan Mahmud hansı əraziləri Qəznəli dövlətinə birləşdirdi?
– Sultan Mahmud Qəznəlinin dövlətin güclənməsində rolu nədir?
– Nəyə görə Abbasi xəlifəsi Mahmud Qəznəliyə sultan titulu verdi?
– Hansı ərazinin Qəznəli dövlətinə birləşdirilməsi dövləti iqtisadi cəhətdən möhkəmləndirdi?
– Qəznəli dövlətinin tənəzzülünün səbəbləri hansılardır?

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə öyrəndiklərini yaradıcı şəkildə reallaşdırmaq üçün – yeddinci mövzu əsasında əldə etdikləri məlumatlar əsasında 5-6 sözdən ibarət krosvord qurmağı tapşırmaq olar.

**Ev tapşırığı.** Qəznəli dövlətinin və mədəniyyətinin inkişafında Mahmud Qəznəlinin rolu ilə bağlı məlumatlar toplayıb təqdimatlar hazırlayın.

**Qiymətləndirmə meyarları:** izahetmə, təqdimat hazırlama

Mövcud dərsin qiymətləndirilməsi yuxarıdakı meyarlara nəzərən dərsi izləməsi nəticəsində həyata keçirilməlidir. Dərsin sonunda şagird yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla müəyyən olunan səviyyələr üzrə qiymətləndirilə bilər. Sonuncu meyar üzrə şagirdlər verilən ev tapşırığını yerinə yetirib təqdim edəndən sonra qiymətləndirilə bilər.

Layihə

# 8 FRANK DÖVLƏTİ

german tayfaları, barbarlar, Frank dövləti, Hlodviq, Qalliya, Böyük Karl, Verden müqaviləsi, feodal dağınıqlığı




**Standart:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədi:**

Frank dövlətinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim formaları:** böyük qruplarla və cütlərlə iş
**Təlim üsulları:** beyin həmləsi, ardıcıl suallar
**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaqda müəllim sərbəstdir. Mövcud dərs üçün motivasiya qurmağın bir neçə yolu təklif edilə bilər.

**Birinci üsul.** Mövzu ilə bağlı motivasiya qurmağın ən sadə yolu şagirdlərin əvvəlki biliklərindən istifadə etməkdir. Şagirdlərin diqqəti Qədim Roma imperiyasının dağılması məsələsinə yönəldilir və onlara aşağıdakı suallarla müraciət edilir:

– Qədim Roma imperiyasının dağılma səbəbləri hansılar idi?

**Barbar hücumları** cavabını alandan sonra növbəti sual səsləndirilir:

– Barbar tayfalarından hansıları tanıyırsınız?
– Sizcə, bu tayfalardan hansı daha qüdrətli dövlət yaratmışdır?

**İkinci üsul.** Anlayışın çıxarılması üsulundan istifadə etməklə şagirdləri dərsə motivə etmək olar.

**Üçüncü üsul.** Franklarla və ya Frank dövləti ilə bağlı müxtəlif vəsaitlərdən: şəkil, xəritədən istifadə etməklə şagirdlərə yönəldici suallar verilir. Sualların sayı müəllim tərəfindən müəyyənləşdirilir. Əsas olan cavabların (və ya müəllimin ümumiləşdirməsinin), irəli sürülən fərziyyələrin tədqiqat sualının formalaşmasına istiqamət verməsidir.

**Nümunə**




Layihə

**Tədqiqat sualı: Frank dövlətini Qərbi Avropanın ilk qüdrətli feodal dövləti adlandıra bilərikmi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün ardıcıl suallar üsulundan istifadə edilməsi tövsiyə edilir. Dərslikdəki mətn abzaslara bölünür və oxunması üçün bir şagirdə təqdim edilir, digər bir şagird ona opponent təyin edilir. 1-ci şagird abzası ucadan oxuyur. Oxu başa çatdıqdan sonra opponent mətni oxuyana oxuduğu abzasdan bir və ya bir neçə sual verir. Birinci şagird onun sualını cavablandırır. Sonra sual verən şagird mətnin oxusunu davam etdirir, ikinci isə oxunan abzasdan ona sual verir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyətqurma, mətnlə müstəqil işləmək, oxuyub-anlama vərdişləri ilə yanaşı, sual qurmaq, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Bu üsuldan istifadə zamanı məlumatın mübadiləsi və müzakirəsi mərhələsi ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Aşağıda verilmiş yönəldici suallar vasitəsi ilə tədqiqat sualına cavab alına bilər:

– Franklar kimlər idi?
– Frank dövləti necə yarandı?
– 486-cı il Suasson döyüşünün nəticəsi nə oldu?
– Xristianlığın qəbulu Hlodviqə nə verdi?
– Sizcə, germanlar niyə Roma mədəniyyətini məhv etdilər?
– "Qanunlar toplusu"nun qəbul edilməsinin əhəmiyyəti nə idi?
– Roma papasının Böyük Karlı imperator elan etməsinin səbəbi nə idi?
– Kəndlilərin ordudan uzaqlaşması nə ilə nəticələndi?
– İmperatorun hansı tədbiri gələcəkdə imperiyanın taleyinə mənfi təsir göstərdi?
– "Müqəddəs Roma imperiyası" necə yarandı?
– Frank imperiyasında "feodal nərdivanı"nın əlamətlərini harada görmək olurdu?

**Yaradıcı tətbiqetmə.** Şagirdlərin diqqəti dərsliyin 51-ci səhifəsindəki Frank qanunlarına yönəldilir. Şagirdlərə aşağıdakı cədvəlin tamamlanması tapşırığı verilə bilər. Daha orijinal cavabın alınması üçün bunu fərdi iş kimi, ya da cütlərlə iş kimi yerinə yetirmək yaxşı olardı. Şagirdlərin 6-cı sinif Ümumi tarix fənnindən tanış olduqları Hammurapi qanunları onların yadında qalmaya bilər. Bunu nəzərə alaraq dəstək üçün onları Hammurapi qanunları ilə (2021-ci ildə "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuş 6-cı siniflər üçün Ümumi tarix fənni üzrə dərsliyin 43-cü səhifəsində) tanış etmək lazımdır.

Hammurapinin qanunlarından:

- Əgər bir adam məbədin və ya hökmdarın əmlakını oğurlayarsa, o öldürülməlidir.
- Əgər bir adam qaçmış qulu gizlədərsə, o öldürülməlidir.
- Əgər bir adam başqasının öküzünü öldürərsə, əvəzində öküz verməlidir.
- Əgər təbib xəstənin gözündəki pərdəni kəsib götürərsə, ona müəyyən olunmuş miqdarda gümüş verməlidir.
- Əgər təbib xəstənin gözünü müalicə edərkən göz kor olarsa, təbibin əli kəsilməlidir.

Layihə

| Gəlinən qənaət | Hammurapinin qanunları | Frank qanunları |
|---|---|---|
| Qanun sərtdir. | | |
| Qanun ədalətlidir. | | |
| Qanun insan haqlarını müdafiə edir. | | |
| Qanun hakimiyyəti müdafiə edir. | | |
| Qanun quldarlıq quruluşuna aiddir. | | |

**Qiymətləndirmə meyarları:** şərhetmə, izahetmə
Şagirdlərin qiymətləndirilməsi yuxarıdakı meyarlara uyğun səviyyələr üzrə aparılır.

# 9 BİZANS. SLAVYANLAR




Bizans, "Qızıl körpü", slavyanlar, Kiyev knyazlığı

**Standart:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədi:**
Bizans və Slavyan dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, ziqzaq, afişaların yaradılması

**Dərsin gedişi**
**Motivasiya.** Mövzu ilə bağlı motivasiya qurmaq üçün suallar vasitəsilə şagirdləri "Qədim dünya tarixi"nə "səyahətə" aparmaq olar.
– Qədim dünya tarixini öyrənən zaman sizi ən çox təsirləndirən dövlət hansı olmuşdur?
*Qədim Roma* cavabını aldıqdan sonra növbəti sual verilir:
– Bu əzəmətli imperiyanın taleyi nə oldu?

Layihə

Cavabları dinləyəndən sonra ümumiləşdirmə aparılır, şagirdlərin diqqəti Bizans (Şərqi Roma imperiyası) dövlətinə yönəldilərək dərsin motivasiyası qurulur.

Müəllimlər dərsi qurmaq üçün müxtəlif motivasiyalardan istifadə edə bilərlər. Mövzular arasında rabitə yaratmaq məqsədilə müəllim Qədim Roma dövlətinin şərq hissəsi olan Bizans dövlətinin qurulması haqqında bir neçə cümlə ilə məlumat verərək dərsə giriş edib tədqiqat sualını elan edə bilər.

**Tədqiqat sualı: "Qızıl körpü"süz Bizans imperiyası mümkün idimi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın ziqzaq üsulu ilə həyata keçirilməsi tövsiyə edilir. Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bunun üçün şagirdlər dörd nəfərlik qruplara (əsas qrup) bölünür. Qruplardakı şagirdlər nömrələnir, hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır. Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünüb ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni qrup yoldaşlarına danışmalıdır. Bunun ardınca qruplara aşağıdakı formada tapşırıqlar verilir. Proses zamanı informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verilə bilər.

**I qrup**
1. Nə üçün Konstantinopolu "Qızıl körpü" adlandırırdılar?
2. Slavyanların Bizans ərazisində məskunlaşmasını şərh edin.

**II qrup**
1. XII əsr səyyahı Konstantinopol haqqında nə deyirdi?
2. Bizans imperiyasının tənəzzülünü şərh edin.

**III qrup**
1. Bizansda imperator hakimiyyətini şərh edin.
2. Hansı slavyan tayfalarını tanıyırsınız?

**IV qrup**
1. Konstantinopolun "Qızıl körpü" adlandırılmasının səbəbi nə idi?
2. Slavyan dövlətlərinin meydana gəlməsini şərh edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Təqdimat zamanı müzakirələrin aparılması üçün konkret vaxt müəyyən edilməlidir. Bu zaman şagirdləri lazımi məcraya yönəltmək üçün müvafiq suallar verilə bilər. Müzakirələr zamanı şagirdlərin də suallar verməsinin təmin edilməsi məqsədəmüvafiqdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Məlumatın mübadiləsi və müzakirəsi mərhələsi qrup təqdimatları ilə bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

- Ərəb hücumları nəticəsində Bizans hansı ərazilərini itirdi?
- Dərslikdəki hansı məlumatlar XII əsr səyyahının verdiyi məlumatlarda öz əksini tapır?
- Məhsuldar torpaq axtarışında olan slavyanları köçəri adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.
- Sizcə, monqolların rus torpaqlarını asanlıqla ələ keçirməsinin səbəblərindən biri kimi ölkədə siyasi pərakəndəlik ola bilərdimi? Fikrinizi əsaslandırın.
- Sizcə, "Qızıl körpü"süz Bizans dövləti mümkün ola bilərdimi? Fikrinizi əsaslandırın.

Layihə

**Ev tapşırığı.** Şagirdlərə Konstantinopolun "Qızıl körpü" adlandırılmasını özündə əks etdirən afişa hazırlanması tapşırılır.

**Qiymətləndirmə meyarı:** şərhetmə

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün şərhetmə meyarı nəzərə alınmalıdır. Bu məqsədlə qiymətləndirilməsi nəzərdə tutulan şagirdlər dərs boyu diqqətdə saxlanılmalı və fəaliyyətləri izlənilməlidir. Dərsin sonunda onlar yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirilir.

# 10 MƏDƏNİYYƏT

Göytürk yazıları, mədrəsə, İbn Sina, xəttatlıq, Müqəddəs Sofiya məbədi, "Karolinq oyanışı"




**Standartlar:**

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

**Təlim məqsədləri:**

1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
2. İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** anlayışın çıxarılması, ziqzaq, afişaların yaradılması

**Dərsin gedişi**

**Motivasiya.** Mövzu ilə bağlı motivasiya qurmağın bir neçə yolunu təklif etmək olar.

**Birinci üsul.** Anlayışın çıxarılması üsulundan istifadə etməklə şagirdləri dərsə motivə etmək mümkündür. Açar sözlər səsləndirilir, şagirdlərə aşağıdakı sualla müraciət edilir:

– Gördüyünüz bu sözləri birləşdirən ümumi cəhət nədir? Yəni bu sənət sahələri nəyin tərkib hissəsidir?

İzahlar bitdikdən sonra mərkəzdəki sualın cavabı şagirdlərin köməyi ilə müəyyənləşdirilir və elan edilir.




Nümunə

Layihə

**İkinci üsul.** Motivasiya qurmaq üçün bir həzin musiqi səsləndirib, şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

– Dinlədiyiniz nədir?

– Daha geniş düşünsək, buna musiqidən savayı, daha hansı adı vermək olar?

Verilmiş cavabları ümumiləşdirdikdən sonra şagirdlərə tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: İslam mədəniyyəti dünya mədəniyyətinin inkişafına necə təsir etdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla, "iki həqiqət və bir yanlış" üsulundan istifadə edilməklə həyata keçirilməsi tövsiyə edilir. Çox sadə və yarışmanı xatırladan bu dərs metodu şagirdlərdə dərsə maraq yaradacaq. Sinif kiçik qruplara bölünür, hər qrupa bir mövzu təqdim edilir, onlara növbəti tapşırıq verilir:

- Mövzu ilə bağlı üç fikir yazın.
- Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Yanlış doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.
- Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup.** Türk xalqlarının mədəniyyəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**II qrup.** İslam mədəniyyəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**III qrup.** Qərbi Avropa mədəniyyəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**IV qrup.** Bizans mədəniyyəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimatını edir. Onlar təqdim edilən bu üç fikirdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də dərsin məqsədinə uyğun üç fikir söyləməsi (təbii ki, ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı. Bunu həm müəllimin qarşısına qoyduğu məqsədə çatmasına, həm də şagirdlərə doğru və yanlış fikirlərin formalaşdırılması yollarını nümunə əsasında göstərməyə kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Məlumatların mübadilə və müzakirəsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- İslamaqədərki türk xalqlarında mədəniyyət necə inkişaf edirdi?
- İslam mədəniyyətinin yüksək inkişaf etməsinin səbəbi nə idi?
- İslam ölkələrində ərəb dilinin elmi dil olması mədəniyyətin inkişafında hansı rolu oynadı?
- Öyrəndiyiniz dövrdə Bizans mədəniyyəti necə inkişaf edirdi?

Layihə

– Öyrəndiyiniz dövrdə Qərbi Avropa mədəniyyəti necə inkişaf edirdi?
– Sizcə, İslam mədəniyyətinin dünya mədəniyyətinin inkişafına hansı təsiri oldu?

**Yaradıcı tətbiqetmə.** Yaradıcı tətbiqetmə kimi şagirdlərə diaqram hazırlanmasını təklif edilə bilər.

**Diaqram hazırlamaq üçün məsləhət**

Diaqramda mədəni inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə dəstək ola bilər. Bu, şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək edər. Şagirdlərin ilk dəfə diaqram hazırlamalı olduğunu və bunun onlar üçün çətin olacağını nəzərə alaraq onlara kömək etmək vacibdir. Nümunə kimi aşağıdakı diaqramdan faydalanmaq olar.




**Qiymətləndirmə meyarları:** izahetmə, müəyyənetmə

Dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə və müəyyən edilən səviyyələr üzrə qiymətləndirilə bilər.

# 11 BÖYÜK SƏLCUQ DÖVLƏTİ




Səlcuqlar, Çağrı bəy, Toğrul bəy, Nişapur, Alp Arslan, Malazgird döyüşü

**Standartlar:**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Böyük Səlcuq dövlətində mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
2. Böyük Səlcuq dövlətinin inkişafında Alp Arslanın və Məlik şahın rolunu izah edir.
3. Böyük Səlcuq dövlətinin inkişafında Alp Arslanın və Məlik şahın rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim forması:** böyük qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, rollu oyunlar

**Dərsin gedişi**

**Motivasiya. Birinci üsul.** Mövzu ilə bağlı motivasiya qurmaq üçün "Alparslan Böyük Səlcuqlu" və ya "Oyanış: Böyük Səlcuqlu" filmlərindən müvafiq kadr (kadrlar) nümayiş etdirilir və şagirdlərə suallar verilir:

– İzlədiyiniz kadrlar sizə nə deyir?

– Sizcə, keçəcəyimiz dərs hansı dövlətə aid ola bilər?

Şagirdlərin cavabları ümumiləşdirilir, tədqiqat sualı elan edilir, yeni dərsə keçid edilir.

**İkinci üsul.** Şagirdlərə türk dilinin Yaxın Şərqdə və Ön Asiyada əsas danışıq dilinə çevrilməsi barədə yığcam məlumat verməklə onları yeni dərsə maraq yaratmaq olar.

Motivasiya məqsədilə 3-cü mövzunun icmalından da istifadə etmək olar.

**? Tədqiqat sualı: Alp Arslan və Məlik şahın Böyük Səlcuq dövlətinin inkişafında hansı rolu olmuşdur?**

Layihə

**Tədqiqatın aparılması.** Tədqiqatın rollu oyunlar vasitəsilə aparılması tövsiyə edilir. Xatırladaq ki, rollu oyunlar tarixi hadisələrin şagirdlər tərəfindən daha rahat mənimsənilməsinə imkan verən bir üsuldur. Tarixi hadisələr əsasında səhnələşdirilmiş rollar öyrənənlərə əsas hadisələri başa düşməyə yaxından kömək edə bilər. Əgər ağır bir mətn qavramanı çətinləşdirirsə, bu mətnin vizual hala gətirilməsi şagirdlərə qavramada dəstək ola bilər.

Bunun üçün şagirdlərə dərsin əvvəlində "Böyük Səlcuq dövləti" mövzusunu oxumaq tapşırılır. Sonra onlara əsas obrazlar barədə məlumat verilir. Əsas obrazlar: Səlcuq bəy, Çağrı bəy, Toğrul bəy, Qəznəli Sultan Məsud, Sultan Toğrul, Abbasi xəlifəsi (Sultan Toğrul haqqında), Abbasi xəlifəsi (Alp Arslan haqqında), Alp Arslan, Roman Diogen, I Məlik şah, Nizamülmülk, Sultan Səncər. Bunun ardınca şagirdlərə bir ssenari yazmaları (ssenari yazmaq onlara çətin gələ bildiyindən onlara bu sahədə kömək etməyiniz vacibdir), daha sonra bunu sinif üçün səhnələşdirilmiş bir oyuna çevirmələri tapşırılır. Bu üsul dərsdə birinci dəfə tətbiq olunduğundan yaxşı olardı ki, müəllim əlaqələndirici rolunda çıxış edərək baş verəcək hadisə haqqında bir az məlumat versin. Ən vacibi odur ki, şagirdlərə özlərini sərbəst aparmaları, dərslik kontekstindən çıxış edərək hadisələri öz sözləri ilə nəql etmələri, fantaziyalarını işə salmaları, lazım gəldiyi təqdirdə hökmdar kimi hökm etmələri, rola girmələri və s. tapşırılsın.

Rollu oyunla iş zamanı, əslində, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də həyata keçirilmiş olur. Dərsin səhnələşdirilməsinə ayrılmış vaxt bitdikdən sonra növbəti mərhələ həyata keçirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində əldə olunan nəticələr ümumiləşdirilir. Qarşıya qoyulan məqsədə çatmaq üçün yardımçı suallardan istifadə etmək olar. Yardımçı suallar kimi aşağıdakılardan istifadə edilir. Bu zaman dərslikdəki suallar da kömək edə bilər:

- Səlcuqların Aral bölgəsində nüfuzunu artıran amillər hansılar idi?
- Səlcuqların Bizansa kəşfiyyat yürüşünün nəticəsi nə oldu?
- Səlcuq dövləti necə yaradıldı?
- Sultan Toğrulun Bağdad səfərinin nəticəsini necə dəyərləndirərdiniz?
- Malazgird döyüşünün dünya tarixində rolu nə oldu?
- Böyük Səlcuq dövlətinin inkişafında Alp Arslanın rolunu necə izah edərdiniz?
- I Məlik şahın dövründə dövlətin çiçəklənməsinin səbəbləri nə idi?
- Böyük Səlcuq dövlətinin inkişafında Məlik şahın rolunu necə izah edərdiniz?
- Sizcə, Böyük Səlcuq dövlətinin süqutunun səbəbləri nə idi?

**Ev tapşırığı**

**Təqdimat mövzuları.** Şagirdlərə aşağıdakı mövzulardan biri ilə bağlı təqdimat hazırlamaq tapşırılır.

1. Böyük Səlcuq dövlətinin inkişafında Alp Arslanın rolu.
2. Böyük Səlcuq dövlətinin inkişafında Məlik şahın rolu.

**QEYD.** Tapşırıqları şagirdlər arasında müəllim bölsə, daha yaxşı olar.

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, izahetmə, məlumat toplama, təqdimat hazırlama

Şagirdlərin qiymətləndirilməsi dərs izlənməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə və səviyyələr üzrə qiymətləndirilə bilər. Sonuncu meyar (məlumatlar toplayıb təqdimatlar hazırlama) üzrə şagirdlərin qiymətləndirilməsi onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

Layihə

# 12 BÖYÜK MONQOL İMPERİYASI. QIZIL ORDU. MOSKVA KNYAZLIĞI

I saat




Çingiz xan, Qaraqorum, noyon, bahadır, "Böyük yasa", yarlıq, baskak, knyaz, "Uqra görüşü", çar

**Qeyd.** Bu mövzunun tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 68–75-ci səhifələrini əhatə edir.

– Birinci dərs səhifə 68-dən başlayaraq 72-ci səhifənin sonunadək olan məlumatları əhatə edir. Bu səhifələrdəki şəkil və xəritələrdən də istifadə edilməlidir.
– İkinci dərs saatı 73–75-ci səhifələrdəki "Qızıl Ordu dövləti" və "Moskva knyazlığı" yarımbaşlıqlarını əhatə edir.

Əvvəldə də bildirdiyimiz kimi, bu bölgü mütləq deyil. Bölgünü dəyişməkdə müəllim sərbəstdir.

**Standartlar:**

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Monqolların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
2. Böyük Monqol imperiyasının yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.
3. Böyük Monqol imperiyası ilə Ərəb xilafətinin oxşar və fərqli cəhətləri ilə bağlı diaqram hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, ardıcıl suallar, xəritələrlə iş, diaqramların qurulması

Layihə

**Dərsin gedişi**

**Motivasiya.** Mövzu ilə bağlı motivasiya qurmağın bir neçə yolu təklif edilə bilər.

**Birinci üsul.** Texniki imkanlar olarsa, "Böyük monqol Çingiz xan", "Çingiz xan" filmlərinin hər hansı birindən şagirdlərə müvafiq kadrlar göstərilir və yardımçı suallar vasitəsilə şagird mövzuya istiqamətləndirilir.

– Kadrlardan sizə nə aydın oldu?
– Kadrlarda diqqətinizi ən çox nə cəlb etdi?
– Sizcə, burada söhbət kimlərdən gedir?

Nümayiş etdirilən kadrlardan asılı olaraq mövzu ilə bağlı müxtəlif suallar hazırlana bilər.

**İkinci üsul.** Mövzu ilə bağlı "PowerPoint" proqramının köməyi ilə çöl həyatından (monqollara aid çadır, aul, köçəri maldarlıq, döyüşçü və s.) bəhs edən təqdimat nümayiş olunur və şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– Gördüyünüz təsvirlər sizə nə deyir?
– Slaydlarda ən çox diqqətinizi nə cəlb etdi?
– Sizcə, bu slaydlar hansı xalqa aid ola bilər?

Cavablar ümumiləşdirildikdən sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Dünyaya səs salan qüdrətli imperiya necə quruldu?**

**Tədqiqatın aparılması.** Tədqiqatın ardıcıl suallar üsulu ilə aparılması tövsiyə olunur. Mətn abzaslara bölünür, əvvəlki dərslərdə göstərildiyi qayda üzrə icra edilir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub-anlama vərdişləri ilə yanaşı, sual vermək, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Ardıcıl suallar üsulu ilə dərsin keçilməsi zamanı **məlumatın mübadiləsi və müzakirəsi mərhələsi** ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Müəllim yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab ala bilər:

– Sizcə, XIII əsrədək monqolların dövləti var idimi?
– Monqollarda hərbi təşkilat necə qurulmuşdu?
– "Böyük yasa"nın izahını necə verərdiniz?
– "Böyük yasa" kimlərin mənafeyini müdafiə edirdi?
– Monqol dövlətinin yaradılmasında Çingiz xanın rolunu necə şərh etmək olar?

**Yaradıcı tətbiqetmə.** Metodik vəsaitin sonunda verilmiş kontur xəritəni şagirdlərə təqdim edib monqol işğallarının əhatə etdiyi ərazilərdə hansı müasir dövlətlərin olduğunu rəngli karandaşlarla işarə etmək tapşırılır.

**Ev tapşırığı.** Böyük Monqol imperiyasının və Ərəb xilafətinin oxşar və fərqli cəhətləri ilə bağlı diaqram hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** təhliletmə, şərhetmə, diaqram hazırlama

Dərsin sonuncu mərhələsi olan qiymətləndirmə yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə həyata keçirilə bilər. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi ev tapşırığının icrasından sonra həyata keçirilə bilər.

Layihə

Dərsin sonunda refleksiya üçün aşağıdakı suallardan istifadə edilə bilər:
– Dərsdə hansı yeni məlumatı öyrəndiniz?
– Yeni mövzu üzərində necə işlədiniz?
– Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz?
– Sizə nə aydın olmadı?

# 12 BÖYÜK MONQOL İMPERİYASI. QIZIL ORDU. MOSKVA KNYAZLIĞI

II saat

**Standartlar:**

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədləri:**

1. Qızıl Ordu dövləti və Moskva knyazlığı ilə bağlı tarixi faktları xronoloji qaydada sistemləşdirir.
2. Qızıl Ordu dövləti və Moskva knyazlığının yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim formaları:** böyük  və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, "üç cümlə"

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərs "Böyük Monqol imperiyası. Qızıl Ordu dövləti. Moskva knyazlığı" mövzusunun tədrisinə ayrılmış ikinci saat olduğundan motivasiya qurmaq mütləq deyil. Bununla belə, əvvəlki dərsdən çıxış edərək dərsə giriş verilməlidir.

**Tədqiqat sualı: Qızıl Ordu dövləti ilə Moskva knyazlığı arasında siyasi münasibətlər necə qurulmuşdu?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması fəal təlimin "üç cümlə" üsulundan istifadə etməklə həyata keçirilə bilər. Bu üsulla keçirilən dərs zamanı şagirdlərə verilmiş tapşırığı

Layihə

əsaslandırılmış şəkildə daha qısa həcmdə təqdim etmək tələb olunur. Sonra onlara növbəti tövsiyələr xatırladılır: Hansı qrup hekayəni daha qısa yazıbsa, o, qalib gəlir. Bu zaman məzmun əsas götürülür. Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar verilə bilər.

**I qrup.** Qızıl Ordu dövlətinin qurulmasını şərh edin.
**II qrup.** Qızıl Ordu dövlətində idarəçilik sistemi necə qurulmuşdu?
**III qrup.** Qızıl Ordu dövləti ilə Moskva knyazlığı arasında siyasi münasibətləri şərh edin.
**IV qrup.** "Moskva knyazlığı XVI əsrdə" mövzusunu şərh edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim etməlidirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunmasına və əlavələr edilməsinə şərait yaradılır. Dərsin bu mərhələsində bütün şagirdlərin müzakirələrdə iştirakı təmin edilməlidir. Çünki müzakirələrdə çox sayda şagirdin iştirakı ümumi nəticəyə gəlməyə, qiymətləndirməni rahat həyata keçirməyə, şagird fəallığını təmin etməyə, ümumilikdə, dərsi maraqlı etməyə kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan tədqiqatdan ümumi nəticəyə gəlmək üçün bu mərhələdə şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:
- Çingiz xanın imperiyanı uluslara bölməsi Qızıl Ordu dövlətinin yaradılmasında hansı rolu oynadı?
- Qızıl Ordu dövlətinə tabe olan ölkələrdə müstəqillik meyillərinin artmasına təkan verən səbəblər hansılar idi?
- Terek çayı sahilindəki məğlubiyyətin Qızıl Ordu dövlətinə hansı təsiri oldu?
- "Uqra görüşü"nün nəticəsi nə oldu?
- Qızıl Ordu dövlətinin süqutunun səbəbləri hansılar idi?
- Vahid Rusiya dövləti necə yarandı?
- Türk xanlıqlarının işğalının Rusiya dövləti üçün əhəmiyyəti nə idi?

**Yaradıcı tətbiqetmə.** Bu mərhələdə şagirdlərə XIV–XVI əsrlərdə baş verən hadisələri cədvəl formasında sistemləşdirmək tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** sistemləşdirmə, şərhetmə
Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində aparılır. Dərsin bu son mərhələsində yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə şagirdlər qiymətləndirilə bilər.

Layihə

# 13 DEHLİ SULTANLIĞI. BÖYÜK MOĞOL DÖVLƏTİ




Qütbəddin Aybək, Sultan Ələddin, Panipat döyüşü, Babur şah, Əkbər şah

**Standartlar:**

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Hindistanda feodal münasibətlərinin yaranmasını və inkişafını geosiyasi məkanda baş verən dəyişikliklərlə əlaqələndirir.
2. Dehli sultanlığı və Böyük Moğol dövlətinin oxşar və fərqli cəhətləri ilə bağlı diaqram hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, mətnə əsasən cədvəlin doldurulması, Venn diaqramı

**Dərsin gedişi**

**Motivasiya. Birinci üsul.** Lövhədən dünya xəritəsi asılır və şagirdlərə suallarla müraciət edilir:

– Yarımada nədir?

– Bütöv bir yarımadanı əhatə edən hansı dövlətləri tanıyırsınız?

*Hindistan* cavabını alandan sonra "İnkişaf etmiş feodalizm dövründə Hindistanda hansı hadisələrin cərəyan etdiyi sizə maraqlıdırmı?" sualı ilə şagirdlərə müraciət edilir.

Cavablar ümumiləşdirilir və tədqiqat sualı elan edilir.

**İkinci üsul.** Beyin həmləsi üsulundan istifadə edərək 6-cı sinifdə qazanılmış biliklər əsasında yeni dərsə motivasiya etmək mümkündür. Bunun üçün şagirdlərə aşağıdakı və yaxud müəllimin əhəmiyyətli saydığı suallar verilə bilər:

– Sizcə, hansı xalq "0" rəqəmini kəşf etmişdir?

– Bəs şahmatın vətəni hara sayılır?

*Hindistan* cavabından sonra (Əgər şagirdlərdən Hindistan cavabını ala bilməsəniz, onlara 6-cı sinifdə Hindistanla bağlı əlavə bir neçə fakt da qeyd etmək olar.) "Sizə inkişaf etmiş feodalizm dövründə Hindistanda hansı hadisələrin cərəyan etdiyi maraqlıdırmı?" sualı ilə şagirdlərə müraciət edilir.

? **Tədqiqat sualı: İnkişaf etmiş feodalizm dövründə Hindistanda feodal münasibətləri necə inkişaf etdi?**

Layihə

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və mətnə əsasən cədvəlin doldurulması üsulundan istifadə edilməklə aparılması məqsədəmüvafiqdir. Adından göründüyü kimi, bu üsuldan istifadə zamanı şagirdlər onlara təqdim edilən mətnə əsasən cədvəli tamamlamalıdırlar. Dərsin daha maraqlı keçməsi və cədvəl üzərində işin daha əhatəli və "canlı" olması üçün eyni cədvəlin iki müxtəlif qrupa verilməsi təklif olunur. Bu həm də eyni hadisəyə fərqli yanaşmanın üzə çıxmasını və müzakirənin daha maraqlı aparılmasını təmin edər. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək olar:

**I qrup**

| | | Dehli sultanlığı | Böyük Moğol dövləti |
|---|---|---|---|
| Hökmdarlar | Dövlət yaradan | | |
| | Digərləri | | |
| | İstilalar edən | | |
| | İslahatçı | | |
| Xarici dövlətlərlə əlaqələr | Düşmənçilik | | |
| | Dostluq | | |
| Torpaq mülkiyyəti | | | |

**II qrup**

| | | Dehli sultanlığı | Böyük Moğol dövləti |
|---|---|---|---|
| Xarici dövlətlərlə əlaqələr | Düşmənçilik | | |
| | Dostluq | | |
| | Yaranma tarixi | | |
| Mühüm tarixi hadisələr | Əhəmiyyətli hadisə | | |
| | Süqut tarixi | | |
| Torpaq mülkiyyəti | | | |

**III qrup**

| | | Dehli sultanlığı | Böyük Moğol dövləti |
|---|---|---|---|
| Hökmdarlar | Dövlət yaradan | | |
| | Digərləri | | |
| | İstilalar edən | | |
| | İslahatçı | | |
| Xarici dövlətlərlə əlaqələr | Düşmənçilik | | |
| | Dostluq | | |
| Torpaq mülkiyyəti | | | |

Layihə

**IV qrup**

| | | Dehli sultanlığı | Böyük Moğol dövləti |
|---|---|---|---|
| Xarici dövlətlərlə əlaqələr | Düşmənçilik | | |
| | Dostluq | | |
| Mühüm tarixi hadisələr | Yaranma tarixi | | |
| | Əhəmiyyətli hadisə | | |
| | Süqut tarixi | | |
| Dövlətin paytaxtı | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün aşağıdakı sual və tapşırıqlarla şagirdlərə müraciət etmək olar:
- Dehli sultanlığı necə quruldu?
- Hindistanın şimalında türk-müsəlman əhalinin artmasına səbəb nə idi?
- Sultan Əlaəddin hansı addımları ilə Dehli sultanlığını möhkəmləndirdi?
- Böyük Moğol dövləti necə yarandı?
- Əkbər şahı islahatçı hökmdar saymaq olarmı? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Venn diaqramından istifadə etməklə Dehli sultanlığı ilə Böyük Moğol dövlətinin müqayisəsinin aparılması tapşırığı verilə bilər.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, diaqram hazırlama

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirmək olar.

Layihə

# 14 OSMANLI İMPERİYASI




Qayı boyu, Osman qazi, Sultan I Murad, İstanbul, Ankara döyüşü, Süleyman Qanuni, yeniçəri

**Standartlar:**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

**Təlim məqsədləri:**

1. Osmanlı dövləti tarixində mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
2. II Mehmedin Osmanlı dövlətinin inkişafında rolunu izah edir.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş

**Təlim üsulları:** beyin həmləsi, "Əgər mən təbiət hadisəsi olsa idim..."

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya kimi şagirdlərə YouTube-dan (*https://youtu.be/ewlAvU8DOho*) İstanbulun fəthi şərəfinə hazırlanmış 4 dəqiqəlik film nümayiş etdirilə bilər.

Sonra şagirdlərə aşağıdakı və ya onlara oxşar suallar verib dərsin motivasiyası qurula bilər.

– Gördüyünüz kadrlar sizə nə deyir?

– Kadrlarda nədən bəhs edilir?

– İstanbul haqqında nə bilirsiniz?

Alınan cavablar ümumiləşdirilir, lazımi məcraya yönəldilir və tədqiqat sualı elan edilir.

**Motivasiya qurmağın digər yolu.** İKT-dən istifadə imkanı yoxdursa, motivasiyanı beyin həmləsi yolu ilə qurmaq olar. Bunun üçün lövhədən Yaxın Şərqin və ya Avropanın siyasi xəritəsini asaraq Türkiyənin ərazisini şagirdlərə göstərilir və buranın hara olduğu onlardan soruşulur. *Türkiyə* cavabı alındıqdan sonra şagirdlərə:

– Sizə bu dövlətin necə yaradılması maraqlıdırmı?

– Dünyanın ən gözəl şəhərlərindən olan İstanbul necə fəth edilmişdir? sualları ilə müraciət etmək olar.

**Tədqiqat sualı: Osmanlı dövlətinin üç qitədə torpaqlara sahib olması necə baş verdi?**

Layihə

**Tədqiqatın aparılması.** Tədqiqatın fərdi iş formasında aparılması tövsiyə edilir. Tədqiqat sualı elan olunandan sonra "Əgər mən təbiət hadisəsi olsa idim..." (bu üsulun adı şərtidir) təlim üsulundan istifadə etməklə dərsi qurmaq olar. Bunun üçün şagirdlərə aşağıdakıları bildirmək tövsiyə edilir:

– Sizə verilən tapşırıqda yarımçıq bir cümlə yazılıb. Hər kəs ona verilən cümləni tamamlasın. Fikrinizi 2-3 cümlə ilə də tamamlaya bilərsiniz.
– Sizə tapşırığı yerinə yetirmək üçün 2 dəqiqə vaxt verilir.

Şagirdlərə verilən vaxt nisbidir. Bunu sinfin səviyyəsinə və cari dərs planlaşdırılmasına uyğun olaraq artırmaq və ya azaltmaq olar. Şagirdlərdən biri ekspert təyin edilir (ilk dərslərdə ekspert qismində müəllim çıxış etsə, daha yaxşı olar). Ekspertə təkrar olunmayan bütün fikirləri qeydə almaq tapşırılır.

Bu zaman şagirdlərə tədqiqat üçün aşağıdakı tapşırıqları verilə bilər. Bir tapşırığın bir neçə şagirdə verilməsi qaçılmazdır. Bunun özü belə dərsin daha canlı, maraqlı alınmasına, qarşıya qoyulan məqsədə çatmağa yardım edər.

**Tapşırıq № 1**
Əgər mən Anadolu Səlcuq sultanı olsa idim,
______________________________

**Tapşırıq № 2**
Əgər mən Qayı boyu bəyi olsa idim,
______________________________

**Tapşırıq № 3**
Əgər mən Osman qazi olsa idim,
______________________________

**Tapşırıq № 4**
Əgər mən Orxan qazi olsa idim,
______________________________

**Tapşırıq № 5**
Əgər mən Serbiya kralı olsa idim,
______________________________

**Tapşırıq № 6**
Əgər mən I Murad olsa idim,
______________________________

**Tapşırıq № 7**
Əgər mən I İldırım Bəyazid olsa idim,
______________________________

**Tapşırıq № 8**
Əgər mən II Mehmed olsa idim,
______________________________

Layihə

**Tapşırıq № 9**
Əgər mən I Səlim olsa idim,

_______________________________

**Tapşırıq № 10**
Əgər mən Bizans imperatoru olsa idim,

_______________________________

**Tapşırıq № 11**
Əgər mən baş vəzir olsa idim,

_______________________________

**Tapşırıq № 12**
Əgər mən yeniçəri olsa idim,

_______________________________

**Tapşırıq № 13**
Əgər mən dəftərdar olsa idim,

_______________________________

**Tapşırıq № 14**
Əgər mən rəiyyət olsa idim,

_______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.**

Dərsin tədqiqat mərhələsinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir. Təyin edilən ekspert qeydlərini aparır. Bütün şagirdlərin cavabları dinlənildikdən sonra ekspert əldə edilmiş nəticələri şərh edir. Dərsin bu mərhələsi bitəndən sonra növbəti mərhələyə keçid edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Qarşıya qoyulan məqsədə çatmaq, ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verilə bilər. Sualları əvvəlcədən hazırlamaq məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla da müraciət edilə bilər.

- Osmanlı dövlətinin yaranmasının əhəmiyyəti nə idi?
- Osmanlı dövlətinin yaranmasını nə şərtləndirdi?
- Orxan qazinin Osmanlı tarixində oynadığı rolu necə izah edərdiniz?
- II Mehmedin Osmanlı tarixində oynadığı rolu necə izah edərdiniz?
- Osmanlı dövlətinin Balkanlardakı rəqibləri hansı dövlətlər idi?
- Sizcə, nə üçün Sultan Süleyman "Qanuni" adı ilə tanınırdı?

**Yaradıcı tətbiqetmə.** Osmanlı dövləti tarixinə dair zaman oxu tərtib etmək tapşırıla bilər.

**Ev tapşırığı.** Osmanlı dövlətinə aid 8-10 sözdən ibarət krosvord hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, izahetmə

Dərs izləməsi nəticəsində qiymətləndirmə meyarlar üzrə aparılmalıdır. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirmək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı suallar verməklə (Məsələn, "Biz nəticəyə necə gəlib çıxdıq?", "Bütün bu hadisələrin baş verməsinə səbəb nə idi?" və s.) qiymətləndirmə yekunlaşdırıla bilər.

Layihə

# 15 TEYMURİ DÖVLƏTİ




Əmir Teymur, Şahrux, Hüseyn Bayqara, Şeybani dövləti

**Standartlar:**

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Hlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Teymuri dövləti ilə bağlı tarixi faktları xronoloji qaydada sistemləşdirir.
2. Əmir Teymurun Teymuri dövlətinin inkişafında rolunu izah edir.
3. Əmir Teymurun Teymuri dövlətinin inkişafında rolu ilə bağlı məlumatlar toplayır və təqdimat hazırlayır.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş

**Təlim üsulları:** anlayışın çıxarılması, "iki həqiqət və bir yanlış", "X-0" oyunu

**Dərsin gedişi**

**Motivasiya.** Bu dərsdə motivasiya qurmağın ən sadə və rahat yol əvvəlki dərslərdə (12, 13 və 14-cü mövzuların tədrisi zamanı) əldə edilən biliklərə əsaslanmaqdır. Bu zaman anlayışın çıxarılması üsulundan istifadə edilə bilər.




*Əmir Teymur* cavabını alandan sonra şagirdləri yeni dərsə kökləyib tədqiqat sualını elan etmək olar.

**Motivasiya qurmağın digər yolu.** Əgər İKT-dən istifadəyə imkan varsa, "Nəsimi" filmindən Nəsimi ilə Əmir Teymurun qarşılaşması səhnəsini (*https://www.youtube.com/watch?v=lHWDd7N9J0M* linkinə istinad etməklə bəhs olunan kadrı tapmaq olar) nümayiş etdirib onlara aşağıdakı suallarla müraciət edilə bilər:

Layihə

– İzlədiyiniz kadrlarda nədən bəhs edilir?
– İzlədiyiniz kadrlardan sizə nə aydın oldu?

Verilən cavabları ümumiləşdirib yeni dərsə keçid etmək mümkün olacaqdır.

**Tədqiqat sualı: Teymuri dövlətinin yaranması və inkişafında Əmir Teymurun hansı rolu olmuşdur?**

**Tədqiqatın aparılması.** "İki doğru və bir yanlış" üsulunun köməyi ilə dərsin tədqiqatın aparılması mərhələsi həyata keçirilə bilər. Sinif kiçik qruplara bölünür. Hər qrupa bir mövzu verilir, aşağıdakı tapşırıqlar icra edilir:

– Bu mövzu haqqında üç fikir yazın.
– Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Bu zaman yanlış doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.
– Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup.** Teymuri dövlətinin yaradılması haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**II qrup.** Əmir Teymurun fəthləri haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**III qrup.** İmperiyanın daxili siyasəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**IV qrup.** Teymurilərin zəifləməsi və süqutu haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutduğunuz vaxt bitdikdən sonra hər bir qrupun təqdimat edilməsi təşkil edilir. Bu zaman digər qruplar təqdim edilən üç fikirdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də dərsin məqsədinə söykənəcək üç fikir söyləməsi (təbii ki, ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı. Bu qarşıya qoyulan məqsədə çatmağa kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə dərsi yekunlaşdırmaq olar. Bunun üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

– Teymuri dövləti necə yaradıldı?
– Sərbadarilər üsyanının nəticəsi nə oldu?
– Əmir Teymurun "Teymurun qanunları" adlı qanunlar toplusunu qəbul etməsinin səbəbi nə idi?
– Toxtamışın Əmir Teymurla mübarizə aparmasının səbəbi nə idi?
– Əmir Teymurun yürüşlərində iqtisadi məqsəd nə idi?

Layihə

– 1402-ci il Ankara döyüşünün səbəbi nə idi?
– Teymuri dövlətinin inzibati quruluşu necə idi?

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə əvvəlki dərslərdə təklif olunan "X-0" oyunu keçirilə bilər. "NÜMUNƏ 1"-dəki kimi vərəq paylanılır.

**Nümunə 1**

| | | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 4 | 5 | 6 |
| 7 | 8 | 9 |

Əvvəlki dərslərdə bu üsulun tətbiq edilməsinə rəğmən, şagirdlərdə çaşqınlığın olmaması üçün onlara qaydalar bir də xatırladılır: Sizə səsləndirəcəyi cümlənin doğru olduğunu fikirləşirsinizsə, sizə verilən cədvəlin birinci xanasına "0" işarəsini yazın. Yox, əgər cümlə fikrinizcə səhvdirsə, onda cədvəlin birinci xanasına "X" işarəsi yazın. Yaxşı olar ki, bu deyilənləri lövhədə bu formada qeyd edəsiniz:

"0" – doğrunu;

"X" – yanlışı bildirir.

Şagirdlərə deyiləcək cümlələr aşağıdakı kimi ola bilər:

1. Səfəvi dövləti teymuriləri himayə edirdi.
2. Əmir Teymurla Toxtamış arasındakı mübarizə 1395-ci ilədək davam etdi.
3. Qaraxanlılar Teymuri dövlətinin varlığına son qoydu.
4. Ankara döyüşündə osmanlılar məğlub oldu.
5. 1370-ci ildə Əmir Teymur Toğluq Teymurla mübarizədə qalib gələrək dövlət qurdu.
6. Hüseyn Bayqara Teymuri dövlətinin paytaxtını Herata köçürtdü.
7. Teymuri hökmdarı Uluqbəy həm də məşhur astronom idi.
8. XIV əsrin sonlarında Əmir Teymur Ərəbistana yürüş etmişdi.
9. Əmir Teymur türkləşmiş Barlas qəbiləsindən idi.

Bu cümlələrə şagirdlər tərəfdən doğru cavab verilsə, cədvəl nümunə 2-də olduğu kimi tamamlanacaq:

**Nümunə 2**

| | | |
|---|---|---|
| 1 0 | 2 0 | 3 X |
| 4 0 | 5 X | 6 X |
| 7 0 | 8 X | 9 0 |

**Ev tapşırığı.** "Əmir Teymurun Teymuri dövlətinin inkişafında rolu" haqqında təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** sistemləşdirmə, izahetmə, məlumat toplama və təqdimat hazırlama

Yuxarıda verilmiş meyarlar əsasında və dərsin izlənməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə və səviyyələr üzrə qiymətləndirilə bilər. Sonuncu meyar üzrə dərs prosesində şagirdlərin qiymətləndirilməsi onlara verilən ev tapşırığının yerinə yetirilib təqdim edilməsindən sonra mümkün olacaqdır. Bütün şagirdlərin ev tapşırığını icra etməsini təmin etmək üçün onlara tapşırığının qiymətləndiriləcəyi barədə öncədən məlumat vermək məqsədəmüvafiqdir.

Layihə

# 16 XAÇLI YÜRÜŞLƏRİ




Səlib, katolik, indulgensiya, Qüds krallığı, Səlahəddin Əyyubi, Qranada əmirliyi

**Standartlar:**

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Xaçlı yürüşləri zamanı mühüm tarixi faktları xronoloji qaydada sistemləşdirir.
2. Feodal münasibətlərinin inkişafını geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, fasiləli oxu, zaman oxu üzərində iş

**Dərsin gedişi**

**Motivasiya.** Dərsə motivasiya qurmaq üçün lövhədə “buddizm, iudaizm, islam, atəşpərəstlik, tanrıçılıq” sözlərini yazıb şagirdlərə aşağıdakı suallar verilə bilər:

– Bu sözləri birləşdirən ümumi cəhət nədir?

*İlahi qüvvəyə inam* və ya *din* cavabları alındıqdan sonra növbəti sual verilir.

– Bu dinlər arasında hansı təkallahlı din unudulub?

Lazımi cavab alınandan sonra ümumiləşdirmə aparılıb tədqiqat sualı elan edilir.

**Motivasiya qurmağın digər yolu.** “Səmavi padşahlıq” filmindən Səlahəddin Əyyubinin Qüds şəhərinə hücum kadrını (və ya sizin mühüm saydığınız digər bir kadrı) şagirdlərə göstərib onlara aşağıdakı suallarla müraciət edilə bilər:

– Gördüyünüz kadrlar nədən bəhs edir?

– Bu barədə nə bilirsiniz?

Alınan cavablar ümumiləşdirilərək tədqiqat sualı elan olunur və yeni dərsə keçid edilir.

**? Tədqiqat sualı: Xaçlı yürüşləri Avropaya nə verdi?**

**Tədqiqatın aparılması.** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Məlum olduğu kimi, bu üsulla dərsi keçən zaman şagirdlərə növbə ilə mövzunu oxudub müəyyən hissələrdə fasilələrə yol verilməlidir. Mövzuarası verilmiş sual və tapşırıqlar fasilə hissələri ola bilər. Şagirdlərin səviyyəsindən asılı olaraq, bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də etmək olar. Şagirdlərə dərslikdə verilmiş suallarla müraciət edilə bilər:

– Qərbi Roma imperiyasının yerində yaranmış hansı dövlətin başçısı – kralı xristianlığı qəbul etmişdi?

Layihə

– Xristian kilsəsi niyə parçalandı?
– Bidətçi kimə deyirdilər?
– Xaçlı yürüşlərinin əsil səbəbləri hansılar idi?
– Xaçlı yürüşlərinin qarətçilik xarakteri özünü hansı yürüşdə daha qabarıq göstərdi?
– Avropada müsəlmanlara qarşı xaçlı yürüşü nəticəsində hansı yeni dövlətlər yarandı?

Sualların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşmaq lazımdır. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onlarda münasibət bildirmə, izahetmə bacarıqlarını da formalaşdırmaqda yardımçı olar.

Tövsiyə edirik ki, şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd etsin. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olar. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalarla yanaşı, mənbələr də diqqət mərkəzində saxlanılmalıdır. Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin qiymətləndirilməsi həyata keçirilə bilər.

Fasiləli oxu bitdikdən sonra mövzu ilə yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid edilir. Burada şagirdlərə əlavə olaraq papanın mütləq hakimliyi, onun gəlir mənbələri, xaçlı yürüşlərinin səbəb və nəticə əlaqələri ilə bağlı əlavə sual və tapşırıqlar verilə bilər. Şagirdlərin cavabları dinlənilir. Arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da dərsin bu mərhələsi yekunlaşdırılmış olur. Dərsin məqsədinə və tədqiqat sualına yönəlmiş suallar əvvəlcədən hazırlanmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət edilə bilər:

– Papanın gəlir mənbəyi haradan idi?
– Sizcə, indulgensiya satışı doğrudurmu? Fikrinizi əsaslandırın.
– Papaların Qərbi Avropada nüfuzlu olduğunu haradan görmək olar?
– I Xaçlı yürüşünün nəticəsi nə oldu?
– Pireney yarımadasında səlibçilərin uğur qazanmasının səbəbi nə idi?
– Xaçlı yürüşlərinin Qərbi Avropaya iqtisadi baxımdan hansı xeyri oldu?
– Xaçlı yürüşlərinin Qərbi Avropaya texnoloji baxımdan hansı xeyri oldu?
– Xaçlı yürüşlərinin Qərbi Avropaya siyasi baxımdan hansı xeyri oldu?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Qərbi Avropada feodal münasibətlərinin inkişafını geosiyasi məkanda baş verən dəyişikliklərlə əlaqələndirə, Xaçlı yürüşlərinin Qərbi Avropa üçün nəticələrini sadalaya biləcəklər.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə tarixi faktları zaman oxu üzərində xronoloji ardıcıllıqla sistemləşdirmək tapşırılır.

**Ev tapşırığı:** Səlib yürüşlərinin nəticələri ilə bağlı sxem hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** sistemləşdirmə, əlaqələndirmə.

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdlərin bilik və bacarıqlarını, əsasən, 4 səviyyə üzrə qiymətləndirməli, bu səviyyələr meyara uyğun həyata keçirilməlidir. Bu səviyyələr ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər.

Layihə

# 17 İTALİYA

ticarət, kommuna,
şəhər-respublikalar, Venesiya




**Standart:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədi:**

İtaliya şəhər-dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim formaları:** böyük qruplarla iş və cütlərlə iş

**Təlim üsulları:** beyin həmləsi, ardıcıl suallar üsulu, krosvord qurma

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərs üçün motivasiya qurmağın bir neçə yolu təklif olunur. Müəllim təklif olunan formalardan birini seçməkdə və ya öz motivasiyasını qurmaqda sərbəstdir.

**Motivasiya qurmağın birinci yolu.** Şagirdlərin diqqəti bu dərsdən əvvəlki mövzuya, daha doğrusu, IV Xaçlı yürüşünə yönəldilir və onlara aşağıdakı suallar verilir:

– IV Xaçlı yürüşü hansı ölkə üzərinə təşkil edilmişdi?

– Bu yürüşün nəticəsi nə oldu?

– Bu yürüş zamanı niyə Bizansın paytaxtı Konstantinopol hədəf götürülmüşdü?

Şagirdlərdən müvafiq cavab (Venesiya ilə ticari rəqabət) alandan sonra onlara "Venesiya haradır?", "Venesiya haqqında nə bilirsiniz?" sualları ilə müraciət edilir. Cavablar ümumiləşdirilir və dərsin növbəti mərhələsinə keçid edilir.

**Motivasiya qurmağın ikinci yolu.** Lövhədə veksel, çek, pul, qiymətli kağız sözləri yazılır, şagirdlərə "Bu sözləri birləşdirən ümumi cəhət nədir?" sualı ilə müraciət edilir. *Bank* cavabını alandan sonra şagirdlərə "Dünyada ilk bankların nə vaxt, harada və necə yarandığı sizə maraqlıdırmı?" sualı verilir. Bunun ardınca bir-iki əlaqələndirici cümlə ilə şagirdlər yeni dərsə köklənir və tədqiqat sualı elan edilir.

**? Tədqiqat sualı: İtaliya şəhər-dövlətlərinin yaranmasına hansı sosial-siyasi amillər təsir etdi?**

Layihə

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün ardıcıl suallar üsulundan istifadə edilməsi tövsiyə edilir. Mətn abzaslara bölünür, hər abzas bir şagird tərəfindən ucadan oxunur, digər şagird ona opponent təyin edilir. Abzasın oxunması bitdikdən sonra opponent mətni oxuyan şagirdə oxuduğu abzasdan bir və ya bir neçə sual verir, birinci şagird onun sualını cavablandırır. Sonra sual verən şagird oxumağa davam edir, ikinci isə oxunan abzasdan ona sual verir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub-anlama vərdişləri ilə yanaşı, sual hazırlamaq, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Ardıcıl suallar üsulunun tətbiqi ilə tədris **məlumatın mübadiləsi və müzakirəsi mərhələsi** ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Aşağıdakı yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab almaq olar:

- Klassik feodalizm dövründə İtaliyada siyasi vəziyyət necə idi?
- IX–X əsrlər şəhərlər harada yaranırdı?
- Şəhərlilərə böyük gəlir gətirən nə idi?
- Şəhər-respublikalar necə yarandı?
- Hakimiyyətin ayrı-ayrı ailələrin əlinə keçməsi idarəçilikdə hansı dəyişikliklərə səbəb ola bilərdi?
- Vasitəçi ticarət nə deməkdir?
- Azərbaycanla daha sıx əlaqələr quran şəhər-respublika hansı idi?
- Venesiyanın Aralıq dənizi ticarətindəki üstün mövqeyi nə vaxtadək davam etdi?

**Yaradıcı tətbiqetmə.** Mövzuda rast gəlinən əsas söz, ifadə, termin və mühüm hadisələrdən istifadə edərək şagirdlərə 5-6 sözdən ibarət krosvord qurmaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** şərhetmə

Şagirdlərin qiymətləndirilməsi yuxarıda yazılmış meyara uyğun səviyyələr üzrə aparıla bilər.

Refleksiya üçün aşağıdakı suallardan istifadə etmək olar:

- Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
- Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
- Yeni mövzu üzərində necə işlədiniz?
- Sizə nə aydın olmadı?
- Hansı suallarınız var?

Layihə

# 18 FRANSA




mərkəzləşdirilmiş dövlət, Paris, IV Gözəl Filipp, Baş ştatlar, Yüzillik müharibə, Janna d`Ark, Puatye döyüşü, Azenkur döyüşü, Jaklar üsyanı, XI Lüdoviq

**Standartlar:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Mərkəzləşdirilmiş Fransa dövlətinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

2. Fransada dövlətin və mədəniyyətin inkişafında IV Gözəl Filippin rolu ilə bağlı məlumat toplayıb təqdimat hazırlayır.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş

**Təlim üsulları:** beyin həmləsi, fasiləli oxu, "X-0" oyunu

**Dərsin gedişi**

**Motivasiya.** *https://youtu.be/ll27Q26rnEU* linkindən istifadə etməklə şagirdlərə Janna d`Ark haqqında məlumat verilir, yaxud "Janna d`Ark" filmindən seçilən kiçik bir epizod nümayiş etdirilir və aşağıdakı suallar ünvanlanır:

– Seyr etdiyiniz kadrlardan sizə nə aydın oldu?
– Sizcə, izlədiyiniz kadrlar nədən bəhs edir?
– Sizcə, bir ölkə nə zaman müstəqilliyini itirmək təhlükəsi ilə üzləşə bilər?

Alınan cavablar ümumiləşdirilir və tədqiqat sualı elan edilir.

**? Tədqiqat sualı: Mərkəzləşdirilmiş Fransa dövlətinin yaranması necə baş verdi?**

**Tədqiqatın aparılması.** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Şagirdlərə növbə ilə mövzu oxudulur, müəyyən hissələrdə fasilələrə yol verilir, şagirdlərə sual və tapşırıqlarla müraciət edilir. Şagirdlərin səviyyəsindən asılı olaraq bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də etmək mümkündür.

layihə

- XI–XII əsrlərdə Fransanın şimalı və cənubu arasında hansı sosial-iqtisadi və siyasi inkişaf fərqləri vardı?
- Coğrafi mövqe və təbii amillər sosial-iqtisadi inkişafa necə təsir göstərə bilər?
- Mətnə əsasən 103-cü səhifədə verilmiş şəkildə ingilis ordusunu müəyyənləşdirin.
- İngiltərə və Fransa ordusunun oxşar və fərqli cəhətlərini müəyyən edin.

Dərslikdəki sual və tapşırıqlar şagirdlərlə müzakirə edilir. Şagirdlərin fikirlərinə hörmətlə yanaşmaq lazımdır. Çünki bu yaş dövrünün şagirdləri söylədikləri fikrin qəbul olunmaması ilə razılaşmaya bilər və bu da onları həvəsdən salar. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərinin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onlarda əlaqələndirmə bacarığının da formalaşdırılması üçün istiqamət verəcəkdir.

Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin dəyərləndirməsi həyata keçirilir. Şagirdlərin fikirlərindən ən zəruri sayılanların lövhədə qeyd edilməsi tövsiyə edilir. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olacaq. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, xəritə, şəkillər, illüstrasiyalar da diqqət mərkəzində saxlanılmalıdır. Qeyd etmək istərdik ki, 16-cı mövzunun tədrisi zamanı bu dərs üsulundan istifadə dərsin daha uğurlu alınmasına yardımçı olar.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Fasiləli oxu bitdikdən sonra mövzu ilə bağlı yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid əldə etmək mümkündür. Şagirdlərə əlavə sual və tapşırıqlar vermək məqsədəmüvafiqdir. Şagirdlərin cavabları dinlənilir, arqumentlər lövhədə qeyd edilir, fikirlər müzakirə edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici suallarla müraciət etmək olar:

- XI–XII əsrlərdə Fransada vahid xalqın formalaşmasına mane olan səbəb nə idi?
- Fransanın siyasi birləşdirilməsinə təsir göstərən amillərdən hansını sadalaya bilərsiniz?
- Mərkəzləşdirilmiş dövlətin yaranmasına ən böyük maneə kimlər idi? Niyə belə hesab edirsiniz?
- Mərkəzləşdirilmiş Fransa dövlətinin yaranmasında IV Gözəl Filippin atdığı hansı addımı daha yüksək qiymətləndirirsiniz?
- 1356-cı il Puatye döyüşündə Fransanın məğlubiyyətinin səbəbləri hansılar idi?
- Jaklar üsyanının nəticəsi nə oldu?
- XI Lüdoviq rəqiblərini hansı yolla məğlub etdi?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər mərkəzləşdirilmiş Fransa dövlətinin yaranması, idarəçilik formaları, sosial-iqtisadi və siyasi münasibətlərini şərh edirlər.

**Yaradıcı tətbiqetmə.** Bu zaman əvvəlki dərslərdə onlara məlum olan "X-0" oyunundan istifadə etmək olar. Bunun üçün, ilk növbədə, şagirdlərə aşağıdakı kimi bir vərəq paylanılır.

**Nümunə 1**

| | | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 4 | 5 | 6 |
| 7 | 8 | 9 |

Layihə

Müəllim vərəqləri şagirdlərə payladıqdan sonra onlara bir cümlə səsləndirəcəyini bildirir və tapşırığı izah edir. Şagirdlər cümlədəki fikrin doğru olduğunu düşündüklərində cədvəlin birinci xanasına “0”; cümlədəki fikri  səhv hesab etdikdə birinci xanaya “X” işarəsi yazır. Beləliklə, müəllim şagirdlərə 9 cümlə səsləndirir, hər cümlədən sonra şagirdlərin cədvəldə müvafiq qeydlər etmələrini tapşırır. Səsləndirilən cümlələrin 4-ü səhv, 5-i isə düz (və ya əksinə, buna özünüz qərar verməlisiniz) olmalıdır.

Şagirdlərə aşağıdakı cümlələri vermək olar:

1. Fransanın vahid dövlət halında birləşdirilməsi, əsasən, 1453-cü ildə başa çatdı.
2. Orlean XIII əsrin sonunda bütün Şimali Fransanın ən böyük iqtisadi mərkəzinə çevrildi.
3. IV Filippin Baş ştatları çağırmaqda məqsədi papaya qarşı mübarizədə ölkənin bütün təbəqələrinin dəstəyini qazanmaq idi.
4. Yüzillik müharibənin gedişində Janna d`Ark müharibənin taleyində dönüş yarada bildi.
5. Yalnız Kale limanı ingilislərdə qaldı – bu, Jaklar üsyanının nəticəsi idi?
6. 1360-cı ildə İngiltərə ilə ağır şərtlərlə sülh müqaviləsinin bağlanmasında məqsəd vaxt qazanmaq idi
7. Tuluza qraflığı mahud istehsal edən və ticarət mərkəzləri olan şəhərləri ilə tanınırdı.
8. 1415-ci ildə Azenkur döyüşündə İngiltərə qalib gəldi.
9. Fransanın iqtisadi cəhətdən birləşdirilməsinə vahid pul sisteminin tətbiqi kömək etdi.

Şagirdlər sualları doğru cavablandıracaqları halda cədvəl nümunə 2-dəki kimi olacaqdır:

**Nümunə 2**

| | | |
|---|---|---|
| 1 X | 2 X | 3 0 |
| 4 0 | 5 X | 6 0 |
| 7 X | 8 0 | 9 0 |

**Ev tapşırığı.** Fransa dövlətinin və mədəniyyətinin inkişafında IV Gözəl Filippin rolu ilə bağlı məlumatlar toplayıb təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** şərhetmə, məlumat toplama və təqdimatlar hazırlama

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Bu zaman qiymətləndirmə qaydalarına uyğun olaraq müəllim sinfinin şagirdlərinin bilik və bacarıqlarını meyarlara uyğun 4 səviyyə üzrə qiymətləndirir. Bu səviyyələr ən zəif bacarığa malik şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər.

Yuxarıda verilmiş meyar üzrə şagirdləri qiymətləndirmək onlara verilən ev tapşırığı yerinə yetirildikdən sonra həyata keçirilə bilər.

Layihə

# 19 İNGİLTƏRƏ

Hastinqs döyüşü, Norman işğalı, parlament, Uot Tayler üsyanı, Al qızılgül və Ağ qızılgül müharibəsi




**Standartlar:**

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

3.1.2. Feodal dövlətlərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**Təlim məqsədləri:**

1. İngiltərədə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
2. Mərkəzləşdirilmiş İngiltərə dövlətinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.
3. İngiltərə və Fransa dövlətlərində baş verən hadisələrin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, mikrofon, zaman oxu ilə iş

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərs üçün motivasiya qurmağın bir neçə yolu təklif edilə bilər.

**Motivasiya qurmağın birinci yolu.** 18-ci mövzudan çıxış edərək motivasiyanı qurmaq üçün beyin həmləsi üsulundan istifadə edilir, şagirdlərə aşağıdakı suallar verilir:

– Ötən dərsdə biz hansı dövlətdən bəhs etdik?
– Sizcə, Fransada mərkəzləşdirilmiş dövlət qurmaq üçün ən böyük maneə nə idi?
  *İngiltərə dövləti* cavabını aldıqdan sonra növbəti sual verilir:
– Sizcə, Yüzillik müharibə dövründə İngiltərədə mərkəzləşdirilmiş dövlət var idimi?
– Bəs bu dövlətin necə yaradılması sizə maraqlıdırmı?

**Motivasiya qurmağın ikinci yolu**. Şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– Avropanın aparıcı dövlətlərindən hansını tanıyırsınız?

Layihə

– Sizcə, XI–XV əsrlərdə İngiltərə Avropanın aparıcı dövlətinə çevrilə bilmişdirmi? Fikrinizi əsaslandırın.

Verilən cavablar dinlənilir, şagirdlər lazımi məcraya yönəldilir. Daha sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Mərkəzləşdirilmiş İngiltərə dövlətinin yaranma prosesi necə baş verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatı aparmaq üçün "mikrofon" üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, onlara bu dərs üsulunun qaydaları xatırladılır. Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı:

– İngilis xalqı necə yarandı?
– Vilhelm Hastinqs döyüşündə necə qalib gəldi?
– Hastinqs döyüşünün İngiltərə üçün nəticəsi nə oldu?
– İngiltərədə kral hakimiyyəti necə qüvvətləndi?
– Norman işğalının İngiltərə üçün nəticələri nə oldu?
– Dövlətin möhkəmləndirilməsində II Henrixin rolunu şərh edin.
– İngiltərənin dövlət dili və əhali təbəqəsi haqqında nə bilirsiniz?
– Parlament necə yaradıldı?
– "Qara ölüm" haqqında nə bilirsiniz?
– Uot Tayler üsyanını şərh edin.
– Al qızılgül və Ağ qızılgül müharibəsini şərh edin.
– I Yelizavetanın siyasi fəaliyyətini şərh edin.

Suala ilk cavab verməyə hazır olanlardan birinə "mikrofon" verilir. Dərs prosesində mikrofonun bir şagirddən növbə ilə digər şagirdə keçməsinə nəzarət edilir. Bir məsələ ilə bağlı bir neçə şagirdi dinləmək mümkündür. Dərsin bu mərhələsində şagirdlərin cavabları şərh edilmir və qiymətləndirilmir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlərin çıxışları bitəndən sonra müəllim şagirdlərin fikirlərini ümumiləşdirir və öz yanaşmasını təqdim edir. Müəllim şagirdlərdən əlavə fikirlər ala, onların fikirlərini yekunlaşdıra bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra tədqiqat sualına cavab tapmaq, təlim məqsədinin reallaşdırılmasını təmin etmək üçün aşağıdakı suallarla şagirdlərə müraciət edilir:
– Dövlətin mərkəzləşdirilməsində mühüm rol oynayan hadisə nə oldu?
– "Qalxan pulu"nun mahiyyəti nədən ibarət idi?
– Kral məhkəməsinin iş prinsipi necə idi?
– Parlamentin dövlət idarəçiliyində hansı rolu var idi?
– Uot Tayler üsyanının başlanma səbəbi nə idi?
– Üsyan nə ilə nəticələndi?
– Al qızılgül və Ağ qızılgül müharibəsi nə ilə nəticələndi?
– Dəniz ticarəti və müstəmləkələr uğrunda mübarizədə İngiltərənin mövqeyi necə gücləndi?

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə İngiltərənin XI–XV əsrlər tarixi ilə bağlı zaman oxu hazırlamaq tapşırılır.

Layihə

**Ev tapşırığı.** Uot Tayler və Jaklar üsyanlarının oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlamaq tapşırığı verilir.

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, şərhetmə, cədvəl hazırlama

Şagirdlərin formativ qiymətləndirilməsi meyarlar əsasında müxtəlif vasitələrdən istifadə edilməklə həyata keçirilir. Sonuncu meyar üzrə qiymətləndirmə şagirdlərə verilən ev tapşırığının icrasından sonra növbəti dərsdə mümkün olacaqdır.

Dərsin sonunda refleksiya üçün aşağıdakı suallardan istifadə etmək olar:

Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?

– Sizə nə aydın olmadı?

– Hansı suallarınız var?

– Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?

# 20 REFORMASİYA




Martin Lüter, Tomas Münser, Auqsburq müqaviləsi, protestantlıq

**Standart:**

3.1.1. Feodal dövlətlərinin (Çin, Sasani, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim məqsədi:**

Almaniyada XVI əsrdə feodal münasibətlərinin inkişafı, idarəçilik formaları və sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş, fərdi iş

**Təlim üsulları:** beyin həmləsi, "iki doğru və bir yanlış", Venn diaqramı

Layihə

**Dərsin gedişi**

**Motivasiya. Birinci üsul.** Müasir dövrdə əksər şagirdlərin ingilis dilini bildiyini nəzərə alaraq müəllim “protest” və “reform” sözlərinin mənasını soruşmaqla motivasiyanı qura bilər. Bunun üçün də həmin sözləri lövhədə yazmaqla onların tərcüməsini soruşa bilər. Alınan cavablar lövhədə “protest” və “reform” sözlərinin qarşısında yazılır. Daha sonra şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– Sizcə, Orta əsr Avropasında insanlar nəyə etiraz edə bilərdilər?
– Sizcə, öyrəndiyiniz dövrdə Avropada dövlətlərin, dövlətçiliyin inkişafına başlıca maneə nə ola bilərdi?
– Sizcə, Orta əsr Avropasında hansı sahədə islahatlar keçirmək vacib idi?

Alınan müxtəlif məzmunlu cavablar ümumiləşdirilir. Əgər verilən suallara şagirdlər tərəfindən məqsədəmüvafiq cavablar verilməzsə, onlara 1302-ci ildə Fransada Baş ştatların çağırılması və nəticələri xatırladılır və diqqət lazımi məcraya yönəldilir.

**İkinci üsul.** Motivasiyanı şagirdlərin əvvəlki bilikləri əsasında da qurmaq olar. Bunun üçün onlara aşağıdakı və ya müəllimin özünün hazırladığı suallarla müraciət etmək olar:

– İndulgensiya nədir?
– Sizcə, papaların bu fərmanı verməyə haqqı var idimi?
– Bidətçi kimə deyilirdi?
– Kilsə bidətçilərə qarşı hansı tədbiri görürdü?
– Sizcə, Orta əsr Avropasında insanlar kilsənin yürütdüyü siyasətdən tam razı idilərmi?
– Sizcə, ümumi narazılıq nəyə gətirib çıxara bilər?

Sonuncu sualın cavabı kimi *etirazlara, narazılığa, dəyişikliyə* sözlərini alandan sonra tədqiqat sualı elan edilir, yeni dərsə keçid edilir.

**Tədqiqat sualı: Almaniyada reformasiya necə baş verdi?**

**Tədqiqatın aparılması.** “İki doğru və bir yanlış” üsulunun köməyi ilə tədqiqatın aparılması mərhələsi həyata keçirilə bilər. Bu zaman sinif kiçik qruplara bölünür, hər qrupa bir mövzu verilir, onlara növbəti tapşırıq təqdim edilir:

– Bu mövzu haqqında üç fikir yazın.
– Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Bu zaman yanlış doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.
– Yazılan fikirlər dərslikdən olmamalıdır.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup.** Reformasiyanın Almaniyada başlanmasına şərait yaradan səbəbləri müəyyən edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**II qrup.** Almaniyada reformasiyanın necə başlamasını şərh edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

Layihə

**III qrup.** Reformasiyanın nəticələri haqqında fikirlərinizi yazın.
1. ____________________________________________
2. ____________________________________________
3. ____________________________________________

**IV qrup.** Almaniyada kəndli müharibəsini şərh edin.
1. ____________________________________________
2. ____________________________________________
3. ____________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun təqdimatı dinlənilir. Bu zaman digər qruplar təqdim edilən bu üç fikirlərdən hansının yanlış olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də dərsin məqsədinə uyğun üç fikir söyləməsi (ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə yönləndirici suallar vasitəsilə dərsi yekunlaşdırmaq və şagirdlərə aşağıdakı suallar verilə bilər:
- Almaniyanın dağınıq olmasına səbəb nə idi və bu hansı problemləri yaradırdı?
- Reformasiyayaqədərki dövrədək Almaniyada dini həyatı necə şərh etmək olar?
- Almanların, əsasən, şəhərlərdə deyil, kəndlərdə yaşaması reformasiyanın başlanmasına necə şərait yarada bilərdi?
- Sizcə, Martin Lüterin dini məktəbdə təhsil alması onun gələcək fəaliyyətinə necə təsir göstərdi?
- Protestantlıq necə yarandı?
- Reformasiyanın uğur qazanmasında mətbəənin rolu nədə idi?
- Reformasiya katolik kilsəsinə hansı zərbəni vurdu?
- Almaniyada kəndli müharibəsinin məğlubolma səbəbləri hansılar idi?

**Yaradıcı tətbiqetmə.** Martin Lüter və Tomas Münserin reformasiyaya münasibətlərinin oxşar və fərqli cəhətlərinin Venn diaqramında müqayisə edilməsi məqsədəmüvafiqdir.

**Qiymətləndirmə meyarı:** şərhetmə
Yuxarıda verilmiş meyarlar əsasında şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Bu mərhələdə müəllim müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin (şagirdlərin) hansı meyara (meyarlara) cavab verdiyini dəqiqləşdirə və səviyyələr üzrə qiymətləndirə bilər.

Layihə

# 21 TEXNİKİ İXTİRALAR. BÖYÜK COĞRAFİ KƏŞFLƏR

domna sobaları, müşket, karavella, Xristofor Kolumb, Ameriqo Vespuççi, Magellan, hindu




**Standartlar:**

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

**Təlim məqsədləri:**

1. XV–XVI əsrlərdə feodal münasibətlərinin inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.
2. XV–XVI əsrlərdə dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, karusel

**Dərsin gedişi**

**Motivasiya. Birinci üsul.** Motivasiya qurmaq üçün lövhədə aşağıdakı formada cədvəl çəkilir və şagirdlərin köməyi ilə cədvəl doldurulur.

| | Qədim dövrdə | Müasir dövrdə |
|---|---|---|
| nəqliyyat vasitəsi | | |
| silah | | |
| yazı vəsaiti | | |

Cədvəl tamamlandıqdan sonra şagirdlərə "Sizcə, bu və ya bu kimi dəyişikliklər nəyin sayəsində baş verir?" sualı verilir. *İxtiralar, texniki nailiyyətlər* cavabları alınır, sonra tədqiqat sualı elan olunur və yeni dərsə keçid edilir.

**İkinci üsul.** Şagirdlərə aşağıdakı sualları ünvanlamaqla motivasiya qurmaq mümkündür.

– Təyyarələrin, müasir şose və qatar yollarının olmadığı dövrdə uzaq bir ölkəyə səfər etmək üçün ən qısa və sərfəli yol nə ola bilərdi?

Layihə

*Dəniz yolu* cavabını alandan sonra növbəti sual verilir:

– Sizcə, dəniz səfərinə çıxan gəmilər hansı naviqasiya cihazlarından istifadə edirlər?
– Bəs bu cihazlar qədim dövrdə var idimi?

Alınan cavablar ümumiləşdirilir, şagirdlərin diqqəti yeni mövzuya yönəldilir və yeni dərsə keçid edilir.

**Tədqiqat sualı: Texniki ixtiralar Böyük coğrafi kəşflərə necə yol açdı?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş forması və karusel üsulundan istifadə etməklə dərsi qurmaq olar. Qısa şəkildə şagirdlərə dərs üsulu haqqında məlumat verilir. Bu dərs üsulu bir qədər çox vaxt tələb etdiyindən şagirdlərə veriləcək sual və tapşırıqlar daha konkret olmalı, yerinə yetirilməsi nisbətən az vaxt aparmalıdır. Qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar, yaxud müəllimin məsləhət bildiyi tapşırıqlar verilə bilər.

**I qrup.** XV–XVI əsrlərdə baş verən texniki ixtiraları coğrafi kəşflərlə əlaqələndirin.

**II qrup.** Amerikanın kəşf edilməsini təsvir edin.

**III qrup.** Hindistana dəniz yolunun kəşf edilməsini Şərq ölkələrinə yeni yolların axtarışı ilə əlaqələndirin.

**IV qrup.** Böyük coğrafi kəşflərin nəticələrini müəyyənləşdirin.

Karusel üsulunun birinci mərhələsində qrup işinə ayrılmış vaxt bitdikdən sonra, əslində, müəllim dərsin yeni mərhələsinə – məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid almış olur. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların fikir və mülahizələri ilə tanış olmaq və "rəqiblərinin" yazdıqlarına münasibət bildirmək imkanına malik olur. Dərsin bu mərhələsi bitəndən sonra növbəti mərhələyə keçid edilə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində də keçirmək mümkündür. Bu halda müəllim ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verə bilər. Verilən suallar əvvəlcədən hazırlanmalıdır. Şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– XV–XVI əsrlərdə hansı texniki yeniliklər baş verdi?
– Amerika qitəsinin kəşf olunması nəyə xidmət edirdi?
– Müstəmləkə işğallarına gətirib çıxaran amillər hansılar idi?
– Odlu silahın istehsalı hərb sahəsində hansı yeniliklərə səbəb oldu?
– Sizcə, Hindistana dəniz yolunun axtarışı çox vacib idimi? Fikrinizi əsaslandırın.
– İlk dünya səyahəti nəyi sübuta yetirdi?

**Ev tapşırığı.** Metodik vəsaitin sonunda verilmiş kontur xəritəni çoxaldaraq şagirdlərə təqdim etmək və onlara aşağıdakı tapşırığı və yaxud müəllimin özünün hazırladığı tapşırığı vermək olar. Vaxt itkisi olmasın deyə tapşırığı əvvəlcədən iş vərəqlərində yazaraq şagirdlərə paylamaq məqsədəmüvafiq olardı.

**Şagirdlərə verilən tapşırıq:**

1. Öyrəndiyiniz tarixi bilgilər əsasında kontur xəritəni rəngləyin. Müxtəlif rəng çalarlarından istifadə etməklə şərti işarələri özünüz düşünün.

2. Bu zaman əsas diqqət yetirdiyiniz məsələlər aşağıdakılar ola bilər:

- bu ərazidə dövlətin nə zaman yaranması;
- bu ərazinin daha çox dövlətin tərkibində olması;
- mədəni cəhətdən daha yüksək səviyyəyə çatması;
- yeni kəşf edilmiş ərazilər olması və s.

Layihə

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, təhliletmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələdə müxtəlif suallar verməklə də təlim prosesində şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək mümkündür. Bu zaman yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə şagirdləri qiymətləndirmək mümkündür. "Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir." meyarı üzrə şagirdləri qiymətləndirmək onlara veriləcək ev tapşırığının icrasından sonra daha məqsədəmüvafiq olardı. Çünki karusel üsulu ilə dərsi keçərkən şagirdlərə xəritə üzərində iş tapşırmaq mümkün olmaya bilər.

# 22 ŞƏRQ XALQLARININ MƏDƏNİYYƏTİ

I saat

"Nizamiyyə", Mahmud Kaşğari, Uluqbəy, Gur Əmir türbəsi, Sinan Xoca




**Qeyd.** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Dərslikdə şagirdlərin tanış olacağı məlumatların elə də çox olmadığını nəzərə alaraq və Şərq mədəniyyəti haqqında tam məlumat alınmasını təmin etmək üçün mövzunun müxtəlif təlim üsullarından istifadə etməklə iki saat tədris olunması təklif edilir. Belə olduğu halda şagirdlərin dərsi mənimsəmə keyfiyyəti artar və onlarda tarixin tədrisi zamanı daha çox rast gəlinən bacarıq formalarından olan mətn və tarixi mənbələrlə, dərsliklə işləmək bacarığı, nitq bacarığı, analiz, sintez və müqayisə etmə bacarığı, qiymətləndirmə bacarığı və s. inkişafına şərait yaranar. Bununla belə, dərsi tədris edən müəllim "Şərq xalqlarının mədəniyyəti" mövzusunun tədrisində tam sərbəstdir.

**Standartlar:**

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.
5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

**Təlim məqsədləri:**

1. Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.
3. Şərq mədəniyyətinin inkişafı ilə bağlı materiallar toplayır.

Layihə

**Təlim formaları:** böyük qruplarla və fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, bir dəqiqə

**Dərsin gedişi**

**Motivasiya.** Mövzu ilə bağlı motivasiya qurmağın iki yolu 10-cu mövzunun dərs icmalında verilmişdir. Bununla belə, motivasiya qurmağın daha iki yolu da müəllimlərə təqdim edilir.

**Birinci üsul.** Ola bilər ki, sinifdə hansısa şagirdlərin aktyorluq, oxumaq, çalğı alətində ifa etmək və s. bacarıqları, yəqin ki, olsun. Belə istedadlı şagirdlərdən birini lövhə qabağına çıxardıb onun köməyi ilə bir səhnəcik təşkil etmək və (mahnı oxumaq, çalğı alətində ifa etmək) müvafiq sualların köməyi ilə dərsin motivasiyasını qurmaq olar.

**İkinci üsul.** "PowerPoint" proqramının köməyi ilə şagirdlərə bir neçə tarixi abidənin, rəsm əsərinin, musiqi alətinin, sənətkarlıq nümunələrinin və s. şəkilləri göstərilir və aşağıdakı suallar verilir.

– İzlədiyiniz slaydlarda nə gördünüz?
– İzlədiyiniz slaydları ümumi ad altında necə birləşdirmək olar?

*Mədəniyyət* cavabını aldıqdan sonra bir-iki cümləlik əlavə izah verilir, tədqiqat sualı elan olunur və yeni dərsə keçid edilir.

**? Tədqiqat sualı: Şərq mədəniyyəti dünya mədəniyyətinə necə təsir etdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra əvvəlki dərslərdə istifadə olunmuş "bir dəqiqə" üsulundan istifadə etməklə tədqiqatın aparılması mərhələsinə keçilir. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir. Verilən vaxt bitdikdən sonra aşağıdakı sual və tapşırıqlardan istifadə etməklə dərs davam etdirilir:

– Türk dünyasında təhsilin inkişaf xüsusiyyətlərini izah edin.
– Astronomiya elminin inkişaf xüsusiyyətlərini izah edin.
– Mahmud Kaşğarinin təqvim yaratmasının izahını verin.
– Şərqdə coğrafiya elminin inkişaf xüsusiyyətlərini müəyyən edin.
– Tibb elminin inkişaf xüsusiyyətlərinin izahını verin.
– Piri Rəisin dünya elminə verdiyi töhfələri sadalayın.
– Ədəbiyyatın inkişafını şərh edin.
– Səmərqənd memarlığının inkişaf xüsusiyyətlərini izah edin.
– İstanbul memarlığının inkişaf xüsusiyyətlərini izah edin.
– Hind memarlığının inkişaf xüsusiyyətlərini izah edin.
– Osmanlı memarlığının inkişaf xüsusiyyətlərini izah edin.
– Çinin mədəni və texniki nailiyyətlərini izah edin.
– Memar Sinanın görkəmli mədəniyyət xadimi olduğunu müəyyən edin.

**Qeyd.** Verilmiş tapşırıqlar kifayət etməzsə, müəllim əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki, tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi bitdikdən sonra növbəti mərhələyə keçid edilir. Burada şagirdlərə Şərq mədəniyyətinin inkişaf xüsusiyyətləri, Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsiri ilə bağlı əlavə sual və tapşırıqlar vermək mümkündür. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edildikdən sonra dərsin bu mərhələsi yekunlaşdırılır. Dərsin məqsədlərinə və tədqiqat sualına yönəlik suallar əvvəlcədən hazırlanmalıdır.

Layihə

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici suallarla müraciət etmək olar:

- Sizcə, nəyə görə İslam dünyasında elm və təhsil yüksək inkişaf etmişdi?
- Sizcə, dövlət başçılarının elmə və təhsilə diqqət ayırmasının səbəbi nə idi?
- Molla Nəsrəddin haqqında nə bilirsiniz?
- Müsəlman memarlığında sizin diqqətinizi cəlb edən əsas cəhət hansıdır?
- Şərq mədəniyyəti dünya mədəniyyətinə hansı töhfələri verdi?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər ibtidai cəmiyyətin meydana gəlməsi, inkişafı və tənəzzülünün necə baş verdiyini fərqləndirməyi bacararlar.

**Ev tapşırığı.** Şagirdlərə Şərq mədəniyyətlərinin inkişafı ilə bağlı materiallar toplamaq tapşırılır. Tapşırığın icrasının daha rahat olması üçün onu müxtəlif hissələrə bölüb şagirdlərə vermək daha məqsədəmüvafiq olardı. Məsələn: şagirdlərə türk, islam, Hindistan, Çin mədəniyyəti və ya memarlığının, təhsilin, elmin, ədəbiyyatın və s. inkişafı ilə bağlı materialların toplanması tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** izahetmə, müəyyənetmə, materiallar toplama

Göstərilən meyarlar əsasında müxtəlif vasitələrdən istifadə etməklə şagirdlərin formativ qiymətləndirilməsini həyata keçirmək mümkündür. “Şərq mədəniyyətinin inkişafı ilə bağlı materiallar toplayır” meyarı üzrə şagirdləri qiymətləndirmək onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

# 22 ŞƏRQ XALQLARININ MƏDƏNİYYƏTİ

II saat

**Standartlar:**

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

**Təlim məqsədləri:**

1. Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, auksion, afişaların yaradılması

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərs “Şərq xalqlarının mədəniyyəti” mövzusunun tədrisinin ikinci saatı olduğundan motivasiya qurmaq məqsədəmüvafiq deyil. Bununla belə, dərsə başlamazdan əvvəl ötən dərslə hazırkı dərs arasında əlaqə yaratmaqdan ötrü bir-iki cümlə ilə dərsə giriş edilir.

Layihə

## Tədqiqat sualı: Şərq mədəniyyəti dünya mədəniyyətinə necə təsir etdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın auksion üsulundan istifadə etməklə aparılması məqsədəmüvafiq olardı. Göytürk və Uyğur xaqanlıqları mövzusunun tədrisi zamanı bu interaktiv təlim formasından istifadə olunduğundan dərs zamanı şagirdlər özlərini daha rahat hiss edərlər. Bu da qarşıya qoyulan məqsədə rahat çatmağa köməklik göstərəcəkdir. Şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, onlara bu dərs üsulunun qaydaları qısaca xatırladılır. Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər ayrılıb sıra ilə düzülür. Sıradakı birinci şagirdə auksion üsulunun qaydasına uyğun olaraq sual verilir. Deyilən vaxtda cavablandıra bilməzsə, həmin sualı yanındakı şagirdin cavablandırması istənilir. O da bilməzsə, növbəti şagirddən cavab istənilir. Beləcə, beşinci şəxsədək. Hər bir şagirdə 3 və ya 4 sualın cavablandırılmasına şərait yaradılır. İlk şagird ona verilən sualları cavablandırdıqdan sonra yerinə oturur. Onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hansı şagirdin neçə suala düzgün cavab verməsini lövhə qarşısına çıxan şagirdin qeyd etməsi məqsədəmüvafiq olardı.

Bu üsulun tətbiqi zamanı aşağıdakı suallardan istifadə etmək olar:

1. Hansı Teymuri hökmdarı ölkədə mədrəsələrin tikilməsinə xüsusi diqqət yetirirdi?
2. İlk dəfə not yazısı ilə musiqi əsərləri harada yazılmışdır?
3. Nizamiyyə mədrəsəsi nə vaxt yaradılmışdır?
4. Dünyanın ilk universitetlərindən biri hara hesab olunur?
5. Nizamiyyə mədrəsəsini kim açdırmışdı?
6. Şərqin ikinci ali təhsil ocağı hara sayılırdı?
7. Cəlali təqvimini kim yaratmışdı?
8. Dövrün məşhur astronomlarından olan Teymuri hökmdarı kimdir?
9. Piri Rəis kimdir?
10. Piri Rəis dünya xəritəsini nə vaxt çəkmişdi?
11. İlk farmakologiya kitabı harada yazılmışdı?
12. Fəzlullah Rəşidəddin nə ilə şöhrət qazanmışdı?
13. "Divanü lüğət-it-türk" əsərinin müəllifi kimdir?
14. Molla Nəsrəddin kimdir?
15. Səmərqənd memarlığının şah əsəri nə hesab olunur?
16. Dehli sultanı Qütbəddin Aybək tərəfindən tikdirilən abidə hansıdır?
17. Şahzadə və Süleymaniyyə camilərinin memarı kim idi?
18. Dünyada ilk balet harada meydana gəlmişdi?
19. Metal top ilk dəfə harada ixtira olunmuşdu?
20. Barıt harada ixtira edilmişdi?
21. Hansı qablara çini qablar deyirdilər?

**Qeyd.** Yuxarıda verdiyimiz suallar nümunə xarakterlidir. Bunları artırmaq və ya dəyişdirmək olar. Eləcə də cavablandırılmayan sual təkrarən digər şagirdə verilə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin auksion üsulu ilə tədrisi zamanı sinfin bütün diqqəti bu "bilik yarışı"na cəmlənmiş olur ki, bu zaman da dərsin tədqiqatın aparılması mərhələsində məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də yekunlaşdırılmış olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində müəllimin yekun sözləri ilə şagirdlər son nəticələrə yönəldilərək tədqiqat sualına cavab tapmağa istiqamətləndirilir. Şagirdlərə aşağıdakı suallar verilə bilər:

– Şərq mədəniyyəti dünya mədəniyyətinin inkişafına təsir edibmi? Fikrinizi əsaslandırın.

Layihə

– Şərq mədəniyyətinin hansı nailiyyətlərini yüksək dəyərləndirirsiniz? Fikrinizi əsaslandırın.
– XI–XV əsrlərdə əldə edilən hansı mədəni texniki nailiyyətlərdən indi də istifadə olunur?

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə "Barıtın ixtira edilməsinin əhəmiyyəti" adlı afişa yaradılması tapşırılır.

**Qiymətləndirmə meyarları:** izahetmə, müəyyənetmə

Formativ qiymətləndirmə dərs izlənməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesini izləyərək diqqətdə saxlanılan şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməsi unudulmamalıdır.

Dərsin sonunda refleksiya üçün aşağıdakı suallar da verilə bilər:
– Sizə nə aydın olmadı?
– Hansı suallarınız var?
– Dərsdə qarşıya qoyulan hədəfə çatdınızmı?

# 23 Avropa və Amerika xalqlarının mədəniyyəti

I saat

universitet, humanistlər, kitab çapı, Nikolay Kopernik, Uilyam Şekspir, Qot üslubu, "Mona Liza", Mayya təqvimi




**Standartlar:**
5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

**Təlim məqsədləri:**
1. Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
2. Avropa mədəniyyətinin inkişafı ilə bağlı materiallar toplayır.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, "iki doğru və bir yanlış", krosvord

Layihə

**Dərsin gedişi**

**Motivasiya.** 23-cü mövzunun tədrisi üçün motivasiya qurmaq müvafiq deyil. Çünki hazırkı mövzunu bundan əvvəlki 22-ci mövzunun davamı saymaq olar. Bununla belə, əgər motivasiya qurmaq istənilərsə, mövcud dərsliyin 10-cu və 22-ci mövzularının dərs icmallarında mədəniyyətlə bağlı mövzular üçün bir neçə formada təqdim edilən motivasiyadan yararlanmaq olar.

**Tədqiqat sualı: XI–XVI əsrlərdə Avropa mədəniyyəti necə inkişaf etdi?**

**Tədqiqatın aparılması.** Əvvəlki dərslərdən şagirdlərə tanış olan "iki doğru və bir yanlış" üsulunun köməyi ilə dərsin tədqiqatın aparılması mərhələsi həyata keçirilə bilər. Sinif dörd kiçik qrupa bölünür, hər qrupa bir mövzu verib onlara növbəti tapşırıq elan edilir:

- Bu mövzu haqqında üç fikir yazın.
- Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Bu zaman yanlış doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.
- Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup.** XI–XVI əsrlərdə Avropada təhsilin və elmin inkişafına dair fikirlərinizi yazın.

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**II qrup**. XI–XVI əsrlərdə Avropada ədəbi biliklərin inkişafına dair fikirlərinizi yazın.

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**III qrup.** XI–XVI əsrlərdə Avropada memarlığın və incəsənətin inkişafına dair fikirlərinizi yazın.

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**IV qrup.** Amerika xalqlarının mədəniyyəti haqqında fikirlərinizi yazın.

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun təqdimatını etməsi təşkil edilir. Bu zaman digər qruplar təqdim edilən bu üç fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də dərsin məqsədinə söykənəcək üç fikir söyləməsi (təbii ki, ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı. Bu, müəllimə qarşısına qoyduğu məqsədə çatmasına kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə dərsi yekunlaşdırmaq olar. Bunun üçün aşağıdakı suallardan istifadə etmək olar:

- Ziyalılar necə yarandı?

Layihə

– Humanistlər kimlərə deyirdilər?
– İntibah mədəniyyəti nədir?
– Sizcə, XI–XV əsrlərdə Avropada elm və təhsilin inkişafına təkan verən amillər hansılar idi?
– Utopiya adasını necə təsəvvür edirsiniz?
– İntibah dövrünün hansı mədəniyyət xadimini yüksək qiymətləndirirsiniz? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə əvvəlki dərslərdə təklif edilən 5-6 sözdən ibarət krosvord hazırlamaq təklif edilir.

**Ev tapşırığı.** Avropa mədəniyyətinin inkişafı ilə bağlı materiallar toplamaq tapşırılır. Tapşırığın icrasının daha rahat olması üçün onu müxtəlif hissələrə bölüb şagirdlərə vermək daha məqsədəmüvafiq olardı. Məsələn, şagirdlərə intibah mədəniyyəti, humanistlər, Şekspir, Leonardo da Vinçi, Mikelancelo və s. haqqında materialların toplanması tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** izahetmə, material toplama

Yuxarıda verilmiş meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Bu mərhələ zamanı müəllim müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və səviyyələr üzrə qiymətləndirə bilər. Sonuncu meyar üzrə dərs prosesində şagirdləri qiymətləndirmək onlara verilən ev tapşırığının yerinə yetirilib müəllimə təqdim edilməsindən sonra mümkün olacaqdır. Bütün şagirdlərin ev tapşırığının icra etməsini təmin etmək üçün onlara qiymətləndiriləcəyini demək məqsədəmüvafiqdir.

# 23 Avropa və Amerika xalqlarının mədəniyyəti

II saat

**Standart:**
5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

**Təlim məqsədi:**
Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş, fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, mətnə əsasən cədvəlin doldurulması, "Mən adımı dəyişirəm"

**Dərsin gedişi**
**Motivasiya.** Mövcud dərs 23-cü mövzunun tədrisinə ayrılmış ikinci saat olduğundan motivasiya qurmaq məqsədəmüvafiq deyil.

Layihə

### Tədqiqat sualı: XI–XVI yüzilliklərdə Avropa mədəniyyəti necə inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında "mətnə əsasən cədvəlin doldurulması" təlim üsulundan istifadə etməklə dərs qurmaq mümkündür. Adından göründüyü kimi, bu təlim üsulu zamanı şagirdlər onlara verilən cədvəli mətnə əsasən dolduracaqlar. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz.

**I qrup**

| | İxtisası | Məşhur əsəri | İxtirası və ya nailiyyəti | Əlavə qeyd |
|---|---|---|---|---|
| Rocer Bekon | | | | |
| Nikolay Kopernik | | | | |
| Uilyam Şekspir | | | | |
| Leonardo da Vinçi | | | | |

**II qrup**

| | İxtisası | Məşhur əsəri | İxtirası və ya nailiyyəti | Əlavə qeyd |
|---|---|---|---|---|
| Corduno Bruno | | | | |
| Qalileo Qaliley | | | | |
| Tomas Mor | | | | |
| Mikelancelo | | | | |

**III qrup**

| | İxtisası | Məşhur əsəri | İxtirası və ya nailiyyəti | Əlavə qeyd |
|---|---|---|---|---|
| Rocer Bekon | | | | |
| Qalileo Qaliley | | | | |
| Rafael | | | | |
| Leonardo da Vinçi | | | | |

Layihə

**IV qrup**

| | Avropa | Amerika | Əlavə qeyd |
|---|---|---|---|
| Elm | | | |
| Təhsil | | | |
| Mədəni nailiyyətlər | | | |
| Sizin ən yüksək qiymətləndirdiyiniz nailiyyət | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, əldə etdikləri nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

- Sizcə, universitetlərin açılmasının mədəniyyətin inkişafına hansı təsiri oldu? Fikrinizi əsaslandırın.
- Sizcə, çap üsulu ilə kitabların hazırlanmasının hansı müsbət cəhəti vardır?
- Qərbi Avropa humanist yazıçılarının yaşadıqları dövrə münasibəti necə idi?
- Sizcə, Amerika kəşf olunana qədər onun ən yüksək mədəniyyətə malik olan xalqı hansı idi? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Müəllim "mən adımı dəyişirəm" interaktiv təlim üsulundan istifadə edə bilər. Bu zaman şagirdlərə dərs prosesində rast gəldikləri adlardan birini özlərinə ad kimi seçməsi və bunun səbəbinin izah edilməsi təklif edilir. Məsələn, şagirdlərdən biri özünü Mikelancelo, digəri Şekspir adlandırır və öz seçiminin səbəbini izah edir. Ola biləcək yeknəsəkliyin qarşısını almaqdan ötrü təkrar adın seçilməsinə imkan verilməməlidir.

**Qiymətləndirmə meyarı:** izahetmə

Mövcud dərsin qiymətləndirməsini yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Müəllim əvvəlcədən qiymətləndirməyi nəzərdə tutmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyarı nəzərə almaqla səviyyələr üzrə qiymətləndirə bilər.

Layihə

## Kontur xəritələr



Layihə



Layihe



Layihe



Layihə





Lavyne



Layline


Layne

## İstifadə edilmiş ədəbiyyat

### Azərbaycan dilində


**1.** Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // "Azərbaycan məktəbi" jurnalı, 2013, №5

**2.** Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // "Kurikulum", 2009, №2

**3.** Abbasov Ə. "Qiymətləndirmə keyfiyyətin idarə olunma vasitəsidir". // "Təhsil problemləri" qəzeti, 2009, 11–20 iyun

**4.** Abbasov Ə. "Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri". // "Kurikulum" jurnalı, 2008, №1

**5.** Abbasov Ə. "Kurikulum islahatının əsas istiqamətləri". // "Azərbaycan məktəbi" jurnalı

**6.** Ağayev Əjdər. "Öyrədən öyrənən əməkdaşlığı interaktiv vasitə kimi". // "Təhsil" jurnalı, 2016, №16

**7.** Ağayev S. Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən. Bakı, 2009.

**8.** Bəylərov E. "Formativ qiymətləndirmə". // "Kurikulum" jurnalı, 2011, №3.

**9.** Bəylərov E. "Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair".

**10.** Cavadov İ. "Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsinə dair". // "Kurikulum" jurnalı, 2012, №2.

**11.** Cavadov İ. "Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar". // "Azərbaycan məktəbi" jurnalı, 2014, №4.

**12.** Cavadov İ. "Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə". "Azərbaycan müəllimi" qəzeti, 2014, 30 may.

**13.** Cəbrayılov İ. "Azərbaycan tarixinin tədris metodikası", Bakı, 2006.

**14.** Dəmirov A.H., Məmmədov S.M., İsmayılov Ş.N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2017.

**15.** Əhmədov A. "Ümumtəhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru". // "Kurikulum" jurnalı, 2008, №1.

**16.** Əhmədov A., Şərifov T., Abbasov Ə. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi". // "Kurikulum" jurnalı, 2008, №1.

**17.** Əliyeva K. "Yekun (summativ) qiymətləndirmənin təşkili üsulları". // "Azərbaycan məktəbi" jurnalı, 2011, №5.

**18.** Əliyeva T. "Yeni qiymətləndirmə təhsildə inkişaf deməkdir". // "Azərbaycan müəllimi" qəzeti, 2013, 5 aprel.

**19.** Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.

**20.** Əsədova M. "Diaqnostik qiymətləndirmənin əsas mahiyyəti və ədəbiyyat dərslərində ondan istifadə". // "Azərbaycan müəllimi" qəzeti, 2012, 28 sentyabr.

**21.** Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə prosesi". // "Təhsil problemləri" qəzeti, 2015, 24–30 noyabr.

**22.** Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə vasitələri". // "Təhsil problemləri" qəzeti, 2014, 1 yanvar.

**23.** Əsgərov Ş. "Qiymətləndirmənin yeni kriteriyası, şagird-müəllim nisbəti prosesi". // "Azərbaycan məktəbi" jurnalı, 2012, №2.

**24.** Hacıyeva T. "İbtidai təhsil pilləsində qiymətləndirmənin aparılması barədə". // "Azərbaycan müəllimi" qəzeti, 2010, 29 oktyabr.


Layihə

**25.** Hacıyeva T. "Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti". // "Azərbaycan müəllimi" qəzeti, 2011, 18 mart.

**26.** Hüseynov E. "Fəal interaktiv təlimin üstünlükləri". // "Azərbaycan müəllimi" qəzeti, 2016, 15 oktyabr.

**27.** Hüseynov R. "Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair". // "Azərbaycan məktəbi" jurnalı, 2010, №1.

**28.** Hüseynov R. "Formativ qiymətləndirmə sahəsində mövcud olan bəzi problemlər və onların aradan qaldırılması yolları". // "Azərbaycan məktəbi" jurnalı, 2013, №4.

**29.** İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010.

**30.** Qəniyeva N. "Təlimdə səviyyəyə görə qiymətləndirmə". // "Təhsil problemləri" qəzeti, 2015, 8 mart.

**31.** Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, "Azmaşkom-Tex" Ltd. MMC, 2007, 184 s.

**32.** Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı, 2002.

**33.** Paşayev T. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi. Bakı, 2011.

**34.** Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014.

**35.** Təhsil Qanunu. Bakı, 2009.

**36.** TGC. Təlim və İnkişaf Mərkəzi. Tarix fənni üzrə paylama materialı. Bakı, 2013.

**37.** "Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat" // "Təhsil problemləri" qəzeti, 2013, 08–15 sentyabr.

**38.** Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları" // "Kurikulum" jurnalı, 2009, №4.

**39.** Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim vəsaiti. Xəzər Universiteti-Bakı-2012.

**40.** Veysova Z. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. UNECEF, 2007.

**Rus dilində**

**41.** Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. Учебник стандарты школ России (государственные общеобразовательные стандарты начального общело, основного общего и среднего (полного) общего образования). Книга первая. М., "Прометей", 1998.

**42.** Алиева А., Магомедова З. Меликов Р. Инновационная методика преподавания общественных наук в школе (на примере истории, граждановедения и конфликтологии). Баку, 2001.

**43.** Амонашвили Ш.А. Воспитательная и образовательная функция оценки учения школьников: Экспериментально-педагогическое исследование. М., "Педагогика", 1984, 296 с.

**44.** Амонашвили Ш.А. Основы гуманной педагогики. Книга четвертая. Об оценках, Москва, Амри-та-Русь, 2012.

**45.** Анатолий Гин Приемы педагогической техники. Москва, 2013.

**46.** Безрукова В.С. Педагогика. Ростов-на-Дону, 2013.

**47.** Величко В.В., Карпиевич Е.Ф., Кирилюк Л.Г. Инновационные методы обучения в гражданском образовании. Минск, 2001.

**48.** Вяземский Е.Е. Историческое образование в современной России, Справочно-метадическое пособие для учителей. М., 2002.

Layihə

**49.** Довгялло М.С., Козик Л.А., Сальков А.П. Методика преподавания истории. Минск, 2010.

**50.** Крикунова Т.К. Практическая педагогика. М., 2001.

**51.** Никулина Н.Ю. Методика преподавания истории в средней школе: Учебное пособие, М., 2000.

**52.** Радугин А.А. Психология и педагогика. М., 2001.

**İngilis dilində**

**53.** Andrew Flint and Stuart Jack. Approaches to learning and teaching History a toolk it for international teachers. Cambridge Assessment International Education, 2018.

**54.** Borich.G.D. Efective teaching methods/Upper Saddle River, 1996.

**55.** Chris Husbands, What is History Teaching? Bristol, USA.1996.

**56.** History-social science framework for California Public schools. Education with Criteria for Instructional materials. Sacramento, 2005.

**57.** History 7-11 developing primary teaching skills. London, 1997.

**58.** Linda S. Levistik, Keith C. Barton. Doing history, New York, 2011.

**59.** Russel Tarr. A history teaching tool box. Copyright, 2016.

**60.** Thomas G. Devine. Teaching student skills, Boston, 1997.

**İnternet resursları**

**61.** *http://1905.az/*

**62.** *http://cebhe.info/*

**63.** *http://www.history.az/*

**64.** *http://www.history.ru/*

**65.** *http://www.history.en/*

**66.** *http://www. testlerim.org*

**67.** *http://portal.edu.az/*

**68.** *http://www.muallim.edu.az/*

Layihə